ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# ÜMUMTƏHSİL FƏNLƏRİNİN TƏRBİYƏEDİCİ İMKANLARI

BAKI – 2023

**Elmi redaktor:** **Ənvər Abbasov,**
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent, Əməkdar müəllim

**Nəşrə hazırlayan:** **Bibixanım İbadova,**
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent, Əməkdar müəllim

**Ümumtəhsil fənlərinin tərbiyəedici imkanları (metodik tövsiyə). Bakı: "CN POLİGRAFİYA", 2023, 100 səh.**

Kitabda fənlərin tədrisində tərbiyə məsələlərinə dair metodik tövsiyələr verilmişdir.

Kitab müəllimlər, metodistlər üçün nəzərdə tutulmuşdur. Ondan təhsil sahəsində fəaliyyət göstərən mütəxəssislər, tələbələr, doktorant və dissertantlar da istifadə edə bilər.

**©ARTİ, 2023**

**Mündəricat** Səh.


*Elmi redaktordan*.......................................................................... 4

İbtidai siniflərdə Azərbaycan dilinin tədrisində şagirdlərdə milli-mənəvi dəyərlərə hörmət hissinin formalaşdırılması (*Günay Hüseynova)*.......................................................................... 5

V-XI siniflərdə Azərbaycan dili fənninin tədrisində diskussiya və debatlar vasitəsilə şagirdlərdə müzakirə mədəniyyətinin formalaşdırılması (*Humay Alıkişiyeva*)........................................... 16

Ədəbiyyat fənninin tədrisində şagirdlərə azərbaycançılıq hissinin aşılanması (*Asya Bəkirova*).............................................................. 26

X-XI sinif şagirdlərində ingilis dili dərslərində mənəvi tərbiyənin formalaşdırılması *(Fəridə Heydərova)*............................................. 34

Həyat bilgisi dərslərində kiçikyaşlı məktəblilərdə birgəfəaliyyət tərbiyəsinin formalaşdırılmasının imkan və yolları (*Humay Cəbiyeva*)........................................................................ 46

Fizikanın təlimi prosesində mənəvi mədəniyyətin formalaşdırılması (*Əlişah Gərayev*)................................................. 57

İbtidai siniflərdə texnologiya fənninin tədrisində şagirdlərin estetik tərbiyəsinin inkişaf etdirilməsi *(Natiq Axundov)*................ 66

V-IX sinif şagirdlərində musiqi zövqünün inkişaf etdirilməsi (*Sevda Alxasova*).......................................................................... 83

## Elmi redaktordan

Müstəqil Azərbaycanın qurucusu olan gənc nəsli həyata hazırlamaq üçün təhsilalanlara elmi biliklərlə yanaşı, həyati bacarıqların verilməsi, onların vətənpərvər, milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunması, yüksək mədəniyyətə malik şəxsiyyət kimi formalaşması prioritet məsələlərdəndir. Ümumtəhsil məktəblərində tədris olunan fənlər vasitəsilə həyata keçirilir. Əlbəttə, burada təhsilverənlərin rolunu da xüsusi qeyd etmək lazımdır. Təlimin təşkilində, müvafiq metodlardan məqamında düzgün istifadə nəticəsində bilikli və bacarıqlı, həm də tərbiyəli, zəngin mənəviyyata malik şəxsiyyət yetişdirmək olar.

Azərbaycan xalqının II Qarabağ müharibəsində qələbəsini, gənclərin vətən uğrunda əzmlə döyüşməsini, yüksək vətənpərvərlik göstərməsini ümumtəhsil məktəblərində aparılmış tərbiyə işinin nəticəsi kimi dəyərləndirmək olar.

İnstitutda tərbiyə məsələləri ilə bağlı araşdırmalar aparılmış, Azərbaycan dili, ədəbiyyat, ingilis dili, həyat bilgisi, fizika, texnologiya, musiqi fənlərinin tədrisi zamanı şagirdlərdə azərbaycançılığın, milli-mənəvi və estetik tərbiyənin, müzakirə mədəniyyətinin, musiqi zövqünün, birgəfəaliyyətin formalaşdırılmasının imkan və yollarına dair müəllimlər üçün metodik tövsiyələr işlənmişdir.

Kitab müəllimlər, metodistlər, təhsil mütəxəssisləri, eləcə də təhsil tədqiqatçıları üçün nəzərdə tutulmuşdur.

## İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRƏ HÖRMƏT HİSSİNİN FORMALAŞDIRILMASI

*"Milli-mənəvi dəyərlər hər bir xalqın əsas göstəricisidir". H.Əliyev*

Bizim hamımızın bir vətəni var - bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.

Yəni, tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimiz bizim dəyərimizdir. Bu dəyərlərin gənc nəslə ötürülməsi və aşılanması, hərtərəfli şəxsiyyətin yetişdirilməsi hər zaman təhsil işçilərinin diqqət mərkəzində olmuşdur. Təlim prosesi zamanı şagirdlərə müxtəlif mövzular vasitəsilə dostluq, ailəcanlılıq, vətənpərvərlik, yardımlaşma, mərhəmətlilik, əməksevərlik kimi əxlaqi, mənəvi və milli dəyərlər aşılanır, onlarda bu dəyərlərə hörmət hissi formalaşdırırlır.

Müasir proqramlar yazılarkən məhz bu məsələlər vacib bənd kimi nəzərə alınmışdır.

Qeyd etmək lazımdır ki, hal-hazırda dövlət məktəblərində tətbiq olunan dərsliklər yeni proqramlar əsasında tərtib olunur. Dərsliklər yazılarkən hər bir fənnə aid məzmun xətləri və standartlar nəzərə alınır.

"Təhsil haqqında Qanun"un prioritetlərindən biri millilik və dünyəvilik – milli və ümumbəşəri dəyərlərin qorunması və onların vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsidir. Deməli, ayrı-ayrı fənlərin tədrisi təkcə elmi biliklərin verilməsi ilə nəticələnmir, həm də tərbiyəyə əsaslanır. Tərbiyə məsələləri yalnız humanitar fənlərin tədrisi zamanı deyil, həmçinin, digər fənlərlə birgə, kompleks şəkildə aşılanarsa daha keyfiyyətli nəticələr əldə etmək mümkündür. Milli dəyərlərimizin, mədəniyyətimizin, xüsusən dilimizin qorunub saxlanılması və irsən ötürülməsindən danışarkən ilk yada düşən fənn  məhz Azərbaycan dilidir.

Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi milli maraqlar və dövlətçilik baxımından vacib məsələlərdən biri hesab edilir. Dünya ölkələrində ana dilinin öyrədilməsi milli təfəkkürün formalaşmasında mühüm vasitə kimi yüksək dəyərləndirilir.

Təhsilin ümumi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün keçirilən beynəlxalq və milli qiymətləndirmələrdə ana dili üzrə standartların mənimsənilməsinə xüsusi diqqət yetirilir. Bütün bunlar isə bir fənn kimi ana dilinin şəxsiyyətin formalaşmasındakı müstəsna rolu ilə bağlıdır. Ana dili qüdrətli tərbiyə vasitəsidir. Şagirdlər onun vasitəsilə milli-mənəvi sərvətlərimizi öyrənir, əxlaqi dəyərlərə və yüksək insani keyfiyyətlərə yiyələnirlər [3].

Müasir təhsil bugünkü dünyanın tələblərinə cavab verməli, zəmanəmizin düşüncə tərzinə uyğun olmalıdır. Yeni yaradılan təhsil sistemi “təhsil alanın bir şəxsiyyət kimi formalaşdırılmasını” əsas vəzifələrdən biri kimi qarşıya qoymalı, onun reallaşdırılması üçün bütün imkan və vasitələrdən istifadə etməlidir. Ancaq bu zaman milli və bəşəri dəyərlərə istinad etmək mühüm tələblərdən biri kimi gözlənilə bilər. Lakin ən başlıcası onları tələbatlara uyğun seçmək və düzgün tətbiq etməkdən ibarətdir. Ümumi təhsil məktəblərində Azərbaycan dilinin tədrisi vasitəsilə oxu və yazı texnikasının, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının və s. öyrədilməsi ilə yanaşı, həmçinin Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri, milli-mənəvi dəyərləri haqqında ilkin anlayışların yaradılması təmin olunur. Elə Azərbaycan dili fənni üzrə təhsil proqramında (kurikulumunda) da, ibtidai siniflər üçün nəzərdə tutulmuş ümumi təlim nəticələrində yer almış bəndlərdən biri "Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir" məhz bunun göstəricisidir.

Qlobal dünyanın insanları kimi bu gün özümüzün milli varlığımızı saxlamaqla yanaşı, həm də ümumi düşüncə tərzinə, inteqrativ təfəkkürə sahib olmalı, inkişafı daha geniş miqyasda görməyi bacarmalıyıq. İnkişafımızın səviyyəsini dünya ölkələrinin səviyyəsinə uyğunlaşdırmalıyıq. Əks halda, dünyada aparılan beynəlxalq qiymətləndirmənin tələbləri bizim üçün əlçatmaz bir səviyyəyə çevrilər [5].

İbtidai siniflər üçün tərtib edilmiş Azərbaycan dili dərsliklərində milli-mənəvi dəyərlərlə bağlı verilmiş mövzuları siniflər üzrə belə qruplaşdırmaq olar:

**I sinif:**

*Ailə və məktəb bölməsi üzrə:*

a) Mənim ailəm b) Ramin və dostları

*Vətənim Azərbaycan bölməsi üzrə:*

a) Vətən nədir? b) Vətənimizi tanıyaq c) Vətənimizi sevək

d) Çağırır Vətən!

*Yaxşı nədir, pis nədir bölməsi üzrə:*

a) Ana məhəbbəti b) Mərhəmət c) Dostluq

*Dünyanı kəşf edirəm bölməsi üzrə:*

a) Keçmişə səyahət.

**II sinif:**

*Dəyərlərimiz bölməsi üzrə:*

a) Bayraqlar b) Üçrəngli bayraq c) Əbədi məşəl d) Vətən

e) Rənglərin anası ə) Novruz bayramı f) Azərbaycan əlifbası

g) Qədim xalça ğ) Çahargah əfsanəsi

*Yaxşı nədir, pis nədir bölməsi üzrə:*

a) Şəhidlər xiyabanı b) Xocalı müsibəti

**III sinif:**

*Mənəvi dəyərlər bölməsi üzrə:*

a) Qənaətcillik b) Qeybət c) Qartalın təşəkkürü d) Ağıllı qarışqa e) Cəmil+Mahir=.... ə) Atanın oğluna nəsihəti

*Tarixi şəxsiyyətlər bölməsi üzrə:*

a) Üzeyir Hacıbəyli b) Şah İsmayıl Xətai c) Hacı Zeynalabdin Tağıyev

*Bayramlar və tarixi günlər bölməsi üzrə:*

a) 18 Oktyabr- Dövlət Müstəqilliyi günü b) İlaxır çərşənbələri

c) Bahar bayramı d) Dini bayramlarımız e) Milli Musiqi günü

ə) Ana dili f) Qorxulu yanvar gecəsi g) Azərbaycanda ilk milli qəzet ğ) Çərpələng

**IV sinif**

*Ailə və məktəb bölməsi üzrə:*

a) Ən qiymətli

*Niyə belə deyirik bölməsi üzrə:*

a) Bayrağım b) Əsgər marşı c) İtə ataram, yada satmaram

*Dostluq bölməsi üzrə:*

a) Yoldaşlıq köməyi b) Qaraca qız və Ağca xanım

*Ana təbiət bölməsi üzrə:*

a) Novruz bayramı

*Əxlaqi dəyərlər bölməsi üzrə:*

a) Məni itirməyin b) Ən böyük dövlət c) Buz; d) Çinar ağacı. Xan çinar; e) Çiçək-yeddi rəng ləçək; ə) Yaxşılığa əvəz f) Körpə nəğmənin nağılı g) Lalə və Məryəm ğ) Məftunun bağa getməsi h) Zəhmət və Zinət x) Xor

Aparılan araşdırmalar göstərir ki, I-IV siniflər üçün dərsliklərdə Azərbaycan Respublikası Təhsil nazirinin 23.01.2006-cı il tarixli 33 nömrəli əmrlə təsdiq olunmuş "Ümumi təhsil sistemində dərslik siyasəti" sənədinin 3.1. (Dərsliklərdə:- şagirdlərin Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, Vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hörmət etməsinə yönələn ideyalar olmalıdır) bəndi rəhbər tutulmuş və ona tam olaraq riayət edilmişdir.

Dərsliklərdə verilmiş “Mənim ailəm”, “Ramin və dostları”, “Ana məhəbbəti”, “Mərhəmət”, “Məni itirməyin”, “Ən böyük dövlət”, “Qaraca qız və Ağca xanım”, “Zəhmət və Zinət” mövzular vasitəsilə "ailə", "dostluq", "əxlaq"; “Vətən nədir?”, “Bayrağımız”, “Əbədi məşəl”, “Novruz bayramı”, “Əsgər marşı” mövzular vasitəsilə vətənpərvərlik və s. kimi milli dəyərlərimiz aşılanır, şagirdlərdə bu dəyərlərə hörmət hissi formalaşdırılır.

Milli-mənəvi dəyərlərimizə hörmət hissini həm təlim prosesində, həm də dərsdənkənar tədbirlərdə formalaşdırlmaq olar.

**Təlim prosesində.**

Dərsdə şagirdlərdə milli-mənəvi dəyərlərimizə hörmət hissinin formalaşdırılmasının müxtəlif yolları vardır. Müəllimlər dərsdə öz işlərini təşkil etmək üçün müxtəlif üsul və imkanlardan istifadə edirlər. Onlara işlərini

düzgün təşkil etməkdə yardım göstərmək üçün mövzu ilə əlaqəli bir dərs nümunəsinə nəzər salmaq məqsədəuyğun olardı.

***Dərs nümunəsi.***

**III sinif**

**Standart:**

1.1.1. Dinlədiyi fikirləri müqayisəli təhlil edir.
2.2.3. Mətnin geniş planını tutur.
3.1.4. Təsvir və nəqli xarakterli inşalar yazır.

**Mövzu:** Gəncə darvazası

**Məqsəd:**

"Gəncə darvazası" mətninin geniş planını tutur və təsvir xarakterli esse yazır.

**İnteqrasiya:** H.b. 1.2.1.

**İş forması:** kollektiv iş, fərdi iş.

**İş üsulu:** BİBÖ, müzakirə.

**Resurslar:** dərslik, iş vərəqləri, şəkillər.

**Dərsin gedişi:**

**Motivasiya.**

Müəllim proyektor vasitəsilə şagirdlərə cədvəl nümayiş etdirir və onlara müraciət edir:

- Uşaqlar, sizə öncədən Gəncə darvazası haqqında məlumat toplamaq üçün tapşırıq vermişdim. Yəqin ki, artıq mətnlə tanışsınız. İşə başlamazdan öncə cədvəlimizə nəzər salaq.

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

Bu cədvəldəki birinci sütunda Gəncə haqqında bildiklərimizi, ikinci sütunda bilmək istədiklərimizi, üçüncu sütünda isə müəyyən araşdırma apardıqdan sonra dərsin sonunda öyrəndiklərimizi yazacağıq.

**Tədqiqat sualı:** Gəncə darvazası xalqımız üçün nə kimi dəyərə malikdir?

**Tədqiqatın aparılması.**

**Müəllimin şərhi:**

Uşaqlar, bizim bu gün mətn üzərində aparacağımız əsas iş plantutma olacaqdır.

Bundan sonra müəllim ekranda mətni nümayiş etdirir və deyir: Uşaqlar, siz artıq mətnlə tanış olduğunuz üçün mən onu oxumayacağam. Sadəcə olaraq mən hər abzasda olan ümumi fikirdən və plana uyğun yarımbaşlığın necə seçilməsindən sizə bəhs edəcəyəm. Ona görə də biz bu mətni hissə-hissə oxuyaraq, hər hissədə olan ən vacib məlumatı seçib abzasa yarımbaşlıq verməliyik.

Uşaqlar, əgər yarımbaşlıqları daha dəqiq təyin etməkdə çətinlik çəkirsinizsə, hər bir abzasın ilk və son cümləsinə diqqət yetirməklə hissədəki ümumi fikri müəyyənləşdirə bilərsiniz.

Mətn üzrə iş aparılır. Şagirdlərlə birlikdə mətnin planı tərtib edilir:

| **Mətnin planı** |
|---|
| 1. Gəncə darvazasının hazırlanması. |
| 2. Zəlzələ nəticəsində Gəncə darvazasının aşması. |
| 3. Gürcü çarının Gəncəyə hücumu. |
| 4. Gəncə darvazasının Gürcüstana aparılması. |

Hazırlanmış plan əsasında şagirdlər fikirlərini söyləyir. Tədqiqat sualına istinad edilərək mətnin ideyası, ondan çıxan nəticə müzakirə edilir.

Gəncə haqqında daha ətraflı məlumatlanmaq, eyni zamanda şagirdlərin dinləyib-anlama bacarıqlarını müəyyən etmək üçün “**Gəncə necə yarandı?”** mətni səsləndirilir.

**Dinləmə mətni.**

**Gəncə necə yarandı.**

Rəvayətə gorə, hərbi yürüşə çıxmış bir sərkərdə öz qoşunu ilə gəlib Arana yetişir. Burada dincəlmək üçün üç təpənin yanında düşərgə qurur. Gecə oz alaçığında yatarkən o, qəribə bir yuxu görür. Naməlum bir səs ona deyir: “Ortadakı təpədə xəzinə basdırılmışdır. Öz atını o təpəyə sür. At harada dırnağını yerə döysə, oranı qazdır. Böyük bir xəzinə tapacaqsan. Xəzinədəki pullarla həmin yerdə şəhər tikdir. Adını da Gəncə qoy”.

Sərkərdə səhər duranda yuxuya əhəmiyyət vermir, onu yaddan çıxarır. Amma sonrakı iki gecə yuxu təkrar olunur. Üçüncü gün sərkərdə yuxuda ona deyildiyi kimi edir. Atını ortadakı təpəyə sürür. Həqiqətən də, at bir yerdə dayanıb dırnağını yerə döyməyə başlayır. Sərkərdə həmin yeri qazdırır. Qazılan yerdən qızılla dolu küplər tapılır. Bu qızılın hesabına sərkərdə Gəncə şəhərini saldırır.

Deyilənə gorə, “Gəncə” sözu də elə xəzinə deməkdir.

**Şagirdlərə fərdi tapşırıq verilir:** Öyrəndiyiniz və dinlədiyiniz mətn əsasında “Gəncə bizim mədəni irsimizdir” mövzusunda esse yazın**.** Esselərdən bir neçəsi dinlənilir.

Dərsin sonunda şagirdlər fərdi şəkildə aşağıdakı tapşırıqları cavablandırır.

**Tapşırıq 1.**

| **Mətndə bu suala cavab yoxdur:** |
|---|
| A) Göygöl nə zaman əmələ gəlib? |
| B) Zəlzələ zamanı Gəncənin hakimi kim idi? |
| C) Gəncəyə qalası nə zaman inşa edilmişdir? |

**Tapşırıq 2.**

| **Doğru, yoxsa yanlış?** |
|---|
| 1. Gəncə darvazasını Usta İbrahim hazırlamışdır. (D) |
| 2. Gəncə darvazasının aşmasına səbəb ustaların səhvi oldu. (Y) |
| 3. Gəncə darvazası gürcü çarına hədiyyə üçün hazırlanmışdı. (Y) |
| 4. Göygöl zəlzələ nəticəsində yarandı. (D) |

**Dərsdənkənar tədbirlərdə.**

Dərsliklərin araşdırılması zamanı əldə olunan nəticələrə əsaslanaraq deyə bilərik ki, yuxarıda qeyd olunan mövzuların tədrisindən əlavə hər bir ibtidai sinif müəllimi, şagirdləri milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli yetişdirmək üçün aşağıdakı alternativ yollardan da istifadə edə bilər:

a) Azərbaycan folklorunda, şifahi və yazılı xalq ədəbiyyatında mövzu ilə əlaqəli internetdə çoxlu sayda məlumatlar mövcuddur. Həmin resurslardan istifadə edərək hər bir müəllim öz işini düzgün təşkil edə bilər. Bundan əlavə, müəllimlər “Adət və ənənələrimiz milli-mənəvi dəyərlərimizin göstəricisidir” adlı gecə təşkil edə bilərlər. Mövzu müəyyən edildikdən sonra müəllim mövzu ilə yaxından tanış olur, sənədli materiallar, maraqlı faktlar əsasında tədbirin ssenarisini tərtib edir. Adətən belə gecələr kiçik məruzə və mühazirə ilə başlayır. Gecə, tədbirdə iştirak edən ziyalıların çıxışları, milli dəyərlərin təbliği mövzusunda təşkil edilmiş sənədli, elmi-kütləvi, bədii filmlərin göstərilməsi və ya bədii özfəaliyyət dərnəklərinin konserti ilə başa çatır. Çox vaxt gecələr üçün sərgilər, kitab vitrinləri hazırlayır, məsləhət görülən ədəbiyyatın siyahısını asırlar.

b) Sinifdə “Milli-mənəvi dəyərlərimiz və mədəniyyətimiz” adlı sosioloji sorğu keçirmək olar. Sorğunun məqsədi şagirdlərin mənəvi dəyərlərimiz haqqında olan biliklərini yoxlamaq, onlara mənəvi dəyərlərimizin qorunması, tanınması üsullarını aşılamaq və ümumilikdə onları milli-mənəvi dəyərlərimiz haqqında maarifləndirməkdir.

Sorğunu keçirməzdən əvvəl uşaqların yaş xüsusiyyətləri nəzərə alınır, ona uyğun olaraq sorğunun məqsədi, mövzusu barəsində qısa arayış, açıqlama verilir. Sorğunu təxmini bu suallar üzrə tərtib etmək olar: “Milli dəyərlər dedikdə nə başa düşürsünüz?”, “Siz milli dəyərlərimiz haqqında nə bilirsiniz?”, “Milli dəyərlərin qorunması üçün nə edirsiniz?”, “Milli dəyərlərin qorunması və təbliğinin əhəmiyyəti nədən ibarətdir?” və s.

c) Xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış tarix və mədəniyyət abidələrinə doğma münasibət aşılamaq üçün məktəblərə müxtəlif rayonların mədəniyyət mərkəzlərinin işçiləri və digər müəssisələrdən qonaqlar dəvət etməklə “Milli-mənəvi dəyərlərimiz bugün və sabah” adlı dəyirmi masa keçirmək olar. Tədbirlərdə unudulmuş adət-ənənələrimizin təbliği, Azərbaycan xalqının milli xarakteri, dini, fəlsəfi və psixoloji görüşləri, əxlaqi, ailə və cəmiyyət münasibətləri, vətən, torpaq sevgisi, dilimizin şirinliyi, aşıq havasının ürəkləri oxşayan həzinliyi və s. bu kimi söhbətlər aparıla bilər.

d) Ana dilinin təbliği ilə bağlı məktəblərdə təşkil edilən bütün tədbirlər - söhbətlər, disput və müzakirələr, ədəbi-bədii gecələr və s. şagirdlərdə dilimizə olan məhəbbət hissləri formalaşdırır.

Azərbaycan Respublikasının qanunvericiliyində 21 fevral ölkəmizdə Ana Dili Günü kimi qeyd edilir. Artıq bir neçə ildir ki, Təhsil Nazirliyinin təşəbbüsü ilə müxtəlif rayonların, eləcə də paytaxtın orta məktəblərində təhsil alan şagirdlər mahnı, şeir nominasiyaları üzrə bacarıqlarını nümayiş etdirirlər. Belə tədbirlər zamanı müəllimlərimizin ana dilimizin saflığından, zənginliyindən söhbət açması, şair və yazıçılarımızın, elm xadimlərimizin əsərlərindən parçalar seçməsi, nümunələr gətirməsi və söhbətlərin düzgün istiqamətli olmasına çalışması məqsədəuyğun olardı.

e) Azərbaycan xalqının qədim və zəngin folklorunu əks etdirən Novruz bayramı da Azərbaycançılıq ideyasını, xalqımızın milli-mənəvi irsini özündə

təcəssüm etdirir. Bu baxımdan Novruz bayramını, onun milli özəllikləri ilə yanaşı, sülh və barış kimi bəşəri dəyərlərin təcəssümü olaraq dünyaya tanıtmaq, təbliğ etmək çox mühüm məsələdir. Xalqımızın milli dəyərlərini təbliğ etmək üçün məktəb və rayonlarda təşkil edilən "Novruz şənlikləri" adlı tədbirin hazırlanmasında şagirdlər də fəal iştirak edə bilər. Keçiriləcək tədbirin kompozisiyasından asılı olaraq xüsusi proqram, ssenari tərtib edərək səhnəcik qurmaq olar. Təbiidir ki, tədbirə hazırlaşmaq yaradıcılıq qabiliyyəti tələb edir. Təşkilatçı şənliyin əvvəlindən sonuna kimi bütün elementləri (çıxış, rəy, qonaqlara söz vermə, musiqi nömrələrini) ssenaridə əks etdirir. İştirakçıların yerləşdirilməsi, aparıcıların yeri, qonaqların qarşılanması, tədbir keçiriləcək yerin mövzuya uyğun bəzədilməsi, lazımi stend, sərgi və s. əvvəlcədən planlaşdırılır. Tədbir mövzu ilə bağlı şeir, bədii qiraət və yaxud səhnəciklərlə tamamlana bilər. Müəllim tərəfindən şənliyin mövzusuna uyğun ədəbiyyat sərgisi, viktorina, ədəbi oyunlar hazırlanır. Məktəbdə rəssamlığa, memarlığa maraq göstərən şagirdlərin rəssamlıq, memarlıq qabiliyyətlərini aşkara çıxarmaq və maraqlarını təmin etmək üçün bayrama aid çəkiləcək ən yaxşı illüstrasiyalar, hazırlanacaq maketlər üçün müsabiqə elan edilir. Novruz bayramına aid tərtib edilmiş maraqlı ədəbi viktorina da ssenariyə əlavə edilir. Müəllim şagirdlərin köməyi ilə bayramın simvolu olan keçəl və kosanı tamaşa üçün hazırlayır. Tədbirin keçirilməsində dekorasiya, aktyor geyimlərindən yerində istifadə edilməlidir. Tədbirdə Novruz tamaşaları musiqi, kəndirbaz oyunları, rəqslərlə, rayonun folklor kollektivlərinin çıxışları, bayram ənənələrini əks etdirən milli kulinariya nümunələri də nümayiş etdirmək olar. Novruzla bağlı muğam ifaçıları və sənətçiləri də dəvət etmək olar.

ə) 15 may Beynəlxalq Ailə Günündə məktəbdə "Mənim ailəm", "Ailə və məktəb" və s. adlarda söhbətlər təşkil etmək olar. Belə vitrinlərdə əsas tələbat – maksimum dərəcədə əyanilik və operativlikdir.

f) Milli-mənəvi dəyərlərimizin şagirdlərdə formalaşdırılmasının yollarından biri kimi şair və yazıçıların əsərlərini təbliğ etmək üçün sərgilər, icmallar, söhbətlər, kitab müzakirələri keçirmək olar. Milli mənəvi dəyərlər adət-ənənələrlə nəsildən-nəslə ötürülən yazılmamış qayda-qanunlardır,

onların mənfi ünsürlərdən qorunması və təbliğində müəllimlərin üzərinə böyük məsuliyyət düşür.

g) Müəllimlər Heydər Əliyev Fondunun milli dəyərlərin təbliği ilə əlaqədar nəşr etdirdiyi yeni kitabların təqdimatını keçirə bilər. Tədbirdən əvvəl elan hazırlanır. Elanda kitabın müəllifi və annotasiyası öz əksini tapır. Oxucuların rəylərini öyrənmək üçün "anket-sorğu" paylanır. Bundan başqa kitab haqqında buklet və dəvətnamələr də hazırlamaq olar. Müəllif və kitab haqqında qısa məlumat, keçirilmə yeri və vaxtı göstərilmiş dəvətnamələr əlaqədar təşkilatlara göndərilir. Kitabların təqdimat mərasimi aparıcının giriş sözü ilə başlayır. O, iştirakçıları salamlayaraq, kitabın mövzusu, təqdimatın məqsədi haqqında məlumat verir. Aparıcı təqdim olunan kitabın ya özünü, ya da foto şəklini nümayiş etdirir. Proyektorun köməyilə ekranda kitabın elektron variantı nümayiş etdirilir. 10-15 dəqiqə ərzində kitabın kimlər üçün nəzərdə tutulduğu haqqında danışılır və elektron variantda kitabın içindəkilər (mündəricatı) göstərilir. İştirakçılara kitabın yerləşdiyi internet ünvanlar haqqında məlumat verilir. Daha sonra oxucularla dialoq aparılır. Kitabın əhəmiyyəti haqqında rəy və mülahizələr öyrənilir və mövzuya uyğun suallar verilir. Mərasimdə müəllifin iştirakı çox vacibdir, çünki ortaya çıxan bir çox sualları yalnız o cavablandıra bilər. Bütün tədbirlərdə olduğu kimi kitab təqdimatları da 5-10 dəqiqəlik son sözlə yekunlaşdırılır. Bu zaman kitabın əhəmiyyətindən bir daha danışılır, kitabı necə əldə etmək haqqında məlumat verilir.

ğ) Bu gün kütləvi informasiya vasitələri gənclərimizin milli dəyərlər zəminində tərbiyə olunmasında güclü vasitədir. Azərbaycan Respublikasının ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsi daha böyük aktuallıq tələb edir. Milli-mənəvi dəyərlərə bağlılıq vətənpərvərlik hisslərini gücləndirir, insanın əsl vətəndaş kimi yetişməsində birbaşa rol oynayır. Vətənpərvərlik hissi insanda uşaqlıqdan tərbiyə edilməli, kiçik yaşlarından aşılanmalıdır. İbtidai siniflərdə keçirilən ədəbi və mədəni tədbirlər uşaq psixologiyasına daha çox və tez təsir göstərir. Ədiblərimizin vətənin tərənnümü və vətənpərvərlik ruhunda yazdığı şeirlərinin müsabiqəsini təşkil etmək, nəsr əsərlərindən tamaşalar

səhnələşdirmək, vətənə sədaqət, onun maddi və mənəvi dəyərlərini qorumağı təbliğ etmək vətənpərvərlik hisslərinin formalaşdırılmasında əvəzsiz rol oynayır. Keçirilən tədbirlərdə bayramlarımızdakı adət-ənənələrin, xalq dramları və oyunlarının göstərilməsi məktəblilərin milli ruhda tərbiyə olunmasına təkan verir. Həmçinin, Vətənimizin müdafiəsi istiqamətində Azərbaycan ziyalıları, bütün dünyada məşhur olan mədəniyyət və incəsənət xadimləri, digər ölkələrdə yaşayan diaspor nümayəndələri ilə yanaşı müəllimlər də dövlətə daha fəal yardım göstərə bilərlər. Bu məqsədlə məktəbdə "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" adlı müzakirə təşkil etmək olar. Bu gün erməni vandallığı nəticəsində dağıdılmış, məhv edilmiş abidələr onların bugünkü və gələcək taleyi barəsində muzakirələr aparılmalı və onların aradan qaldırılması yolları aranmalıdır. Müzakirə zamanı mövzunun düzgün dəyərləndirilməsi məqsədilə Qarabağ müharibəsi iştirakçıları və mütəxəssis şəxslər, memar və heykəltəraşlar, hərbi jurnalistlər və s. dəvət oluna bilər. Müzakirənin mövzuya aid sənədli film ətrafında da keçirilməsi də mümkündür. Müzakirə giriş söhbəti ilə başlana bilər. Müzakirə iştirak edənlərin fikir mübadiləsi, hamının fəal iştirakı və irəli sürülən məsələyə münasibətin aydınlaşdırılması şəraitində keçirilir [1].

Məktəblərdə maarifləndirici tədbirlərin keçirilməsi, elm və tanınmış sənət adamlarının mülahizə və düşüncələrinin geniş ictimaiyyətə təqdim olunması və digər amilləri özündə əks etdirən tədbirlərin yer alması mənəvi dəyərlərin əsas meyarlarının ortaya qoyulmasında həlledici rola malikdir.

Müasir dövrün tələblərinə uyğun olaraq hər bir məktəbin "Milli-mənəvi dəyərlər" adlı elektron məlumat bazasının yaradılması məqsədə uyğundur.

## İstifadə edilmiş ədəbiyyat


1. Azərbaycan dili, 1-ci sinif üçün dərslik. Müəlliflər: Ü. Nurullayeva, N. Allahverdiyeva, İ.Bayramova, A. Xanalıyeva, Ş. Zahidova. Bakı-2020.
2. Azərbaycan dili, 2-ci sinif üçün dərslik. Müəlliflər:D. Cəfərova, Z. Xəlilov, G. Orucova, R. İsmayılov. Bakı-2018.
3. Azərbaycan dili, 3-cü sinif üçün dərslik, Müəlliflər: Z. Xəlilov, D. Cəfərova, G. Orucova, R. İsmayılov, Bakı-2018

4. Azərbaycan dili, 4 –cü sinif üçün dərslik, Müəlliflər: R. İsmayılov, S. Abdullayeva, D. Cəfərova, X. Qasımova, Bakı-2019.
5. Əliyeva N. Riyaziyyat fənninin tədrisində milli-mənəvi dəyərlərin aşılanması// Azərbaycan Respublikasının Təhsil İnstitutu, "Elmi əsərlər", cild 85, № 8, 2018.
6. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.
7. http://www.e-qanun.az/alpidata/framework/ data/18/c_ f_ 18343.htm
8. http://www.e-qanun.az/framework/42543
9. https://edu.gov.az/az/page/162/537
10. https://www.youtube.com/watch?v=43O8wykk-oo&feature=youtu.be

## V-XI SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ FƏNNİNİN TƏDRİSİNDƏ DİSKUSSİYA VƏ DEBATLAR VASİTƏSİLƏ ŞAGİRDLƏRDƏ MÜZAKİRƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

İnsan cəmiyyəti dayanmadan inkişaf edir. İnformasiya bolluğu şəraitində yaşamağımız bəzən bizim canlı ünsiyyətdən kənar qalmağımıza səbəb olur.

Müasir insanlar günün tələbi kimi zamanlarının çox hissəsini kompüter arxasında keçirir. Vaxt darlığı səbəbindən də insanlararası ünsiyyətin böyük hissəsi məhz İKT vasitəsilə reallaşır. Lakin insan istər iş, istərsə də şəxsi həyatında yalnız birbaşa ünsiyyət və mədəni-mənəvi dəyərlərə yiyələnməsi ilə uğura nail ola bilər.

Ünsiyyət problemi müasir təhsil sistemində şagirdlər və müəllimlərin tez-tez üzləşdiyi problemdir. Sinifdəki uşaqlar müxtəlif xarakterə sahib olduqları üçün hər hansı bir məsələyə yanaşma tərzləri, ünsiyyət, dinləmə və danışma bacarıqları da fərqlidir. Bu fərqliliyin qarşıya çıxartdığı problemləri müasir təlim texnologiyalarından istifadə zamanı aşkarlamaq mümkündür. Müəllimin tapşırığı ilə sinifdə hər hansı bir mövzu ilə bağlı iş zamanı şagirdlərin bir qismi asanlıqla yoldaşları ilə əlaqə qurur, qrup və ya fərdi iş zamanı əməkdaşlıq edərək ortaq nəticələr əldə edə bilirlər. Bəzi şagirdlər

isə yoldaşları ilə dialoqa girməkdə çətinlik çəkir, fikir mübadiləsi zamanı fikirlərini tam sübuta yetirə bilmir, digər güclü şagirdin təsirinə düşür.

### 1.1. Diskussiya və debat anlayışlarıninn mahiyyəti və fərqli xüsusiyyətləri

Təlim texnologiyalarının əksəriyyəti şagirdlərdə müxtəlif həyati bacarıqların formalaşdırılmasına istiqamətlənmişdir. Onların içərisində debat və diskussiyalar daha ağır çəkiyə malikdir.

Debat və diskussiyanın mahiyyəti, müəllimin eyni problemin fərqli həll yollarını ortaya qoyması və iştirakçıları mövqelərini seçməyə və əsaslandırmasına yönəltməsidir. Debat və diskussiyaların gedişatı zamanı müəllim mübahisənin dəlillərini aşkar etmək, aydınlaşdırmaq, əlavə suallar təqdim etmək tərəfdarıdır, çünki müzakirə iştirakçılarının vəzifəsi təkcə fikirlərini müdafiə etmək deyil, əksini də təkzib etməkdir.

Müzakirədə iştirak edənlərin mövqelərinin müəyyən edilməsi (onların düzgün və ya səhv qərarları) şagirdlərin şüurundakı əsas nəzəri prinsipləri və nəticələri daha möhkəm və inandırıcı şəkildə təsdiqləməyə imkan verir. Debat və diskussiyalarda müzakirənin məqsədi şagirdlərə hər hansı məlumatı hazır şəkildə vermək deyil, şagirdlərin elmi düşüncələrini formalaşdırmaq, müstəqillik və fəaliyyətlərini stimullaşdırmaq, problemləri müzakirə etmək və həlli yolları tapmaq bacarıqlarını inkişaf etdirməkdir. Bütün şagirdlərin ümumi müzakirəyə cəlb edilməsi son dərəcə əhəmiyyətli olan ortaq nəticəyə, zəif nəticə göstərən şagirdlərlə "güclü" şagirdlər arasında ünsiyyət və müzakirə mədəniyyətinin formalaşmasına kömək edir.

Diskussiya müzakirə və mübahisəli sualların həlli metodudur. Hal-hazırda bu, təhsil sistemində ən geniş yayılmış, şagirdlərdə tənqidi və məntiqi təfəkkürü inkişaf etdirən əsas metodlardan biridir. Bu zaman sanki şagirdlərin fərqli baxış nöqtələri toqquşur. Diskussiya müzakirə olunan problemin bir neçə həll yolu olduqda yaranır. Müzakirənin gedişatında iştirakçılar onun daha uyğun və optimal həlli yolunu tapırlar. Diskussiyanın nəticəsi-ümumi razılıq, daha yaxşı dərketmə, problemə yeni baxış və ümumi həll yolunun tapılmasıdır. L.S.Vıqotski, S.L.Rubinşteyn və bir çox alimlər sübut etmişlər ki, insanın intellektual səviyyəsi

onun həm daxili, həmdə xarici-sosial aləmində baş verən proseslərin məhsuludur. Onlar qeyd edirdilər ki, daha dərindən düşünmə qarşılıqlı əlaqə, daha sadə desək, insanlararası dialoq zamanı yaranır. Çünki bu zaman onlar həm öz fikirlərini sübut etməyə çalışır, həm də digər fikirləri dinləyərək daha uyğununu seçir, alternativ fikirləri dinləmiş olurlar [1].

Diskussiya – hər hansı mübahisəli sualın kütləvi şəkildə müzakirəsidir. Müzakirə zamanı tərəflərdən biri öz arqumentlərini gətirir, digər tərəf isə bu arqumentlərin əksini iddia edir. Diskussiya zamanı şifahi nitq inkişaf edir, təfəkkür aktivləşir, polemika, tərəf müqabilini dinləmə mədəniyyəti formalaşır ki, bu da problemin həllinə marağı artırır. Diskussiyanın təsirli olması üçün mütləq seçilən mövzunun müxtəlif həll yolları olmalıdır ki, şagirdlər arasında müzakirəyə şərait yaransın. Diskussiya üçün mövzu seçdikdən sonra növbəti addım rolların paylanmasıdır. Rollar olmaya da bilər, amma müzakirə zamanı bir moderatorun (aparıcı) olması daha yaxşıdır. Çünki o, müzakirə prosesini təşkil edir, qaydalara əməl olunmasına nəzarət edir, diqqəti ən vacib məqamlara cəlb edir. Diskussiya zamanı rol dedikdə, aşağıdakılar nəzərdə tutulur:

- taymer (vaxt ölçən);

-vasitəçi (öz fikrini bildirməyən təşkilatçı);

-tənqidçi və ya skeptik (şübhə edən, problemi kəskinləşdirən, əks mövqeyi müdafiə edən);

-təxribatçı (müzakirə qaydalarını qəsdən pozan), o, iştirakçıları qızğın müzakirəyə təhrik edir;

-ekspert (müşahidəçi, tədqiqatçı);

-məruzəçi (çıxış edən).

Diskussiyada 3 tərəf iştirak edir: aparıcı, hakim və iştirakçılar. Əsas yük aparıcının üzərinə düşür. Müzakirələrdə hər üç tərəfin vəzifə və öhdəlikləri var. Diskussiya zamanı aparıcı:

- diskussiyanın etik qaydalara uyğun keçilməsinə cavabdehdir;

- o, anlaşılmaz məsələ olduqda əlavə suallar verərək problemin mahiyyətini açılmasına köməklik göstərməli;

- ehtiyac yaranarsa, arqumentləri iştirakçıların nəzərinə təkrar çatdırmalı;

- diskussiyanın canlı keçməsinə çalışmalıdır.

*Uğurlu diskussiyanın aparılma qaydaları dedikdə,* aqressivlikdən uzaq olmaq, məsələyə tənqidi və təxmini yanaşma, bir-birinin sözünü kəsmədən dinləmək, reqlamentə əməl etmək nəzərdə tutulur. *Diskussiya iştirakçıları* mütləq şəkildə, ancaq səslənən fikirləri (onu səsləndirən şəxsi deyil!) tənqid etməli, öz fikrini yeritməyə çalışmamalı, digər mövqeli və fikirli insanlara tolerant yanaşmalı, emosiyalarını idarə edə bilməli, diskussiyanı inkişaf etdirməli və ona yeni ideyalar gətirməli, müzakirələrdə fəal iştirak etməli, səmimi və lakonik olmalı, nəticələri refleksiya halına gətirməli, aparıcının təkliflərini nəzərə almalıdırlar.

Diskussiyanın gedişatında hər bir iştirakçı:

- "Siz haqlı deyilsiniz" əvəzinə "Mən sizinlə razı deyiləm" ifadəsini işlətməli;
- diskussiya zamanı mütləq faktlara əsaslanmalı;
- bir mövzunu bitirmədən digərinə keçməməli;
- hamının fikrini diqqətlə dinləməli;

hər arqumentin inandırıcı olmasına diqqət edilməli;

- digər iştirakçıların fikirlərinə hörmətlə yanaşmalı, məsələnin alternativ həlli yollarının ola biləcəyi faktını qəbul etməli;
- problemin həlli yollarının tapılmasının çətin bir proses olduğunu qəbul edərək hər hansı bir uğursuzluq zamanı ruhdan düşməməlidir.

Diskussiya zamanı müzakirə olunan mövzu və ya problem haqqında ümumi bir razılığa gəlmək lazımdır. Burada əsas məqsəd-problemi müzakirə etmək və dərindən araşdırmaq, mövqeləri aydınlaşdırmaq, fərqli həll yolları tapmaq və bu fərqliliyi görmək, öz fikrinin üstündə duraraq onu müdafiə etmək və aktiv dinləmə bacarıqlarını inkişaf etdirməkdir. Diskussiya üçün ən vacib məqamlardan mövzu ilə bağlı şagirdlərin kifayət qədər materialının olmasıdır. Diskussiya ilə adi müzakirənin fərqli xüsusiyyətləri aşağıdakı cədvəldə təhlil olunmuşdur.

| **Xüsusiyyətlər** | **Adi müzakirə** | **Diskussiya** |
|---|---|---|
| Kim daha çox danışır? | Dərsin 2/3 hissəsi müəllimin ixtiyarındadır. | Dərsin yarısı, bəzən isə yarıdan çoxu şagirdlərin payına düşür. |
| Davranış | Sual-cavab<br>1.Müəllim soruşur.<br>2. Şagird cavab verir.<br>3.Müəllim qiymətləndirir. | Sual-cavab yoxdur<br>Şagird-müəllim sual-cavabında fikir mübadiləsi |

| | | |
|---|---|---|
| Fikir mübadiləsi | Sürətli, qısa fikirlər | Tədricən, geniş fikirlər |
| Suallar | Sual vacib deyil, şagirdin bilikləri vacibdir | Sualın mənası, mahiyyəti vacibdir. |

## 1.2. Proqram və dərsliklərdə debat və diskussiya anlayışı

Tədqiqat işi yazılarkən müxtəlif mənbələrə istinad edilmiş, proqram və dərsliklərdə debat və diskussiyaların aktuallığı araşdırılmışdır. Əvvəlcə, Azərbaycan dili fənn kurikulumu standartlarında siniflər üzrə debat və diskussiyalarla bağlı qurula biləcək işlərin əks olunmasına baxaq.

Nümunə:

V sinif. 1.1.1. Danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır.

VI sinif. 1.2.4. Problemlə bağlı mülahizələrini söyləyir.

VII sinif. 1.2.4. Müzakirələrdə deyilmiş müxtəlif fikirlərə münasibət bildirir.

VIII sinif. 1.2.3. Nitq etiketlərindən məqamında istifadə edir.

IX sinif. 1.1.2. Dinlədiyi fikirlərə münasibət bildirir.

X sinif. 1.2.1. İfadə edəcəyi fikrə uyğun üslub seçir.

IX sinif. 1.2.2. Əsaslandırılmış fikir və mülahizələr söyləyir (2).

V-XI sinif dərsliklərini təhlil edərkən debat və diskussiyaların bütün siniflər üzrə müəyyən qədər istifadəsini görmüş oluruq. V sinifdə 5 debat, 1 müzakirə, VI sinifdə 3 debat, VII sinifdə 3 debat, 3 müzakirə, IX sinifdə 3 debat, 1 fikir mübadiləsi, 2 müzakirə, X sinifdə 1 müzakirə, 1 debat, XI sinifdə 1 fikir mübadiləsi, 1 debat, 4 müzakirə ilə bağlı tapşırıqlar verilmişdir.

## 1.3. Şagirdlərdə müzakirə mədəniyyətinin formalaşdırılması yolları

Debat-özündə mübahisə, müzakirə, ziddiyyət və çəkişməni əks etdirən fəaliyyət, interaktiv və müxtəlif əks tərəflərin iştirakı ilə edilən müzakirə metodudur. Debatda məntiqi davamlılıq, faktların dəqiqliyi və auditoriyanın emosional inandırılması mühümdür. Debat zamanı tərəflərdən biri digərini məsələni daha geniş çərçivədə, daha mahircəsinə əsaslandıra bilməsi ilə üstələyir. Debatda faktlardan daha çox tərəflərin öz aralarında gəldiyi nəticə əsas sayılır.

Debatın müxtəlif formalarının tarixi qədim Yunanıstana gedib çıxsa da, müasir formada debat cəmiyyətlərinin yaranması XVIII əsrdə baş vermişdir. Debat cəmiyyətləri XVIII əsrin əvvəllərində Londonda yaranmış və tezliklə milli həyatın məşhur armaturuna çevrilmişdir. Bu cəmiyyətlərin necə yaranması haqqında dəqiq məlumat olmasa da, XVIII əsrin ortalarında Londonda artıq aktiv debat cəmiyyəti mədəniyyəti formalaşmışdı. Debat mövzuları dövlət siyasətindən tutmuş sevgi və evlilik məsələlərinə qədər geniş sahəni əhatə edirdi. Bu Debat Cəmiyyətləri öz sıralarına cinsindən və sosial mövqelərindən asılı olmayaraq hər kəsi qəbul edir və o intibah dövrünə ictimai sferada öz töhfəsini verirdi. Bu cəmiyyətlər hər kəsə öz fikirlərini bildirməyə və tənqid etməyə imkan verən, yeni ideyalara qucaq açan müzakirə sferası formalaşdıra bilmişdilər [3].

Debat elə bir intellektual oyundur ki, hər iki komanda öz arqumentlərini irəli sürərək üçüncü tərəfi haqlı olduqlarına inandırmağa çalışır. Debatda ən azı 3 nəfərdən ibarət iki komanda iştirak edir və onlar "spiker" adlanır. Birinci spiker arqumenti təqdim edir, ikinci spiker mübahisə xəttini genişləndirərək sübutları inkişaf etdirir, üçüncü spiker isə final nəticəni digər komandaya çatdırır. Digər komandanın hər üç spikeri göstərilən arqumentlərin əksini sübuta çalışır.

**Debatın metodologiyası**

1. Fasilitator iştirakçıları iki qrupa bölür (qrupların sayı problemə dair fikirlərin sayından asılıdır). İştirakçılar problemin həllinə hansı nöqteyi-nəzərdən dəstək verəcəklərini seçir və ya püşkatma yolu ilə bölünürlər.

2. Fasilitator müzakirə mövzusu və müzakirə qaydaları-qruplarda hazırlıq vaxtı (10-15 dəqiqə), qrupun debatlarda danışması üçün ümumi vaxt (15 dəqiqə) haqqında məlumat verir. Qrupların nümayəndələri növbə ilə çıxış edir.

Hazırlıq əsnasında şagirdlər rolları qrup üzvləri arasında bölüşdürür və ayrılmış vaxtı necə düzgün idarə edəcəyinə qərar verirlər. Bir qrupun nümayəndələri digər qrupların nümayəndələrinə suallar verməklə yanaşı rəqiblərinin arqumentlərini şərh edə bilərlər. Qruplar rəsmlərdən, diaqramlardan və digər əyani vasitələrdən istifadə edə bilər. Qrup nümayəndələri çıxışlarının ardıcıllığı barədə razılığa gəlməlidirlər.

Qeyd etmək lazımdır ki, debatlara gedən yol qrup işlərindən keçir. Qrup işi şagirdlərə vacib keyfiyyətlər əldə etməyə imkan yaradır. Məsələn, qarşılıqlı kömək, ümumi razılığa gəlmə, güzəştə getmək, öz fikrini dəlillərlə sübut etmək, digər fikir və mövqelərə tolerantlıq və s. bütün bunlar kommunikativ mədəniyyət anlayışının ayrılmaz hissələridir.

Nümunə: Debat (V sinif)

Mövzu: Bu gün dilimizdə aktiv işlədilən əcnəbi sözlər dilin lüğət tərkibini zənginləşdirir, yoxsa əksinə?

Mövzu elan olunduqdan sonra şagirdlər bu problemlə bağlı arqument axtarmağa başlayırlar. Hər iki tərəf öz mövqelerinin doğruluğunu sübut etmək üçün ən güclü və dəqiq arqumentləri tapmalıdırlar. Bunun üçün onlara 7-8 dəqiqə vaxt verilir.

Hər iki komandanın arqumentləri aşağıdakı ardıcılllıqla aparılır:




Əldə olunan nəticələr ifadə olunur.

Daha sonra hər iki qrupun sübuta yetirdikləri arqumentlər tutuşdurulur və təhlil olunur.

Müzakirələr zamanı müəllimin qarşılaşa biləcəyi problemlər:

-müzakirələr zamanı səs-küy;

-şagirdlərin bir-birinin fikirlərinə qarşı tolerantlıq nümayiş etdirməməsi;

-hakimlərin çıxardığı qərara narazılıqların  olması;

-həm qrupdaxili, həm də qruplararası müzakirələrdə ünsiyyət zamanı müxtəlif problemlər yaşanması.

**Meys debatı.** Mövzu: *İnsanlar danışarkən dialekt sözlərdən istifadə etməlidirlər, ya yox?*

Debatın bu növü İngiltərədə məktəblilər arasında məşhurdur. Oyunda iki komanda və hər komandada iki oyunçu olur. Təsdiq tərəf hər hansı bir təkliflə çıxış edir, inkar tərəf isə bunun əleyhinə çıxmalıdır. Müəyyən edilmiş ardıcıllıqla (Təsdiq 1, İnkar 1, Təsdiq 2, İnkar 2) spikerlər hər biri yeddi dəqiqəlik çıxış edir. Hər çıxışın beşinci dəqiqəsindən sonra opponent komanda

üzvləri spikerə sual vermək hüququna malikdirlər, təbii ki spikerin də buna razılığı olmalıdır. Belə suallar adətən komandanın zəif nöqtəsindən vurmaq, ya da spikerin dediyi hər hansı fakta qarşı çıxmaq üçün verilir. Yuxarıda xatırladılan dörd çıxış bitdikdən sonra auditoriya komandalara öz suallarını ünvanlayır. Sualların ardıyca hər komandadan bir spiker (bu adətən 1-ci spiker olur) 4 dəqiqəlik çıxış edir. Bu yekun çıxışda auditoriyanın verdiyi suallara cavablar, eləcə də mövqeyin yekun əsaslandırılması öz əksini tapır. Debatın bu formatında analitik bacarıqlar, xüsusi tərz, arqumentlərin güclülüyü əsas götürülür.

Debat iştirakçıları debatçılar rəqiblərinə şəxsi hücumlardan çəkinməli, mübahisə edənlər səmimi şəkildə mübahisə etməli, debatçıların istifadə etdiyi verbal və qeyri-verbal ünsiyyət vasitələri başqalarına hörmət və tolerantlıq əks etdirməli, mübahisə edənlər vicdanlı və dəqiq olmalı, heç vaxt faktları, nümunələri və ya fikirləri bilərəkdən təhrif etməməli və hakimlərin qərarına hörmətlə yanaşmalıdır.

Debat iki nöqtəni müdafiə etikasına əsaslanır- bu o deməkdir ki, hər iki tərəf həm mövzunun təsdiqlənməsi, həm də onun rədd edilməsi üçün müdafiə etməyə hazır olmalıdır. Debatdakı hər iki tərəf üçüncü tərəfi (hakimləri) mövqelərinin düzgünlüyünə inandırmağa çalışırlar.

Debat 3 mərhələdən ibarət şəkildə həyata keçirilir:

*Debatların başlanğıc hissəsi.*

Bu hissədə aparıcının çıxışı iştirakçıları həvəsləndirməli, onlarda mövzuya maraq yaratmalıdır. Aparıcı debatın daha təsirli keçməsi üçün mövzu ilə bağlı müxtəlif hadisələri motivasiya şəklində istifadə edə bilər.

“Qarşımızda...”, “Mən istəyirəm…”, “İstərdim ki...”, “Təklif edirəm ki...” “Gəlin fikir mübadiləsi edək…”, “Müzakirə edək...” kimi ifadələr aparıcının debatın gedişində istifadə edə biləcəyi açar sözlərdir. Bu sözlərdən istifadə etməklə aparıcı məsələnin aktuallığını iştirakçıların nəzərinə çatdırır və onların məsələ ilə bağlı məlumatlarının daha dolğun şəkildə cəmləşməsinə nail olur.

*Əsas hissə.*

Debat iştirakçıları müxtəlif yanaşmalar irəli sürürlər: fikir mübadiləsi edir, problemə müxtəlif tərəflərdən yanaşır, faktları qiymətləndirir, problemin həlli yollarını axtarır və s. Bu hissədə aparıcı daha çox reqlamentə əməl olunmasına diqqət edir. Aparıcı iştirakçılara vaxtı xatırladaraq mədəni şəkildə "Sizi dayandırmaq məcburiyyətindəyəm" söyləməklə iştirakçılar arasında sabitliyi qorumalıdır. Həmçinin, aparıcı iştirakçıların mövzudan kənara çıxmalarına imkan verməməli, debatın mövzusu ilə bağlı suallar verərək iştirakçıların çıxışını növbələməli və çıxışlar arasında əlaqə yaratmalıdır. Ekspert və müşahidəçilər debatın gedişatına nəzarət edir, nəticə olaraq debat haqqında öz fikirlərini söyləyir və şagirdlərin çıxışlarını qiymətləndirirlər.

*Yekun hissə.*

Aparıcı bütün nəticələri ümumiləşdirir, iştirak üçün hər bir iştirakçıya təşəkkür edir, ekspert və müşahidəçilərə debat ərzində eşitdikləri barədə çıxış üçün söz verir. Aparıcı debatı "Beləliklə...", "Və...", "Demək ..", "Bir sözlə...", "Ardıcıl olaraq..", "Belə bir nəticəyə gəlmək olar ki... ", "Belə nəticəyə gəldik ki..." sözlərinin köməyi ilə yekunlaşdırır.

Debat iştirakçılarda intellektual səviyyədə çıxış etmək, liderlik hissi, bilik və bacarıqlarını zənginləşdirmək, müasir problemləri tədqiq və təhlil etmək, təhlilləri əlaqələndirmək, kollektivlə işləmək, təqdimat üçün təsirli nitq hazırlamaq, tənqidi yanaşma, düzgün qərarvermə bacarığı və özünəinam hissi formalaşdırır.

Debat və diskussiyaların təşkili zamanı müəllim qarşısına müəyyən məqsədlər qoymalıdır. Bu müzakirələr vasitəsilə şagirdlərdə hansı bacarıqları formalaşdıra biləcəyini, bunun üçün üsul və vasitələrini öncədən müəyyən etməlidir.

*Diskussiya və debatın sonunda müəllim fəaliyyətini dəyərləndirmək üçün aşağıdakı suallara cavab verməlidir:*

1.Əldə ediləcək məqsəd doğru seçilibmi?

2. Seçilən mövzu müzakirə üçün uyğundurmu?

3.Şagirdlərin müzakirədə aktiv iştirakına nail oldummu?

4. İnamsız şagirdlər dəstəkləndimi?

5. Açıq suallardan istifadə etdimmi?

6. Qoyduğum məsələ şagirdlərdə tədqiqatçılıq bacarıqları formalaşdırdımı?

7. Sinfin marağını mövzunun müzakirəsinə yönəldə bildimi?

8. Müzakirəni təsirli etmək üçün hansı vasitələrdən istifadə etdim?

9. Hansı səbəblər diskussiyanın effektini aşağı saldı?

Debat və diskussiyaların təşkilində bu prosesin idarə olunması əhəmiyyətli məsələdir. Müəllim yalnız kiçik qruplara məsləhət vermir, eyni zamanda öyrənmə vəziyyətlərinin planlaşdırılmasında aktiv rol oynayır, şagirdlərin işini və fəaliyyətini stimullaşdırır, tapşırıqların və problemlərin qrupun imkanlarına uyğun olduğuna və şagirdlərin ünsiyyət metodlarının başa düşülən olduğuna əmin olur. Müəllim prosesin gedişatına müdaxilə etməyərək, yalnız şagirdləri açıqlamalar verməyə ruhlandırır, onlara inam aşılayaraq, müzakirəni əsas problemlər istiqamətinə yönəldir.

Diskussiyada müəllim tərəfindən sinifdə müsbət mühit (qarşılıqlı hörmət) yaradılmalı, normalar daxilində müstəqil müzakirə təşkil olunmalı, təhqiredici yanaşmalara qadağa qoyulmalı, şagirdlər müzakirəyə hazırlanmalı, müzakirə olunan mövzu barədə sual və şəxsi fikirlərin yaranmasına zaman verilməli, qruplararası diskussiyada tarazlığın qorunmasına şərait yaradılmalıdır.

Debat və diskussiyaların əsas üstünlüyü problemin müzakirəsi zamanı şagirdlərdə etik davranış qaydaları, verbal və qeyri-verbal ünsiyyət bacarıqları və müsbət motivasiyanın formalaşdırılmasıdır. Şagird təkcə müəllimdən deyil, həm də yoldaşlarından öyrənir, çünki kollektiv iş şagirdə bilik və bacarıqlarını yoldaşları ilə bölüşməyə imkan verir və onu gələcək həyat rollarında çevik münasibətlərə hazırlayır.

## İstifadə edilmiş ədəbiyyat

1.http://www.voppsy.ru/issues/1982/824/824061.htm

2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı: 2015, səh.212.

3. https://cyberleninka.ru/article/n/diskussii-i-debaty-kak-sredstvo-sovershenstvovaniya-kultury-rechi

4.https://az.wikipedia.org/wiki/M%C9%99d%C9%99niyy%C9%99t

5. Ümumi təhsilin fənn standartları (I-II siniflər). Elmi red. A.O. Mehrabov, Bakı, Mütərcim, 2012, 402 səh.

6. Abdullayev, N. Nitq mədəniyyətinin əsasları, Bakı: 2013, səh.275

7. Abbasəliyeva, R. Dildə ekspressivlik və emosionallığın verbal və qeyri-verbal ifadə vasitələri, Bakı, 2018.

8. Həmzəyev, M.Ə. Əmiraslanova, S.F. Ünsiyyətin psixologiyası, Ali məktəblərin bakalavr pilləsi tələbələri üçün dərs vəsaiti, Bakı: 2007, səh.180.

## ƏDƏBİYYAT FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRƏ AZƏRBAYCANÇILIQ HİSSİNİN AŞILANMASI

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda azərbaycançılıq ideyalarına sadiq vətəndaşın yetişdirilməsi təhsilin əsas məqsəd və vəzifələrindən biri hesab edilmişdir. Bu mənada, heç şübhəsiz, azərbaycançılıq ideyasının əsas qayəsinin böyüməkdə olan nəslə aşılanması, onların Vətənə, dövlətçiliyə, dövlət rəmzlərinə, ilk növbədə isə Azərbaycanın himninə və bayrağına, milli-mənəvi dəyərlərə hörmət və sadiqlik, düşmən qüvvələrə barışmazlıq ruhunda tərbiyəsi, Vətənin müdafiəsinin şərəf və ləyaqət nümunəsi olması ideyasının təbliği məktəblərimizdə aparılan ideoloji işlərin vacib tərkib hissəsidir. Şagirdlərə aşılanmalıdır ki, istər tədris prosesində, istərsə də tədbirlərdə böyüməkdə olan gələcək nəslin hərtərəfli yetişməsi üçün vətənini sevmək, öz xalqına, vətəninə sadiq və onların mənafeyi yolunda canından keçməyə hazır olan insan, birmənalı olaraq, vətənpərvərdir.

Haradan başlanır Vətən? Vətən böyüyüb boya-başa çatdığımız, suyunu içib, havasını udduğumuz diyardır. Hər kəs öz varlığı ilə vətəninə, doğma yurduna bağlı olmalı, onu göz bəbəyi kimi qorumalıdır. Vətənpərvərlik özü üçün deyil, eli, obası, yurdu üçün yaşamaqdır.

Ümumtəhsil məktəblərində Azərbaycanın qədim tarixi, elmi, mədəniyyəti, ədəbiyyatı və incəsənəti, tarixi şəxsiyyətləri, Azərbaycanın dövlət rəmzləri – atributları haqqında bilgilərin verilməsi azərbaycançılığın şagirdlərə aşılanmasında, onların tərbiyəsində müstəsna əhəmiyyət kəsb edir. Ədəbi-bədii materialların zənginliyi fonunda müəllimlərin pedaqoji ustalığı ondan ibarətdir ki, onlar şagirdlərin şüuruna, dünyagörüşünə, hissiyyatına təsir edən nümunələr - ədəbi parçalar əsasında iş aparırlar.

“Hər bir insanın, insan adı daşıması üçün o, tərbiyə olunmalı, ədəb görməlidir” (N.Gəncəvi). Şagirdlər bu tərbiyəni evdə valideynlərdən, məktəbdə müəllimlərdən alır.

Məktəbdə şagirdlərin intellektinin inkişafına güclu mütaliə, incəsənət əsərləri ilə tanışlıq, sənətkarlarla görüşlərin keçirilməsi, teatr tamaşalarına baxış və s. mübət təsir göstərir.

“Azərbaycançılıq” ideyası milli-əxlaqi, mənəvi dəyəri kimi qədim bir tarixə malikdir. Azərbaycançılığı mənəvi dəyər kimi xalqına- milətinə bağlı olan hər bir azərbaycanlı əsrlər boyu qəlbində, könlündə yaşatmış, yasadır və yaşadacaqdır. Lakin bu fikrin dilimizdə “azərbaycançılıq” deyə ifadəsi və milli tərbiyə sistemində xüsusi yer almasına istiqamət verilməsi ümümimilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

“Azərbaycançılıq” anlayışı bəzən “Vətənpərvərlik” anlayışı ilə eyniləşdirilir. Belə düşünənlər hardasa səhvə yol verirlər. Doğrudur, vətənpərvərlik – vətəni sevmək azərbaycançılığın tərkib hissəsidir, lakin azərbaycançılıq daha geniş anlayışdır. Bu, Azərbaycan xalqının yaratdığı milli adət-ənənələrini, inamını, əxlaqi görüşlərini, dini etiqadını, ailə münasibətlərini və s. kimi məsələləri də əhatə edir. Bu mənada şagirdlərin azərbaycançılıq ruhunda böyüməsində məktəbin, təhsilin üzərinə çox ciddi vəzifə düşür. Çünki şagirdlərin əsas formalaşma dövrü məktəblə bağlıdır.

İnkaredilməz bir həqiqətdir ki, tərbiyə işində milli xüsusiyyəti nəzərdən qaçırmaq mümkün deyil. Hər xalqın özünün tarixi təcrübəsi var. Bunu mütəfikkirlərin, Azərbaycan ədəbiyyatı klassiklərinin və başqalarının əsərlərində, məsələn, Nizami Gəncəvi, Məhəmməd Füzuli, və Abbasqulu ağa Bakıxanovun əsərlərində, bir qədər də konkret deyilsə, nəsihətlərində aydın görmək olar.

Doğrudur, "azərbaycançılıq" ideyası bir termin kimi yenidir, ancaq mahiyyəti qədim tarixə malikdir. Azərbaycançılıq türkçülük terminin varisidir. Onun konkretləşmiş, yeni əlamətidir.

Ədəbiyyatdan təlim materialları üzərində iş aparılarkən, azərbaycançılığı tarixi kökündən ayırmaq olmaz. Azərbaycançılığın gücləndirilməsi Azərbaycan dövlətçilik ideyasının tərkib hissəsidir.

Ümummilli lider Heydər Əliyevin məşhur kəlamı olan "Mən həmişə fəxr etmişəm ki, mən azərbaycanlıyam" sözləri hər bir azərbaycanlının qəlbində yaşayan ülvi hissdir.

Ədəbiyyatımızın qədim dövründə də rəsmi dövlət dili ərəb-fars olmasına baxmayaraq, türk dilinə, doğma ana dilinə sevgi var idi və xalq arasında sənət əsərləri yazılırdı, yaranırdı. Bu mənada doğma dilimiz olan Azərbaycan dili zəngin tarixə malikdir. Doğma dilimizə, vətənimizə, elimizə-obamıza, onun dilbər guşələrinə olan sevgi, məhəbbət istər lirik, istərsə də epik əsərlərdə əksini tapmışdır.

V- IX siniflərdə bir sira lirik nümunələr üzərində praktik iş aparılaraq şagirdlər lirik əsərlərin xüsusiyyəti ilə tanış edilir. X-XI siniflərdə isə lirika haqqında məlumatlar nisbətən ətraflı, geniş verilir və təhlil olunur. Buna isə həm təlim materiallarının məzmunu, həm də şagirdlərin qavrama səviyyəsi imkan verir. Həm V-IX, həmdə X-XI siniflərdə doğma dilimizə, vətənimizə məhəbbət ifadə edən istənilən qədər nümunələr var. Məsələn, VI sinif ədəbiyyat dərsliyində Azərbaycanın xalq şairi Xəlil Rza Ulutürk haqqında məlumat verilib. Şair ədəbi yaradıcılığa 50-ci illərdə başlamışdır və öz yaradıcılığında şifahi xalq ədəbiyyatı nümunələrindən bəhrələnmiş, folklorumuzda başlıca yer tutan vətən, dilimizə hörmət, azadlıq, xalqın haqq işi uğrunda mübarizə mövzularına bir sıra gözəl sənət inciləri yaratmışdır. Onun poeziyası mərdlik, saflıq, olan məhəbbət hissi, kamillik, insana, bəşəriyyətin gələcəyinə inam, dilimizə məhəbbət önəmli səciyyə daşıyır.

Şairin "Mənim dilim" şeirində mayasını şifahi xalq ədəbiyyatından almaqla laylalarımıza, bayatılarımıza, dilimizə, onun saflığına dərin məhəbbət hissi duyulmaqdadır:

...Layla çalır gəlin ana.
Yelləndikcə kiçik yüyrük

Gedib dəyir bu ulduzdan o ulduza.
Layla axır... Cocuq baxır,
Bəs nə üçün mürgüləmir?
Bayaq ana südü əmib,
İndi ana ruhu əmir.
İllər ötdü, yaşa doldum,
Anladım ki, ana dilim
Ürəyimdən çıxmaz mənim,
Doğransam da dilim-dilim.

Xəlil Rza bu şeiri yana-yana, odlana-odlana yazmışdır. Nədir bu hisslər, nədir onu belə alovlandıran, yandırıb-yaxan. Əlbəttə ki, Vətən sevgisi, dilimizə olan sönməz məhəbbəti hissi. “Kim qoruya bilmirsə öz yurdunu, yuvasını, udmasın yurd havasını” misraları ilə şair doğma ana dilinə doğma vətəninə sadiqliyi ön plana çəkilir və “O sahili bu sahilə birləşdirən polad körpüm, qolumdur, günəşimdir mənim dilim!” deyərək hayqırır.

Eləcə də aşıq ədəbiyyatının nümayəndəsi Sarı Aşığın (XVII əsr) dilindən verilmiş bayatıda da dilimizə olan məhəbbət hissi açıq-aydın görünür.

Mən aşiq dilim-dilim,
Qovun kəs dilim-dilim.
Öz dilimdən dönmərəm,
Doğransam dilim-dilim.

Aşığın bayatılarında dilinə olan məhəbbət, vətən məhəbbəti, vəfa, inam, sədaqət fədakarlıq motivləri başlıca yer tutur.

Vətən sevgisi, Abbas Səhhətin “Vətən” adlı şeirində də öz əksini tapır:

Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim.
...Vətən-əcdadımızın mədfənidir,
Vətən- övladımızın məskənidir.
Vətənin sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz.

Səməd Vurğunun dillər əzbəri olan “Azərbaycan” şeiri VII sinifdə öyrədilir. Bu lirik şeirin doğma yurdumuza həsr olunmuş əsərlərin içərisində xüsusi yeri var. Xalq mahnısına çevrilən bu şeirin məzmunu onun maraqlı

oxunmasına, sevilməsinə və yadda qalmasına səbəb olmuşdur. Bu şeir sanki Azərbaycanın xəritəsidir ki, şair diyar-diyar o yerləri gəzərək doğma Vətənini tərənnüm edmişdir. Hər misrası insanın gözü önündə gözəl bir mənzərə canlandırır. Əsərin dilinin şirin və axıcı olması ilk misralardan oxucunu valeh edir. Məsələn:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam, doğma Vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Doğma yurda, elə, obaya bağlılığın verilməsi və bu zaman bədii təsvir və ifadə vasitələrindən istifadəyə şagirdlərin diqətinin yönləndirilməsi, şeir üzrə iş aparılması onlarda azərbaycançılıq hissinin gücləndirilməsinə xidmət etmiş olar.

Onu da qeyd edək ki, dilimizə, vətənimizə olan sonsuz sayqı, məhəbbət S.Vurğun yaradıcılığının mərkəzi xəttini təşkil edir. Vətən ana rəmzidir, hətta iki söz birləşərək "Ana Vətən" şəklində işlənir. Şair öz şeirlərində Vətən anlayışını daha da ülviləşdirir, müqəddəsləşdirir.

... Mən bir uşaq, sən bir ana,
Odur ki bağlıyam sana.
Hanki səmtə, hanki yana
Hey uçsam da, yuvam sənsən,
Elim, günüm, obam sənsən

misralarında şair özünün doğma yurduna,vətəninə bağlılığını çox sadə, sərbəst ifadə edir.

V sinifdə tədris olunan Mir Sabirin "Ana dilim" şeiri də dilimizə olan sevginin bariz nümunəsidir.

Böyük-böyük salonlardan,
Sən danışıb, dinən zaman,
Arzularım açır çiçək,
Gözlərimdə gülür cahan,
Ana dilim, Ana dilim.
Füzulinin nəfəsisən,

Qərib-qərib ölkələrdə,
Doğma vətən əvəzisən
Ana dilim, Ana dilim.

Ədəbiyyat dərslərində şagirdləri bədii əsər üzərində azərbaycançılıq və onun atributları ilə bağlı işlətməyə xüsusi diqqət yetirilməlidir. Axı ədəbiyyat təlimi təpədən-dırnağa qədər tərbiyə vasitəsidir və sənətkarlarımızın yaradıcılığında istənilən qədər belə əsərlərə rast gəlinir.

Xalq şairi, şeirləri ilə ürəklərə yol tapan, qəlbləri riqqətə gətirən dahi söz ustadımız Bəxtiyar Vahabzadə düşündürən şairdir. O, bütün varlığı ilə dilimizi, vətənimizi sevməyə, ona dəyər verməyə səsləyirdi. “Ana dilinə dəyər verməyən bir xalqın nə keçmişi, nə də gələcəyi olmaz” deyirdi.

Onun “Vətəndaş” şeiri bu baxımdan tərbiyəvi əhəmiyyət daşıyır:

Vətəndaş! Nə gözəl səslənir bu söz,
Vətən əbədidir, gedəriyik biz
İnsan qüvvətlidir öz vətənində,
Bilirik, dünyaya biz niyə gəldik.
O, bizi yaradan, biz ona bəndə,
Yaradan uğrunda ölməyə gəldik.

Ümumiyyətlə, araşdırmalar, məktəb təcrübəsi də göstərir ki, B. Vahabzadə yaradıcılığında, doğma dilimizə, vətənə, insanın vətəndaşlıq borcuna həsr olunan şeirlər, əsərlər mühüm yer tutur. “Vətəndaş” şeirinin hər bəndin əvvəlində təkrar olunan vətəndaş sözləri qüvvətli anaforadır.

Necə ki A.Səhhətin “Vətənim” şeirində ikinci misrasında təkrar olunan “ Vətənimdir, vətənimdir, vətənim” sözləri vətənə, doğma diyara olan məhəbbəti tərənnüm kimi qüvvətli təkrir yaradır:

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim.

Lirik əsərlərin tədrisində görkəmli sənətkarlarımızın əsərləri vasitəsilə dilimizin, vətənimizin gözəlliyinin qorunub saxlanması və bizdən sonra gələn nəsillərə ötürülməsi üçün əlimizdən gələni etməliyik.

Bildiyimiz kimi, ədəbiyyatdan təlim materiallarının böyük bir qismini epik əsərlər təşkil edir. Proqram və dərslikləri nəzərdən keçirdikdə aydın olur ki, şa-

girdlər epik nümunələrlə hələ ibtidai siniflərdə tanış olur, kiçik həcmli hekayələr oxuyub məzmunu öyrənir, münasibət (öz səviyyəsinə uyğun) bildirirlər. Bu iş getdikcə, yəni yuxarı siniflərə keçdikcə mürəkkəbləşir, daha mürəkkəb quruluşlu, həcmcə böyük əsərlər proqramda öz əksini tapır, şagirdlərin ixtiyarına verilir. Epik janrda yazılan əsərlərin hər biri müxtəlif mövzuların tərənnümünə həsr olunur, yəni hər bir epik əsərdə azərbaycançılığın bu və ya digər komponentləri öz əksini tapdığından, müəllimlər şagirdləri bu istiqamətdə axtarışa yönləndirməlidir.

Görkəmli yazıçı Abdulla Şaiqin əsərlərində doğma vətəninə, yurduna, xalqına sonsuz vurğunluq öz əksini tapır. Vətənimizin bənzərsiz təbiəti, təbiətə vurğunluq əsas ideya kimi diqqəti cəlb edir. "Köç" hekayəsində Kərim baba ilə şəhərli oğlanın vətəninə, torpağına, təbiətinə vurğunluğunu əks etdirən detalları göz qabağında canlandırdıqca Kərim baba ilə bağlı yazıçının məqsədi aydın olur. Hekayədə sadə əmək adamlarının yaşayış tərzi, yurdumuzun, doğma vətənimizin, onun təbiətinin əsrarəngiz, gözəllikləri təsvir olunur. Şəhərdən yaylağa qonaq gələn uşaq Kərim babanın timsalında kəndlilərin təbiətə, babanın doğma yurduna olan münasibətindən çox şey öyrənir. Əsərin öyrədilməsi zamanı hekayənin vətənə məhəbbət, doğma yurda, təbiətə vurğunluq mövzusunda yazdığı qeyd edilir.

Şagirdlər əsərin məzmunundan başlıca olaraq bir həqiqəti başa düşürlər ki, həqiqətən doğma yurda, onun təbiətinə məhəbbət hissi hər bir azərbaycanlının amalı olmalıdır. Belə bir fikir formalaşır ki, vətəni sevmək, ilk növbədə, onun insanlarına dəyər vermək, təbii sərvətlərinin qədrini bilmək deməkdir.

"Azərbaycan!.. Doğma vətənimin gözəl təbiəti var. Şəhərlərə məxsus olan kəsimdən arabir yarpaqlar qımıldanır, təpələrə, çöllərə xalı kimi döşənmiş lətif, yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığırmış quşcuğazlar səs-səsəverib ötüşürdü.." [1, səh. 131].

Aydındır ki, yazıçı bu hekayəni öz xatirələri əsasında yazmışdır. Yazıçının fikrincə təbiətin, heyvanlar aləminin sirlərini hər bir adam anlaya bilməz. Yalnız təbiətin qoynunda yaşayan, onu sevən, qayğısına qalan insanlar bu sirrə bələd ola, doğma təbiətimizin gözəlliklərini duya və həzz ala bilər.

Azərbaycançılıq, deyildiyi kimi, təkcə doğma Azərbyacan dilinə, vətəni olan Azərbaycana sevgi bəsləməklə, onun şərəfini qorumaqla məhdudlaşmır. Bütün

bunlarla yanaşı, əsrlərdən bəri xalq arasında yaranmış və formalaşmış adət-ənənələrinə, inamına hörmət göstərmək və onlara əməl etmək azərbaycançılığın mühüm şərtlərindəndir. Hər bir ədəbiyyat müəllimi öyrətdiyi mövzuların tədrisi zamanı sadaladlığımız bu atributları, onun komponentlərini gələcəyimiz olan hər bir azərbaycanlı balalarımıza sevdirməyi bacarmalıdır.

Hər kəs azərbaycançılığı ilə fəxr etməli, təmsil etdiyi ölkənin adını uca tutmalıdır. Xüsusilə də indiki zamanda gənclərimizi elə ruhda böyütməliyik ki, vətənimizin keşiyində ayıq-sayıq durmağı bacarmalı, onun bir qarış torpağını yadlara verməməlidir.

Vətən daşı olmayandan,
Olmaz ölkə vətəndaşı.

Bu mənada hər bir vətəndaş öz vətəninə sadiq olmalı, öz millətinə görə qürur hissi keçirməli və azərbaycanlı olması ilə fəxr etməlidir.

## İstifadə edilmiş ədəbiyyat


1. Əliyev,S., Həsənov,B., Səfərova,Ə., Quliyev, Ə. Ədəbiyyat. V sinif üçün dərslik. Bakı, 2020.
2. Əliyev,S., Həsənov,B., Məmmədova,S., Mustafayeva,A. Ədəbiyyat. VII sinf üçün dərslik. Bakı, 2018.
3. Əliyev,S., Həsənov,B., Məmmədova,S., Mustafayeva,A. Verdiyeva,N. Ədəbiyyat. VIII sinf üçün dərslik. Bakı, 2019.
4. Mehdiyev, R.Ə. Heydər Əliyev və Azərbaycançılıq, Bakı, 2002.
5. Mikayılov, Ş.A., Bəkirova, A.M. Ümumi orta təhsil məktəblərinin ədəbiyyat dərslərində təlim materiallarına yeni yanaşmanın əsas istiqamətləri (metodik vəsait). Bakı- 2011.
6. Şəmsizadə, N.S. Azərbaycançılıq . Bakı: Nurlan 2006.
7. Yusifov, M.İ. Azərbaycançılıq. Bakı: Elm və Təhsil, 2010.

## X-XI SİNİF ŞAGİRDLƏRİNDƏ İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ MƏNƏVİ TƏRBİYƏNİN FORMALAŞDIRILMASI

Ümumtəhsil məktəblərində tədris olunan hər bir fənn şagirdlərin mənəvi tərbiyəsi məsələlərinin yerinə yetirilməsi üçün bu və ya digər dərəcədə əhəmiyyətlidir.  Burada xarici dil  fənninin yeri və rolunu unutmaq olmaz.

Respublikamızın prezidenti cənab İ.H. Əliyevin müxtəlif ölkələrə səfərləri qarşılıqlı iqtisadi, mədəni, sosial əlaqələrin genişlənməsinə, mədəni, mənəvi, ticarət münasibətlərinin güclənməsinə şərait yaradır. Bu proseslərdə hər bir vətəndaş öz ölkəsinin mədəniyyətini, incəsənətini, ədəbiyyatını müxtəlif yerlərdə təbliğ ermək istəyir. Bu istək məhz mənəvi keyfiyyətlərlə bağlıdır. İnsan mənəvi cəhətdən zəngin olarsa, o, Vətəninin, xalqının keçmişini dəyərləndirər və bu gün də onun tanınması üçün əlindən gələni edər. Bu cür istəyin həyata keçirilməsində isə xarici dillərin, xüsusilə də ingilis dilinin böyük rolu vardır. Məhz xarici dillər milli-mənəvi dəyərlərin, mədəniyyətin, insan biliklərinin qoruyucusu və daşıyıcısı, xalqların, millətlərin, ayrı-ayrı şəxslərarası münasibətlərin, hər sahədə əməkdaşlığın vasitəçisidir.

Bir qisim müəllimlər isə xarici dilin uşaqların mənəvi tərbiyəsi ilə bağlı olmadığı iddiası ilə çıxış edir. Onların fikrincə, xarici dil fənninin başlıca vəzifəsi yalnız bilik verməkdir. Təhlil və müşahidələrimiz göstərir ki, belə bir arzuolunmaz vəziyyətin yaranma səbəblərindən biri də bu fənn müəllimlərinin müvafiq pedaqoji-metodik maarifləndirmə mənbələri ilə əhatə olunmamasıdır.

Əlbəttə, bu yanlış fikirdir. Xarici dil fənninin emosional təsir imkanları tarix, ədəbiyyat, musiqi, rəsm və digər fənlərlə bərabər tutulmalıdır. Lakin hər halda xarici dil müəllimi də insanın, konkret olaraq yuxarı sinif şagirdlərinin mənəvi insan kimi yetişməsində, hazırlanması işində iştirakçıdır. O da şagirdlərin mənəvi tərbiyəsi üzrə tədris etdiyi fənnin daxili imkanlarını, konsepsiyasını aşkarlamağa və ondan səmərəli şəkildə istifadə etməyə borcludur. Belə bir baxışdan ümumtəhsil məktəbinin xarici dil müəllimlərinin pedaqoji-metodik məlumatlandırılması günümüzün reallığı kimi dəyərləndirilməlidir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dünya birliyinə inteqrasiya meyillərinin artması, beynəlxalq əməkdaşlığın genişlənməsi, xarici dillər

sahəsində müvafiq kompetensiyalara malik gənc nəslin formalaşdırılmasını daha da zəruri etmişdir.

İngilis dili üzrə təlimin məzmunu xalqımızın keçmiş adət-ənənələrinə, mədəniyyətinə, tarixinə, ədəbiyyatına, eyni zamanda ingilis xalqının mədəniyyətinə aid materiallar və görkəmli yazıçıların əsərlərindən parçalarla zənginləşdirilmişdir.

Xarici dil şagirdlərin linqvistik biliklərini genişləndirir, ünsiyyət mədəniyyətinin formalaşmasında mühüm rol oynayır və nitq inkişafına müsbət təsir göstərir. Xarici dilin məktəbdə tədrisi sonrakı illərdə digər xarici dillərin öyrənilməsi üçün zəmin yaradır. Xarici dilə mükəmməl yiyələnmiş hər bir gənc harada olmasından asılı olmayaraq ölkəmizi layiqincə təmsil etməklə yanaşı, dünya ölkələrlə tanışlıq, xarici dil daşıyıcılarına Azərbaycanı təqdim etmək, respublikamızda baş verən prosesləri dünya ictimaiyyətinə birbaşa çatdırmaq imkanı əldə edir.

Xarici dilin tədrisində məqsəd təkcə xarici dili öyrətmək deyil, həm də vətənin ləyaqətli müdafiəçisi olan, yüksək mənəvi keyfiyyətlərə, elmi dünyagörüşünə, milli adət-ənənələrə malik, ümumbəşəri dəyərləri mənimsəyən vətəndaş yetişdirməkdir.

X-XI sinif şagirdlərinin yaşının elə bir dövrüdür ki, onlar ətrafda baş verən hər bir hadisə ilə maraqlanırlar. Ətrafda isə informasiya axını çoxdur. Buna kütləvi informasiya vasitələri: televiziya kanalları, radio, qəzet və jurnallar və s. daxildir. Şagirdlərə bu informasiyalardan baş çıxarmaq, onlarla məqsədyönlü tərbiyə işi aparmaq xarici dil müəllimlərinin üzərinə düşür. Xarici dil müəllimləri şagirdlərdə xarici dilə, öz ana dilinə maraq yaratmaqla, oxunan mətnlərin tərcüməsi, şeir, dialoq öyrətməklə, məktub və sənədlərin tərtib edilmə qaydalarını öyrətməklə, sinifdənkənar işlərin təşkili ilə, hətta bir sözün, cümlənin mənasını izah etməklə də çox böyük iş görə bilərlər.

Şagirdlərin ingilis dilində kommunikativ bacarıqlara yiyələnməsi özündə milli və bəşəri dəyərləri ehtiva edən ailəyə, məktəbə, yaşadığın yerə (kəndə, şəhərə, mahala) və ümumən vətənə bağlılıq, cinsindən, dinindən, irqindən asılı olmayaraq insana hörmət və qayğı, əhatə olunduğun canlı və cansız aləmi mühafizə, mənsub olduğun xalqın tarixinə dərindən bələdlik, digər xalqların

mədəniyyətinə bələdlik, əməksevrəlik kimi mövzularda disput və dialoqların qurulması, esselərin yazdırılması kimi işlərə geniş yer verilməlidir.

Müasir insan şəxsiyyət olaraq ailədə, məktəbdə və əhatə olunduğu mühitdə yetişir. İngilis dili dərslərində cəmiyyətimizin ictimai həyatında baş verən mühüm hadisələrə, məsələn, xalqımızın Qarabağ uğrunda apardığı Vətən müharibəsinə həsr olunmuş mövzulara müraciət olunması şagirdlərin vətənə, millətə, torpağa sədaqət ruhunda tərbiyələnməsinə şərait yaradır.

İngilis dili dərslərində şagirdlərin mənəvi tərbiyəsinin formalaşmasına imkan yaradan metod və priyomlara qarşılıqlı fəaliyyətin kollektiv formalarını aid etmək olar. Bu baxımdan qruplarla və cütlərlə iş xüsusi əhəmiyyət kəsb edir. Məhz qruplarla və cütlərlə iş zamanı bu və ya digər problemin müzakirəsi baş verir. Məhz ətrafdakılarla qarşılıqlı fəaliyyət nəticəsində müxtəlif görüşlər, fikirlər meydana gəlir. Beləliklə, bu vəziyyətdə problemin müzakirəsi iş metodlarından birinə çevrilir. Lakin iş yalnız müzakirə ilə bitmir. Hər hansı bir problemin müzakirəsi zamanı verilən qərar bütün sinifə təqdim edilir, sinif isə ən yaxşı həlli seçir və seçimini əsaslandırır. Digər səmərəli metodlardan biri də oyunlardır.

Müşahidələr göstərir ki, bu problemlə bağlı müəyyən qədər təcrübə vardır. Məsələn, yuxari siniflərdə ingilis dilinin öyrədilməsi ilə bərabər, həm də şagirdlərdə Vətənə, torpağa bağlılıq hisslərinin tərbiyə olunması ön plana çəkilir. Məsələn, müəllim Xocalı soyqırımının ildönümü ərəfəsində ingilis dilində bir mətn hazırlayır, yeni sözləri və ifadələri izah edir. Mətn bir neçə dəfə oxunandan sonra müəllim şagirdlərə suallar verir:

1. Siz Xocalı soyqırımı haqqında danışarkən hansı hissləri keçirirsiniz?
2. Şəhidlərimizin qanını yerdə qoymamaq üçün sizcə nə etmək lazımdır?
3. Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaq üçün siz nə edə bilərsiniz?

Suallara cavab aldıqdan sonra müəllim şagirdlərə müraciət edərək deyir: “İndi təsəvvür edin ki, biz London məktəblərindən birindəyik. Siz oradakı şagirdlərə “Xocalı soyqırımı” haqqında məlumat verəcəksiniz. Şagirdlər bir-bir qarşıya çıxır və mətnin məzmununu sinif qarşısında danışır.

Dərsin sonunda əvvəlcə şagirdlər, sonra isə müəllim kimin daha ətraflı, daha dolğun və emosional danışdığını qeyd edir və qiymətləndirir.

Növbəti dərsdə bu mövzunun davamı olaraq müəllim sinfə Azərbaycanın xəritəsini gətirir və işğal olunmuş ərazilər haqqında məlumat verir. Sonra sual-cavab yolu ilə mətn hazırlanır və yenə də şagirdlər onu xəritədə göstərməklə məlumatları "dünya ictimaiyyətinə" çatdırmağı öyrənirlər.

Digər ingilis dili müəlliminin dərsini müşahidə etdik. Müəllim təlim prosesində şagirdlərin nitqini inkişaf etdirmək, yurdumuzun adət-ənənələri, vətənimizin gözəlliyi haqqında xarici dildə sərbəst danışmaq üçün belə bir situasiya təqdim edir: "Gəlin təsəvvür edək ki, siz İngiltərəyə yarışa gedirsiniz. Qalib gələcəyiniz təqdirdə sizi çıxış etrmək üçün İngiltərənin televiziya kanalına dəvət edəcəklər. Siz respublikamız, adət-ənənələrimiz, Vətənimizin gözəlliyi haqqında qısa məlumat verə bilərsiniz. Məsələn: "Biz Azərbaycandan gəlmişik. Azərbaycan günəşli ölkədir, qədim mədəniyyətə malikdir. Bu gün biz Azərbaycan bayrağını yüksəyə qaldırmaqdan qürur hissi duyuruq. Bizim xalqımız sülhsevər xalqdır. Ən qiymətli dəyərlərimizdən özündən yaşça böyük və kiçik arasında, valideyn və övladlar arasında, müəllim və şagirdlər arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlər indiyə qədər qorunub saxlanmışdır.

Bizim vətənimiz gözəldir, gözəl memarlıq abidələri ilə zəngindir. Erməni separatçıları bilməlidirlər ki, biz torpağımızın bir qarışını da düşmənə güzəştə getməyəcəyik".

Mətni ingilis dilində oxuduqdan sonra çətin sözləri və ifadələri tərcümə edir, tələffüzü üzərində işləyir. Şagirdlər mətni bir neçə dəfə oxuduqdan sonra müəllimin suallarına cavab verirlər.

1. Siz hansı ölkəyə gedəcəksiniz?
2. Bayrağımızı yüksəkliyə qaldırmaq üçün nə edəcəksiniz?
3. Azərbaycanın qədim mədəniyyəti haqqında nə deyə bilərsiniz?
4. Azərbaycanın milli adət və ənənələri haqqında nə deyə bilərsiniz?
5. Erməni işğalçılığı barədə nə deyə bilərsiniz?

İngilis dili dərslərindən biri diqqətimizi daha çox cəlb etdi. Müəllim üzərində musiqiçi, həkim, müəllim, idmançı, jurnalist, diplomat, rəssam sözləri yazılmış kartoçkaları şagirdlərə payladı. Hər bir şagird həmin sənətin sahibinə məxsus mənəvi keyfiyyətləri sadalamalı idi.

Şagird üzərində "Müəllim" sözü yazılan vərəqin sahibi müəllimə xas olan keyfiyyətləri sadalayır: "Mən müəlliməm. Mən savadlıyam, səbrliyəm, əxlaqi

dəyərlərə malikəm. Uşaqları çox sevirəm, vicdanlıyam, uşaqları pis hərəkətlərdən çəkindirirəm, yurdumun gələcəyini çox düşünürəm".

Üzərində "idmançı" sözü yazılmış vərəqi götürərək ingilis dilində aşağıdakı sözləri söyləyir: "Mən güclüyəm, dözümlüyəm, mübarizəm, dəyanətliyəm, iradəliyəm. İdman hər bir insanı şərəfli fəaliyyətə istiqamətləndirir".

Əlində "musiqiçi" sözü yazılmış vərəqi əlində tutan şagird ingilis dilində deyir: "Mən musiqiçiyəm. Mən istedadlıyam. Mən insanların ruhunu oxşayıram. Mənəvi cəhətdən onları zənginləşdirirəm. Musiqi insanlar üçün mənəvi qidadır".

"Jurnalist" sözü yazılmış vərəqi nümayiş etdirən ingilis dilində deyir: "Mən jurnalistəm. Mən ədalətli və obyektivəm. Mən hadisələri, gördüklərimi və eşitdiklərimi düzgün işıqlandırıram.

"Həkim" sözü yazılmış vərəqi götürmüş şagird özü haqqında deyir: "Mən həkiməm. Mən diqqətli və nəzakətliyəm, savadlıyam, humanistəm, vicdanlıyam. Bütün insanlara şəfa diləyirəm. Xalqımın sağlamlığını qoruyuram".

"Diplomat" isə bu sözləri deyir: "Mən diplomatam. Savadlıyam, prinsipialam, cəsarətliyəm. Məntiqlə danışıram, hazırcavabam, öz işimə məsuliyyətlə yanaşıram".

Müəllim digər üsuldan da istifadə etdi. Vərəqləri götürən şagird özünün hansı "peşəyə" sahib olduğunu dedi, digər şagirdlər isə peşə sahibinə məxsus mənəvi keyfiyyətləri sadaladılar. Burada iştirak edən şagirdlər cavabların düzgünlüyünə görə qiymətləndirildi və qiymət dərsin sonunda elan olundu.

Başqa bir dərsdə müəllim mənəvi dəyərlər haqqında biliklərin möhkəmləndirilməsi üçün aşağıdakı sxemdən istifadə etdi. Sxemin içərisində "mənəvi dəyərlər" sözünü yazdı. Şagirdlər ona aid olan sözləri kənarda ingilis dilində yazdılar. Bu cür üsullar şagirdləri düşünməyə, danışmağa sövq edir.

**Mənəvi dəyərlər**

Vətənpərvərlik – Vətəndaşlıq ləyaqəti
Məsuliyyət – Həssaslıq
Dürüstlük – İnsanpərvərlik
Saflıq – Humanizm

Başqa bir ingilis dili dərsinin təhlili göstərdi ki, hər hansı bir xalqın dilinin öyrədilməsində, ona maraq oyadılmasında ölkənin tarixi, mədəniyyəti, iqtisadiyyatı, dahi şəxsiyyətləri, coğrafiyası haqqında məlumatların verilməsi də mühüm əhəmiyyət kəsb edir.

Hazırda xarici dillərin təlimi prosesində mədəniyyətlərarası səriştəlilik ön plana çəkilir - başqalarını başa düşmək, başqa mədəniyyət nümayəndələrinə qarşı dözümlü olmaq.

Mədəniyyətlərarası təlim dialoq xarakteri daşıdığından Avropa təhsilində "öyrədərək öyrən" təlim forması ideal təlim forması hesab edilir. Bu təlim prosesində hər bir ölkənin nümayəndəsi öz həmyaşıdını məxsus olduğu mədəniyyətlə tanış edir. Müşahidələr göstərir ki, artıq təlim prosesində geniş yayılmış "suallara cavab" iş forması özünü doğrultmur.

Müşahidələr zamanı mənəvi keyfiyyətlərin formalaşdırılması ilə bağlı bir çox maraqlı dərslərin şahidi olduq.

Məsələn, X sinifdə belə bir dərs mövzusu verilir**:** Honesty is the Best Policy (Dürüstlük ən yaxşı siyasətdir)

Standartlar - Standards:

1.1.1 Müraciətdə ifadə olunan fikrə münasibət bildirir.

1.1.2. Dinlədiyi mətnin məzmununu şərh edir

2.1.1. Yeni söz və ifadələrdən düzgün istifadə edir

2.1.2. Müxtəlif mövzulu dialoqlarda iştirak edir.

3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

3.1.4. Oxuduğu mətnin məzmununa münasibət bildirir.

4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir

4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır

Təlim məqsədi – Aim:

Şagirdlərin diqqətini həyatda baş verən yaxşı və pis cəhətlərə yönəldilir, onlara ətrafdakılara qarşı dürüst olmaq, pis əməllərdən çəkinmək, hər kəsə yaxşılıq etmək kimi keyfiyyətlər aşılanır.

İş forması: qruplarla iş, fərdi iş, cütlərlə iş

İş üsulu: (Techniques**)** müzakirə, klaster, söz assossasiyaları

İnteqrasiya - İntegration: **azərbaycan dili**, ədəbiyyat

Resurslar - Resources: dərslik, kartoçkalar, flyaşkart, electron slaydlar

Dərsin gedişi - Lesson procedure:

Motivasiya - Motivation: Motivasiya üçün şagirdlərə bir südçünün hekayəsi dinlədilir.

Nümunə - Sample: Once there lived a milkman who used to sell milk in the town. He had to cross the river to reach the city. One day the milkman made up his mind to mix water from the river into the milk. He wanted to earn more money and he tried to do it.

Hekayəni dinlədikdən sonra şagirdlərdən hekayə barədə şərh vermələri və həyatlarında başlarına gələn doğru və yanlışlardan danışmaqları xahiş edilir.

Tədqiqat sualı – Research questions:

Tədqiqat sualı verilmiş mətnin məzmunundan çıxarılaraq şagirdlərə təqdim edilir:

- Why is honesty the best policy?
- Was the milkman right or wrong?
- Why do you think so?
- How would you react in this situation?
- How do you understand the quote: "Honesty is the best policy?"

Tədqiqat sualı ilə bağlı şagirdlərin irəli sürdükləri fikirlər təhlil olunur və ümumiləşdirilir

Tədqiqatın aparılması:

Bu mərhələdə dərsin məqsədinə və tədqiqat sualına uyğun iş forma və üsulları seçilir. Hər şagirdə iş vərəqi verilir və onlara aşağıdakı mətnlə əlaqəli öz fikirlərini yazmaq tapşırılır.

İnformasiya mübadiləsi:

Qruplar öz işlərini təqdim edərkən onların diskussiyada iştirakını təmin etməklə informasiya mübadiləsi təşkil olunur.

İnformasiyanın müzakirəsi və təşkili:

Şagirdlərin təqdimatından sonra müəllim cavabları ümumiləşdirir və aşağıdakı ifadələr əsasında müzakirə təşkil edir.

Was the milkman right or wrong? Why do you think so?

- How would you react in this situation?
- How do you understand the quote: "Honesty is the best policy".

Nəticə və ümumiləşdirmə - Summarizing:

Dərsin əvvəlində şagirdlərin irəli sürdüyü fikirlərin müzakirə zamanı söylədiyi fikirlərlə müqayisəsi aparılır. Şagirdlər nəyin yeni olduğunu müəyyən edirlər.

Müəllim cavablara əsasən ümumiləşdirmə aparır və dərs zamanı öyrənilən yeni söz və ifadələri bir daha təkrar etdirir.

Qiymətləndirmə - Assessment

XI sinifdə "Customs Differ" (Adətlər fərqlənir) mövzusu.

Standards:

1.1.1. Dinlədiyi məlumatın məzmununa aid təqdimatlar edir

2.1.1. Fakt və hadisələrə münasibət bildirir.

2.1.3. Müxtəlif mövzularda əsaslandırılmış nitq qurur.

3.1.4. Mətnin məzmununa uyğun suallar verir.

4.1.1. Verilmiş cümlələr əsasında kiçikhəcmli mətnlər qurur.

4.1.2. Gördüyü əşya və hadisələrin əlamətlərini yazır.

Aim:

To teach students to speak about different customs / traditions in different countries as well as in Azerbaijan using the structure- It is polite to ...; To teach them how to address people, how people greet each other/one another, etc.; To encourage the students to brush up cultural etiquettes as in the previous lesson through practicing the four language skills.

Integration: Native language, Literature, History, Geography

Interaction: individual work, group work, pair work

Techniques: dialogue, conversation, description, debate,

Resources: SB, pictures, handouts, slides, CD, video, flashcards

Lesson procedure:

Motivation: Teacher can demonstrate a video – role about different greetings, farewells, ceremonies rituals parties, customs and traditions in different countries.

Research questions:

- Do you know of any differences in etiquette between your culture and others? (Give samples)

- Why are table manners important in almost all cultures?
- How do we fulfill the customary etiquettes of different nations?

Discussion.

Summarizing: Teacher can use summarizing strategies. Students have already learnt enough facts about dinner table manners, social manners, public behavior. They design/make solutions, mottos on:

“How to behave in public places and at the dinner party/table”

Example: We have to be at table 10-15 minutes before dinner. We should never be late. We should be polite, etc.

Assessment.

Şagirdlərin xarici dilə olan marağının, özünə inamının daha da artması, biliklərin genişlənməsi üçün daim yeni şeylər öyrənməyə can atması, kollektiv qarşisinda çixiş etmək, fikir yürütmək, müzakirələrdə iştirak etmək, rəqabət hissini duymaq, qabiliyyət və bacarıqlarından istifadə edərək bildiklərini söyləməkdən qorxmamaq kimi hissləri aşılamaq üçün sinifdənxaric və məktəbdənxaric işlərin də əhəmiyyəti çox böyükdür.

Şagird şəxsiyyətinin hərtərəfli inkişafı, mənəvi keyfiyyətlərin formalaşması, onun daxili aləminin zənginləşdirilməsi, yalnız təlim prosesində verilən biliklərlə deyil, həm də onların düşüncə tərzi, psixoloji durumu, əhval-ruhiyyəsi ilə bağlıdır. Hisslərin tərbiyə olunması şagirdlərin daxili aləmini zənginləşdirir, onların əməllərini, davranışını, düşüncəsini nizamlayır.

Bütün bunlar həm də sinifdənkənar tədbirlərdə də həyata keçirilir. Görkəmli şəxslərlə, milli qəhrəmanlarla görüşlərdə, bayramlara həsr edilmiş gecələrdə şagirdlərlə müəyyən söhbətlər aparılır, yeri gəldikdə ingilis dilində şeirlər və əsərlərdən parçalar söylənilir.

Bu baxımdan məktəbdə ingilis dili aylığının keçirilməsi çox böyük maraq kəsb edir. İngilis dili aylığının məqsədi şagirdlər tərəfindən dilini öyrəndiyimiz ölkə və öz ölkəmizlə bağlı müxtəlif mövzuların müqayisəli işlənməsi və plakatların hazırlanması, təqdimatlarla çıxışların edilməsi; hər iki ölkənin görməli yerləri, tarixi abidələri, müsiqisi, ədəbiyyatı, incəsənəti, idmanı, tarixi və tarixi şəxsiyyətləri, milli qəhrəmanları və görkəmli insanları, mətbəxi, adət-ənənələri və s. mövzular haqqında danışmagı bacardıqlarının nümayiş

etdirilməsi; Azərbaycanın milli dəyərləri olan seir, mahnı, səhnə və tamaşaların xarici dildə ifa edilməsidir.

Şagirdlərə çoxlu sayda maraqlı işlər: atalar sözləri, tapmacalar, krossvordlar, yanıltmaclarla iş təklif olunur. Hətta nisbətən zəif biliyə malik olan şagirdlər də bu növ işlərə maraq göstərir, bilik və bacarıqlarının olduğunu sübut etməyə çalışırlar. Qazandıqları ən kiçik uğur onları çox sevindirir və onlar daha həvəslə dərs oxumağa başlayırlar.

Şagirdlər çox böyük həvəslə müxtəlif mövzulara aid plakat və divar qəzetlərini işləyirlər. Bu onları birgə işləməyə, əməkdaşlığa sövq edir: onlar arasında iş bölgüsü gedir, məlumatlar toplanir, müzakirələr aparılir, seçim edilir, yaradıcılıq və qabiliyyətlərdən istifadə olunur və sonda maraqlı bir iş ortaya gəlir.

Kifayət qədər söz ehtiyatı və dil qabiliyyəti olan şagirdlərə isə "Debat Klub"da iştirak etmək daha maraqlı gəlir. Onlar təklif olunan mövzularla bağlı fikir yürüdür, yoldaşlarının çıxışlarına qulaq asır, muzakirələrdə iştirak edirlər. Bu növ sinifdənxaric işlər şagirdlərdə özünə inamı artırır və onlar öz bilik və bacarıqlarından daha  düzgün istifadə etməyi öyrənirlər. "Vətənpərvərlik", "Milli Qəhrəmanlarımız", "Xocalı faciəsi", "Ətraf mühitin problemləri", "Gözəllik dünyanı xilas edər", "Pul hər şey deyil", "Dürüstlük ən yaxşı siyasətdir" kimi hər zaman aktual olan mövzular şagirdləri aktivləşdirir və hər kəs öz nöqteyi-nəzərindən çıxış edərək fikir mübadiləsində çox fəal iştirak edir.

Çox böyük həvəsə və marağa səbəb olan tədbirlərdən biri də ingilis dilində hazırlanmış səhnəciklər və tamaşalardır. Aşağı siniflərdən başlayaraq yaş xüsusiyyətlərini və maraq dairəsini nəzərə almaqla şagirdləri belə tədbirlərə cəlb etmək çox asandır. Onlar çox böyük həvəslə şeir deyir, mahnı oxuyur, rəqs edirlər. Orta sinif şagirdlərini onlara tanış olan nağıl və təmsillərin səhnələşdirilməsinə cəlb etmək daha münasibdir. Yuxarı sinif şagirdləri ilə daha ciddi mövzulara müraciət etmək olar.

Məsələn, "Bayramlar, adət və ənənələr" adlı tədbirdə İngilis və Azərbaycan xalqının bayramlarından, adət-ənənələrindən ingilis dilində məlumat verilir, şeirlər söylənilir, rəqslər ifa olunur, adət-ənənələrimizə  aid səh-

nələr göstərilir. Xalqımızın milli dəyərləri olan muğamdan, dahi musiqiçilərdən və onların əsərlərindən, milli rəqslərimizdən danışılır, ölməz musiqi nümunələri səslənərək, milli və dünyəvi rəqslər ifa olunur. Belə tədbirlərdən sonra şagirdlərin dərsə, xarici dilə, öz ana dilimizə, mədəniyyətimizə münasibətləri dəyişir. Onlar milli dəyərlərimizi daha çox qiymətləndirməyə başlayırlar, çünki özünə, dilinə, Vətəninə, onun tarixinə, mədəniyyətinə dəyər verməyən, başqa olkəyə, onun xalqına, tarixinə və mədəniyyətinə dəyər verə bilməz.

İngilis dilinin tədrisi prosesində bədii mətnlərdən, didaktik oyunlardan, yeni təlim texnologiyalarından istifadə edərkən bu dilin spesifik xüsusiyyətlərini nəzərə almaqla mənəvi tərbiyənin formalaşdırılmasını həyata keçirmək üçün aşağıdakı prinsiplərin nəzərə alınması əsas şərtlərdən biridir:

1. Şagirdlərin yaş xüsusiyyətlərinin və maraqlarının nəzərə alınması.

2. Mənəvi tərbiyənin ümumbəşəri dəyərlər nəzərə alınmaqla milli zəmində qurulması.

3. Mənəvi tərbiyənin real həyatla əlaqələndirilməsi.

4. Tərbiyədə nikbinlik prinsipi.

5. Tərbiyədə məqsədyönlülük prinsipi.

6. Bu prinsiplər nəzərə alınmaqla mənəvi tərbiyənin vəifələrinin həyata keirilməsi zərurəti yaranır.

Şagirdlər xarici dilin tədrisi prosesində şifahi ntq üzrə bacarıq və vərdişlərini inkişaf etdirməklə yanaşı, əsas anlayışları, ictimai ideyaları və s. mənimsəməklə öz dünyagörüşünü, əqli qabiliyyətinin inkişaf etdirir, intellektual bir şəxsiyyət kimi formalaşırlar.

Apardığımız araşdırmalar göstərir ki, xarici dilin tədrisində keyfiyyət göstəriciləri aşağıdakılardır:

1) pedaqoi personalın hazırlığı;

2) dərslik və proqramların işlənilməsi

3) şagirdlərin hazırlıq dərəcəsi:

4) təlim prosesinin təşkili;

5) təhsil müəssisəsinin maddi və şəbəkəı bazasının vəziyyəti.

Ümumiyyətlə, xarici dilin öyrənilməsi prosesində şagirdlərə aşağıdakı mənəvi keyfiyyətlər aşılanır:

1. Suveren dövlətimizin həyatında fəal iştirak etmək.

2. Şagirdlərdə milli və ümumbəşəri dünyagörüşünün formalaşması.

3. Torpaqlarımızın müdafiəsinə hazır olmaq, haqsızlığa qarşı barışmazlıq.

4. Milli adət-ənənələrimizin qorunub saxlanması.

5. Dili öyrənilən xalqın tarixinə, dininə, incəsənətinə, mədəniyyətinə hörmətlə yanaşmaq.

Müasir zamanda milli mənlik şüurunun artması, şəxsiyyətin əxlaqi, mənəvi keyfiyyətləri cəmiyyətin inkişafında vacib və önəmli amil hesab edilir. Məhz buna görə də şəxsiyyətin milli-mənəvi, əxlaqi tərbiyəsi, layiqli insan yetişdirmək problemi dövlətin daim diqqət mərkəzindədir. Bu baxımdan səriştəli müəllim özü ilk növbədə yüksək mənəvi - əxlaqi keyfiyyətlərə sahib olmalı, hər yerdə əxlaqilik nümunəsi göstərməlidir.

Xarici dil müəllimləri yeni təlim metodları vasitəsilə nitq bacarıq və vərdişlərini aşılamaqla yanaşı, şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılmasına da bilavasitə məsuliyyət daşıyır. Onlar tədris etdiyi fənnin vasitəsilə, şəxsi nümunəsi ilə gələcəyimiz olan yuxarı sinif şagirdlərinin mənəvi kamilliyinə və tərbiyəsinin düzgün formalaşmasına nail olmaq kimi müqəddəs vəzifənin daşıyıcısıdırlar.

Müasir insan şəxsiyyət olaraq ailədə, məktəbdə və əhatə olunduğu mühitdə yetişir. İngilis dili dərslərində cəmiyyətimizin ictimai həyatında baş verən mühüm hadisələrə, məsələn, xalqımızın Qarabağ uğrunda apardığı Vətən müharibəsinə həsr olunmuş mövzulara müraciət olunması şagirdlərin vətənə, millətə, torpağa sədaqət ruhunda tərbiyələnməsinə şərait yaradır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər) - Bakı-2013,105s.

2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: // Təhsil xəbərləri. - 2009, № 4,- s. 5-40.

3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası//Azərbaycan müəllimi, - 2013, 25 oktyabr, № 4, - s.1.

4. Ağayev,Ə.Ə. Azərbaycan ictimai-pedaqoi fikrində şəxsiyyətin formalaşması problemi. Bakı. "Avropa." 2005. s.251(287).
5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. // Təhsil xəbərləri,- Bakı: - 2009, № 6, - s.12-57.

## HƏYAT BİLGİSİ DƏRSLƏRİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRDƏ BİRGƏFƏALİYYƏT TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARI

"Həyat bilgisi fənnində "Fərd və cəmiyyət" məzmun xəttinin müəyyənləşdirilməsində başlıca məqsəd məhz şagirdlərin özlərini sosial varlıq kimi dərk etmələrinə, cəmiyyətə adaptasiya üçün lazım olacaq zəruri bilik, bacarıq və dəyərlərə yiyələnmələrinə kömək göstərməkdən ibarətdir. Şagirdlər bu xəttin köməyi ilə fərd-insan, fərd-ailə, insan-cəmiyyət və insan-dövlət münasibətlərini, cəmiyyətdə gedən iqtisadi, sosial, siyasi və hüquqi prosesləri öyrənir və onlardan düzgün faydalanma bacarıqlarına yiyələnirlər.

Bu məzmun xətti üzrə bilik və bacarıqlar şagirdin ailəsini, xalqını və Vətənini sevən, onların rifahı üçün nə edə biləcəyini müəyyənləşdirən demokratik düşüncəli şəxsiyyət kimi formalaşmasına yardım edir.

Fərd, ailə, cəmiyyət və dövlət alt-xətti üzrə məzmunun vasitəsilə şagirdlər insanı digər canlılardan fərqləndirməyin, onu sosial varlıq kimi səciyyələndirməyin, öz tarixi köklərini təsvir etməyin, yaşadığı mühiti bilik, bacarıq və zəhmət əsasında dəyişdirməyin mümkünlüyünü dərk edir, qruplarda birgə işləmək və problemləri birlikdə həll etmək vərdişlərinə yiyələnirlər.

Şagirdlər insan-cəmiyyət-dövlət münasibətləri, mədəniyyətlərin fərqliliyi və ümumi cəhətləri, dövlətin cəmiyyət həyatında oynadığı rol, onun funksiyaları və hakimiyyət quruluşu haqqında bilgilər alır, dünyada gedən inteqrasiya proseslərini təhlil etməyi öyrənir və demokratik dəyərləri (tolerantlıq, plüralizm, həssaslıq) mənimsəməklə özlərinin bu prosesdə iştirak formalarını müəyyənləşdirirlər.

Həyat bilgisi fənnində məqsəd şagirdlərdə yaşadığı cəmiyyətə uyğunlaşmaq üçün insanın sosial keyfiyyətləri, cəmiyyət həyatının ictimai, iqtisadi, siyasi sahələri, eləcə də ictimai münasibətlərin hüquqi tənzimlənməsi barədə zəruri

bilik və bacarıqlar formalaşdırmaq; vətəndaş məsuliyyəti, qanunlara, ictimai normalara və demokratik dəyərlərə hörmətlə yanaşmaq, onlara uyğun davranmaq mədəniyyəti qazandırmaq; özünü vətəndaş, ailə üzvü, işçi, sahibkar, istehlakçı kimi sosial rollarda reallaşdıra bilməsinə zəmin yaratmaqdır" [11].

I-IV siniflər üzrə "Fərd və cəmiyyət" məzmun xəttində fərd, ailə və kollektivlə bağlı standartlar verilmişdir.

**I sinif**

2.1.1. "Fərd", "ailə" və "kollektiv" anlayışları barədə təsəvvürlərini bildirir.

**II sinif**

2.1.1. "Fərd", "ailə" və "kollektiv" anlayışlarını fərqləndirir.

**III sinif**

2.1.1. Fərd-ailə və fərd-kollektiv münasibətlərini şərh edir.

**IV sinif**

2.1.1. Cəmiyyətdə fərd, ailə, kollektivin rolunu sadə şəkildə izah edir.

İbtidai siniflər üçün həyat bilgisi dərsliyində fərd, ailə və kollektivlə bağlı mövzular yer almışdır. Bunlar aşağıdakılardır:

I sinifdə "Ailə", II sinifdə "Güc birlikdədir", III sinifdə "Kim əsl dost ola bilər?", "Hörmət qazanmağın yolu", "Məktəbimizin ənənəsi", "İnsan və cəmiyyət", IV sinifdə "Doğma və ögey münasibət";

I sinifdə "Ailə" mövzusunda şagirdlərə fərd, ailə və kollektiv anlayışları barədə ilkin məlumat verilir. 2.1.1. "Fərd", "ailə" və "kollektiv" anlayışları barədə təsəvvürlərini bildirir. alt-standartı mövzuda reallaşdırılmşdır.

Şəkildə gördükləriniz haqqında danışın. Sizcə, nə üçün bu insanların birliyinə ailə deyirik?



Ailə kimlərdən ibarətdir? Ailə üzvlərini bir-birinə hansı hisslər bağlayır? Ailə üzvlərinin hansı vəzifələri var?

Şəkil ilə bağlı şagirdlərə müxtəlif suallar verilir. Ailə kimlərdən ibarətdir? Ailədə daha kimlər ola bilər? Ailə üzvlərini bir-birinə hansı hisslər bağlayır?

Ailə üzvləri bir-birinin qayğısına necə qalırlar? Ailə üzvlərinizə hansı işlərdə kömək edirsiniz? Ailə üzvləri boş vaxtlarını necə keçirə bilər? və s. Şagirdlər verilən sualları cavablandırırlar. Öz ailələri haqqında məlumat verirlər. Beləliklə, şagirdlərdə ailə ilə bağlı təsəvvürlər yaranır.

Hər bir insan fərddir. Bir neçə insan ümumi bir fəaliyyəti (işi) həyata keçirtdikdə onlara kollektiv deyirlər. Kollektiv müxtəlif növdə ola bilər: ailə, sinif, iş kollektivi, dərnək kollektivi, idman kollektivi və s.

Ailə şagirdlərin ilk kollektividir. Ailə kollektivində şagird birgə işləməyi, öz doğmalarına kömək etməyi öyrənir.

Şagirdlərin həyatının böyük bir hissəsi məktəbdə keçir. Buna görə də təhsil aldığı sinifdə kollektiv formada öyrənirlər. Şəxsiyyətin inkişafı və formalaşması kollektivdə uğurla həyata keçirilə bilər. Məktəb kollektivində şagird ünsiyyət təcrübəsi, hərtərəfli sosial təcrübə toplamaq imkanı, kollektiv fəaliyyət vərdişlərinin mənimsənilməsi, özünütəsdiq imkanı əldə edir.

Uşaqlıq-insan həyatının ən mühüm dövrüdür, gələcək həyata hazırlıq deyil, əsl, parlaq, bənzərsiz, təkrarolunmaz həyatdır. Uşaqlığın necə keçməsi bugünkü şagirdin necə insan olacağından asılıdır. Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəzedilməzdir. Ailə bir-biri ilə qohumluq bağları olan insanların birliyidir. Ailə hər kəsin həyatında böyük rol oynayır. Ailə üzvləri hər işdə bir-birlərinə kömək etməlidirlər.

Ailə ənənələrin, keçmiş nəsillərin təcrübəsinin qoruyucusu və ötürücüsüdür. Fərd ailədə sosiallaşır, bəşəriyyətə uğurla xidmət etmək üçün zəruri olan keyfiyyətləri əldə edir, təbii fərdiyyətçiliyi aradan qaldırır, "başqaları üçün" yaşamağı öyrənir [13].

İnsanın böyüyüb boya-başa çatdığı ailənin onun tərbiyəsində, əxlaqlı insan kimi yetişməsində rolu əvəzsizdir. Ailənin elə ən əsas funksiyası da gələcək üçün öz məsuliyyətini dərk edən, əxlaqi dəyərləri mənimsəyən insan yetişdirməkdir. Hər bir ata-ana övladına mükəmməl tərbiyə verməyə, onu əxlaqlı insan kimi yetişdirməyə çalışmalıdır. Bunun üçün, ilk növbədə, onlar övladlarına nümunə olmalıdırlar. Ata-ana öz sevgisi, hörməti, şəfqəti, mərhəməti ilə övladlarına nümunə olmağa çalışmalıdır [19].

Peyğəmbərimiz (s.a.s.) buyurmuşdur:

“Heç bir ata övladına gözəl ədəb və tərbiyədən daha dəyərli və üstün bir sərvət qoymaz.”

Ailə uşağın həyatının ağıllı təşkilini təmin etmək, yaşlı nəsillərin həyat və əməyinin müsbət təcrübəsini mənimsəməyə kömək etmək, fəaliyyətin, vərdişlərin, münasibətlərin dəyərli fərdi təcrübəsini toplamaq məqsədi daşıyır. Ailə tərbiyəsində valideynlərlə uşaqlar arasında münasibətlər şəxsi – emosional xarakter daşıyır. Ana və ata uşaqlarla xoş rəftar etməli, fiziki və psixoloji cəhətdən yaxşı inkişaf etmək üçün uşağa hər şeydən əvvəl sevgi, məhəbbət verməlidirlər.

Ailələrin sağlam və xoşbəxt yaşamaları üçün onun üzvləri arasında səmimiyyət olmalı, valideyn-övlad münasibətləri düzgün qurulmalıdır. Azərbaycan ailəsi hər şeydən əvvəl, milli adət-ənənələrimizi özündə yaşatmalıdır. Böyüyə hörmət, milli dəyərlərə bağlılıq bu tərbiyənin əsasını təşkil edir. Mədəniyyət, qarşılıqlı hörmət və bu hörmətdən doğan davranış qaydaları ailə mənəviyyatının özülüdür [14].

I-IV siniflər üzrə “Fərd və cəmiyyət” məzmun xəttində ailədə birgə fəaliyyətlə bağlı standartlar verilmişdir.

**I sinif**

2.1.3. Ailədə və kollektivdə üzərinə düşən vəzifələri sadalayır.

**II sinif**

2.1.3. Ailədə və kollektivdə vəzifələrin əhəmiyyətini izah edir.

**III sinif**

2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır.

**IV sinif**

2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır.

Həyat bilgisi I-IV sinif dərsliyində də ailədə birgə fəaliyyət ilə bağlı mövzular yer almışdır:

I sinifdə “Kollektiv”, II sinifdə “Ailədə”, III sinifdə “Biz necə davranmalıyıq?”, IV sinifdə “Yenidən məktəbdə” mövzularında ailə və kollektivin birgə fəaliyyəti haqıında məlumat verilir.

I sinifdə “Kollektiv” mövzusunda şagirdlər ailədə və kollektiv arasında əlaqəni öyrənirlər. 2.1.3. “Ailədə və kollektivdə üzərinə düşən vəzifələri sadalayır.” alt-standartı mövzuda reallaşdırılmşdır.




Şagirdlər şəkildə gördükləri haqqında danışır, sualları cavablandırırlar. İki şəkil arasında olan fərqi müəyyənləşdirirlər. Onlar öyrənirlər ki, insanların birgə fəaliyyətinə kollektiv deyilir. Kollektiv formada görülən hər bir işin öhdəsindən tez zamanda gəlmək olur. Birlikdə çalışaraq, bir-birilərinə kömək etməklə birgə fəaliyyət göstərirlər.

“Turp” nağılında baba turpu tək çıxarda bilmir. Buna görə də ailə üzvlərini köməyə çağırır. Ailə üzvləri turpu çıxarmaqda babaya kömək edirlər. Sonda ailə birlik olub turpu çıxardır. Belə nəticəyə gəlinir ki, kollektiv iş zamanı birlikdə hər işin öhdəsindən gəlmək asandır. Güc birlikdədir.



IV sinifdə 2.1.3. “Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır” standartını reallaşdırarkən layihə metodundan istifadə etmək olar.

**"Mənim ailəm"**adlı layihənin icmalı.

**Layihənin müddəti:** 1 həftə.

**Layihənin iştirakçıları:** müəllim, valideynlər, şagird.

**Layihənin məqsədi:**

Ailənin insan həyatındakı rolunu dərk etmək;

Ailədə üzərinə düşən vəzifələri anlamaq;

Ailə həyatında əhəmiyyətli anları əks etdirən fotolar çəkmək və "Mənim ailəm" fotoalbomunu yaratmaq.

**İnteqrasiya:**

A-d.: 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir.

Tex.: 3.1.1. Özünəxidmət qaydalarına riayət olunması barədə kiçik təqdimatlar edir.

**Resurslar:** kompüter, fotoaparat, çadır, ərzaq, maşın, albom, qələm, dəftər.

**Layihənin qiymətləndirilməsi meyarları.**

1. Layihənin məqsədinə uyğun təqdimatın hazırlanması.
2. Təqdimetmə zamanı fikrini düzgün ifadə etməsi.
3. Təqdimatın səliqəli olması.

**Plan:**

1. Ailə üzvləri ilə birgə gəzintinin təşkili.
2. Gəzinti zamanı iş bölgüsünün aparılması.
3. "Mənim ailəm" fotoalbomun yaradılması.
4. Təqdimat.

**Layihənin reallaşdırılması:**

"Mənim ailəm" layihəsi fərdi şəkildə həyata keçirilir. Bu layihə şagirdlərin hamısına verilir.

Müəllim layihə ilə bağlı valideynləri məlumatlandırır. Layihənin planı müzakirə edilir. Valideynlərə bildirilir ki, onlar bu layihənin gedişatında iştirak etsələr də, onun aparılmasını şagirdin özünə həvalə etsinlər. Yəni, iş bölgüsünü şagird aparmalı, fotolorı şagird çəkməli, fotoalbomu özü tərtib etməlidir. Gördüyü işlər barədə yazılı şəkildə təqdimat hazırlamalıdır. Təqdimat Power- Point şəklində hazırlanmalıdır.

***Nümunə:*** Ailə səfalı bir guşəyə gəzintiyə çıxır. Gəzintidə iş bölgüsünü şagird aparır: ata çadır qurur, samovarı qalayır, ana yemək hazırlayır, bacısı anaya kömək edir, qardaşı odun toplayır, özü bulaqdan su daşıyır **(bütün bu hadisələr fotoda əks olunur).**

İstirahət saatlarında ailəvi oyun təşkil olunur. Ata, ana, bacı, qardaş domino, voleybol oynayır, kitab oxuyur, maraqlı söhbətlər, müzakirələr aparılır, olduqları yerin tarixi abidələri ilə tanış olurlar. Şagird isə qeydlər aparır.

Ailədə şagirdlərin üzərinə düşən öhdəlikləri, məsuliyyət və vəzifələri vardır. Şagirdlər evdə öhdəsinə düşən işləri görməlidirlər. Öz otağını təmizləməli, əşyaları səliqəyə salmalı, ev işlərində analarına kömək etməlidirlər. Bacı-qardaşlarına, valideynlərinə aid əşyaları qarışdırmamlıdırlar. Anaya, ataya, ailədə böyük yaşlılara itaət etməli, onların sözünə baxmalı, dediklərinə, nəsihətlərinə əməl etməlidirlər. Ailədə yaşca böyük uşaqlar kiçik uşaqları həmişə qorumalı, onların qayğısına qalmalıdırlar. Onlara qulluq etməkdə analarına kömək göstərməlidirlər.

Birgə fəaliyyət ailə ilə birlikdə sərf olunan vaxtdır. Birgə fəaliyyət nəticəsində uşaqları müxtəlif tərəflərdən daha yaxından tanımaq olur. Valideynlər təmkinlə, səbirlə övladlarına düzgün izah etməyi bacarmalıdır. Birgə fəaliyyət zamanı uşaqlarınızı daha yaxşı və müxtəlif tərəflərdən tanıyacaqsınız.

Valideynlər uşaqlarının tərbiyəsini, təlimini və inkişafını ümumtəhsil müəssisələrinin istifadəsinə buraxırlar. Valideynlər övladlarının uğurları ilə az maraqlanırlar. Onları birgə fəaliyyətə cəlb etmək isə praktik olaraq mümkün deyil. Uşağın tam inkişafı məhz birgə fəaliyyətdə baş verir. Kiçik yaş dövründə uşaqların ətrafında baş verənlər onlar üçün çox həssas bir dövrdür və bu onun sonrakı həyatında iz buraxır. Məhz bu dövrdə uşaqlara valideynlərin diqqəti xüsusilə lazımdır. Daha sonra bu dövrü geri qaytarmaq mümkün olmayacaqdır.

Hər bir uşaq valideynləri ilə birgə edə bildiklərini, özləri sərbəst edə bilmir. Uşaqların bu bacarıqlarından istifadə edib düzgün istiqamət vermək lazımdır. Bunun üçün birgə fəaliyyət göstərmək lazımdır. Birgə fəaliyyət zamanı əvvəlcə uşaq sadəcə baxacaq, sonra isə öyrəndiklərini özü sərbəst tətbiq edə biləcək. Əsas rol valideynin üzərinə düşür.

Valideynlər təkcə övladının geyimi, qidası ilə maraqlanmamalı, həm də onlarla ünsiyyət qurmalı, düşünməyə sövq etməlidir. Birlikdə oynamaq, gəzmək, müxtəlif mövzularda danışmaq, hekayələr qurmaq, kitablar oxumaq və çizgi filmini izləmək olar. Kiçik yaşlı uşaqlar üçün ata-anasının nə etdikləri, nə danışdıqları maraqlıdır. Valideynlər övladları üçün faydalı olanları etməlidir. Uşaq

nəyəsə cəhd edən zaman böyüklər tərəfindən tərif eşidəndə qürür, sevinc hissi keçirir. Ana birgə yaradıcılıq prosesində övladına kömək etməli və onu istiqamətləndirməlidir, o isə birgə fəaliyyət nəticəsində edilən işin mümkün olduğunu başa düşür.

Beləliklə, uşaqla birgə işləmək üçün nə etmək lazımdır?

1. Kitab oxumaq. İstirahət günlərində uşağa yatmazdan əvvəl və ya gün ərzində kitab oxumaq olar. Belə dəqiqələrdə uşaqda idrak sahəsinin inkişafı ilə yanaşı, birbaşa əxlaqi keyfiyyətlərin formalaşması da baş verir. Ən əsası isə valideynlərlə belə bir vəhdətdə olarkən, uşaqda tez-tez öz sirləri və problemləri haqqında danışmaq arzusu yaranır.

2. Teatrlara, kinoteatrlara ziyarət. İlkin mərhələdə bu cür səfərlərin təşəbbüskarı valideynlərdir. Uşaqlar gedəcəkləri yeri və mövzunu özləri seçirlər. Bu, valideynlərin uşaqla fəaliyyətidir. Bunu həyata keçirməklə böyüklər öz uşaqlarına daha yaxın olur və bu ailə münasibətlərinin möhkəmlənməsinə kömək edir.

3. Birgə inkişaf, uşaq-valideyn oyunu. Hər cür stolüstü oyunlar: domino, söz-məntiqi və s. uşaqların və valideynlərin birgə fəaliyyətini artırır. Oyun uşaq üçün ən xoş fəaliyyətdir, onun daxilində o inkişaf edir və tərbiyə olunur.

4. Birgə uşaq-valideyn yaradıcılığı. Uşaqların və valideynlərin birgə yaradıcılığı evdə bir çox müsbət emosiyalar və isti atmosfer yaradır. Yaradıcılıq prosesi uşağın hərtərəfli inkişafını stimullaşdırır. Motor bacarıqları təkmilləşdirilir, təxəyyül formalaşır, yaradıcılıq potensialı artır. Valideynlər adətən ya bütün gününü işdə keçirir, ya da digər işlərlə məşğul olurlar. Birgə yaradıcılıq zamanı isə valideynin övladına qarşı diqqəti artır. Valideynlər evdə övladlarının yaradıcılığını sərgiləmək üçün bir guşə yarada bilər. Bu uşaqlarda özlərini daha əhəmiyyətli hiss etməyə imkan verəcəkdir.

Həyatda ən çox bizə vacib olanı unuduruq. Dəyər verdiyimiz insanlara kifayət qədər vaxt ayırmırıq. Onlarla az vaxt keçiririk. Sonra isə özümüzə "Niyə biz belə fərqliyik?", "Niyə bir-birimizi anlamırıq?" suallarını veririk. Ona görə də valideynlər övladlarını hər zaman diqqət mərkəzində saxlamalı, onların qayğısına qalmalıdırlar.

Ailə-uşağın ilk kollektividir, burada gələcək şəxsiyyətin əsası qoyulur. Uşaq təhsil müəssisəsinə daxil olduğu andan "pedaqoji üçbucaq" (müəllim-valideyn-

şagird) formalaşır. Müəllimlər, şagirdlər və valideynlər arasında əlaqələr uşaqların tərbiyəsi və inkişafında əldə olunan nailiyyətlərdən asılıdır. Valideyn təlim-tərbiyə prosesinin fəal iştirakçısı olmalıdır.




Uşağın həyatı iki mühüm sahədən ibarətdir: məktəb və ailə, hansılar ki, dəyişikliyə məruz qalır və inkişaf edirlər. Buna görə də müəllim və valideynlər daim birgə fəaliyyət göstərməlidirlər. Valideynin müəllimlə əlaqəsinin olmaması uşağın təlim-tərbiyəsinə zərər verir. Müəllim valideynləri təhsilə cəlb etməlidir. Şagirdlər vaxtlarının xeyli hissəsini məktəbdə keçirirlər. Valideynlər uşaqlarının təlim-tərbiyəsi, kollektiv münasibətlərdə vəziyyətini, həmyaşıdları ilə əlaqələrini bilməlidirlər. Valideyn məktəb həyatının iştirakçısı, uşağının həyatında əsas hadisələrin şahidi olmalıdır. Buna görə də müəllim daim valideynlə əlaqə saxlamalıdır. Valideynlərin və şagirdlərin birgə fəaliyyəti təhsilə marağı artırır, şagirdlərin motivasiyasını, ailədə münasibətlərini inkişaf etdirir. Valideynlər bilməlidir ki, uşaq kollektivinin fəaliyyəti nə qədər maraqlı və müxtəlif olarsa, onların uşaqlarının sosail inkişafı daha da inkişaf edər. Onlar təhsil prosesinin, sinif işinin təşkilində iştirak edərək, öz övladlarının və bütövlükdə şagird kollektivinin inkişafına kömək edirlər.

Dərslik komplektində həyat bilgisi fənni vasitəsilə ailədə birgə bacarıqların formalaşdırılması ilə bağlı mövzular yer almışdır. Şagirdlərə ailədəki vəzifələrinin öhdəsinə düşən işlərin nədən ibarət olduğu haqqında məlumat verilmiş, müəllim-valideyn-şagird əlaqələrinin uşaqların tərbiyəsi və inkişafındakı rolundan bəhs edilmişdir.

I-IV siniflər üzrə "Fərd və cəmiyyət" məzmun xəttində birgə fəaliyyət ilə bağlı standartlar verilmişdir.

**I sinif**

2.1.2. Birgə fəaliyyətin faydasını nümunələr əsasında izah edir.

**II sinif**

2.1.2. Özünün və yoldaşlarının kollektiv daxilindəki fəaliyyətinə münasibət bildirir.

**III sinif**

2.1.2. “Cəmiyyət” anlayışı haqqında təsəvvürlərini ifadə edir.

**IV sinif**

2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır.

Dərsliklərdə birgə fəaliyyət ilə bağlı bu standartlar aşağıdakı mövzularda yer almışdır: I sinifdə “Kollektiv”, II sinifdə “Davranış mədəniyyəti”, III sinifdə “İnsan və cəmiyyət”, IV sinifdə “Vətəndaşlıq”, “Məsuliyyət hissi”.

Birgə fəaliyyət zamanı şagirdlərdə aşağıdakı bacarıqlar formalaşdırılır:

- birgə işləmək;
- əməkdaşlıq etmək;
- digərlərinin fikrinə hörmətlə yanaşmaq;
- hər kəsə öz fikrini söyləməyə imkan yaratmaq, təmkinli olmaq;
- fikrini sübut etməyi bacarmaq;
- sirr saxlamağı bacarmaq, heç kəsin sirrini başqasına danışmamaq;
- hər zaman gülərüz olmağa çalışmaq, ən çətin vəziyyətdə belə insanların üzünə gülümsəməyi bacarmaq;
- çətinlik yarananda yardım etmək, zəif şagirdlərə daha çox diqqət yetirməkdir.

Ailənin şagirdin tərbiyəsində, onun əxlaqlı insan kimi yetişməsində böyük rolu vardır. Şagirdlər ailədə üzərinə düşən öhdəlikləri, vəzifələri yerinə yetirməklə cəmiyyət üçün yararlı insan kimi formalaşır.

Uşaq üçün ailə birgə fəaliyyət məktəbidir. Valideynlərin övladları ilə çox vaxt keçirməsi, birlikdə müxtəlif tədbirlərdə iştirak etməsi onların sağlam həyat tərzinin inkişafına müsbət təsir göstərir.

Uşaqların təlim-tərbiyəsində müəllimlərin valideynlərlə tərəfdaş olması, valideynlərin pedaqoji mədəniyyətinin artırılması üçün məktəbdə vaxtaşırı seminarların, açıq qapı günlərinin təşkil edilməsi tövsiyə olunur.

## İstifadə edilmiş ədəbiyyat


1. Bayramova S., Həşimova A. Həyat bilgisi -4. Metodik vəsait. Bakı: Aspoliqraf, 2018.
2. Cəbiyeva H. İbtidai siniflərdə layihələr metodundan istifadə. Kurikulum jurnalı. №1. 2013.
3. Əkbərov N. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. Bakı: Nurlar, 2009.
4. İbrahimova A., Mehdiyeva G., İbrahimov S. Həyat bilgisi -1. Metodik vəsait. Bakı: Aspoliqraf, 2018.
5. İbrahimova A., Mehdiyeva G., İbrahimov S. Həyat bilgisi -1. Bakı: Aspoliqraf, 2018.
6. İbrahimova A., Mehdiyeva G., İbrahimov S. Həyat bilgisi -2. Metodik vəsait. Bakı: Aspoliqraf, 2018.
7. İbrahimova A., Mehdiyeva G., İbrahimov S. Həyat bilgisi -2. Bakı: Aspoliqraf, 2018.
8. Mehdiyeva G., Musayeva E. Həyat bilgisi -3. Metodik vəsait. Bakı: Aspoliqraf, 2018.
9. Mehdiyeva G. Həyat bilgisi -3. Bakı: Aspoliqraf, 2019.
10. Mehdiyeva G. Həyat bilgisi -4. Bakı: Aspoliqraf, 2019.
11. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.
12. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: Mütərcim, 2012.
13. http://www.anl.az/down/meqale/yeni_az/2011/aprel/170916.htm
14. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/78970.htm
15. https://prodod.moscow/archives/1556
16. https://nsportal.ru/nachalnaya-shkola/vospitatelnaya-rabota/2017/11/25/sovmestnaya-deyatelnost-pedagogov-i-roditeley
17. https://ustschool.edusite.ru/p46aa1/p12aa1.html
18. http://www.tipii.edu.az/noduploads/document/maktabahazirliq-qruplarinda-isin-taskili-metodikasi-istirakci-vasaiti.

19. http://www.himayadar.org/ail---xlaq--n-dir-.html
20. https://nsportal.ru/blog/detskii-sad/all/2016/10/10/otdyh-s-detmi
21. https://womo.ua/bonusyi-sovmestnoy-deyatelnosti-s-rebenkom-i-kak-ee-organizovat/

## FİZİKANIN TƏLİMİ PROSESİNDƏ MƏNƏVİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI

*"Şəxsiyyətin əxlaqi mənəvi keyfiyyətləri onun intellektual nailiyyətlərinə nisbətən daha böyük əhəmiyyət daşıyır".*

**A.Eynşteyn**

Bütün dövrlərdə insanlarda mənəvi-əxlaqi tərbiyə yüksək qiymətləndirilmişdir. Cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişikliklər bizi Azərbaycanın gələcəyi olan gənc nəsil haqqında düşünməyi aktuallaşdırır.

Hər bir ölkədə olduğu kimi bizim ölkəmizin də təkcə intelektual səviyyəsi deyil, mənəvi keyfiyyətləri də yüksək olan insanlara ehtiyacı vardır. Bu baxımdan müasir məktəblinin zəruri elmi bilik və bacarıqlara yiyələnməsi ilə bərabər, mənəvi dəyərlərə nail olmalarına dair məsələlər təhsil sahəsində aparılan islahata dair qəbul edilmiş hüquqi-normativ sənədlərdə geniş şəkildə öz əksini tapmışdır.

Mənəvi-tərbiyənin formalaşdırılmasında humanitar fənlər aparıcı rol oynasa da, təbiət elmlərinin (fənlərinin) də rolu az deyildir. Ümumtəhsil məktəblərində şagirdlərə əxlaqi-mənəvi dəyərlərin formalaşdırılmasında bir tədris fənni kimi fizikanın xüsusi payı vardır. Fizikanın tədrisində şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılması üçün geniş imkanlar mövcuddur. Bu xüsusiyyətlər aşağıdakılardır:

1. Müxtəlif xarakterli tapşırıqlar (eksperimental, keyfiyyət, kəmiyyət) vasitəsilə mənəvi mədəniyyətin formalaşdırılması.
2. Elmi-bioqrafik xarakterli məlumatların təqdimatı vasitəsilə mənəvi mədəniyyətin formalaşdırılması.

***Müxtəlif xarakterli tapşırıqlar (eksperimental, keyfiyyət, kəmiyyət) vasitəsilə mənəvi mədəniyyətin formalaşdırılmaşı***

Mənəvi mədəniyyətin tapşırıqlar vasitəsilə formalaşdırmaq üçün tapşırıqların məzmununun ölkəmizdə yeni qurulan, yaradılan və istifadəyə verilən alternativ enerji mənbələri, modul elektrik stansiyalar, aqrar istehsalat sahələri ilə əlaqələndirilməsi şagirdlərdə fərəh hissinin formalaşmasına imkan yaradır.

İnteqrativ məzmunlu tapşırıqların həlli vasitəsilə şagirdlər arasında ünsiyyət, dostluq, etibarlılıq kimi mənəvi tərbiyə elementlərini formalaşdırmaq mümkündür.

Hazırda bizim ölkəmizdə bütün sahələrdə, o cümlədən də təhsil sahəsində köklü islahatlar aparılır. Belə bir zamanda ümumtəhsil məktəblərinin qarşısında iki başlıca məqsədin durduğunu söyləmək olar, birincisi şagirdlərin hamısını elmlərin əsaslarına dair şəxsiyyətyönümlü bilik, bacarıqlara yiyələndirməkdir. İkinci məqsəd hər bir şagirdin yüksək mənəviyyatlı tərbiyə olunmasıdır. Beləliklə, belə demək mümkünsə məktəblərdə təlim prosesində görülən işi iki yerə bölmək olur: təlim və tərbiyə. Təlim və tərbiyə bir-biri ilə qırılmaz əlaqəlidir. Təlim prosesində fizika elminin əsaslarının şagirdlərə mənimsədilməsində şagirdlərin mənəvi mədəniyyətinin, sadəcə desək, tərbiyəsinin formalaşdırılması məsələləri də həll olunmalıdır. Belə ki, tərbiyəni necə həll etmək mümkündür? Nəzəri araşdırmalar və məktəb təcrübəsi göstərir ki, vaxtaşırı olmasa da dərslikdə yazılanlar əsasında ekoloji, vətənpərvərlik, vətəndaşlıq, beynəlmiləlçilik tərbiyəsinin formalaşdırılmasında mənəvi tərbiyəyə zəruri hallarda müəyyən yer verilir.

Lakin onu da xatırlatmaq istərdim ki, fizika müəllimləri ilə aparılan söhbətlərdən aydın olur ki, hər bir dərsin qarşısında duran təlim, tərbiyə və inkişafetdirici məqsədin olmasına baxmayaraq təlim məqsədinə daha çox önəm verilir.

Fizika fənni üzrə kurikulumda məzmunla bağlı standartlarda şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılması üçün geniş imkanlar vardır.

Məsələ həlli ilə bağlı standartlara diqqət yetirsək onların vasitəsilə mənəvi tərbiyənin formalaşdırılmasının da imkanları kifayət qədərdir. Məsələ həlli prosesində mənəvi-tərbiyənin formalaşdırılması müəllimin yaradıcılığından əsaslı dərəcədə asılıdır. Fizika fənn kurikulumunda məsələ həlli ilə bağlı siniflər üzrə

VI-sinifdə 2 (1.1.2., 2.1.4.), VII-sinifdə 4 (1.1.2., 2.1.2., 2.1.4., 2.2.2.), VIII-sinifdə (1.1.2., 2.1.2., 2.1.4.), IX-sinifdə 4 (1.1.2., 2.1.2., 2.1.4., 2.2.2.), X-sinifdə 3 (1.1.2., 2.1.2., 2.1.4.), XI-sinifdə 4 (1.1.2., 2.1.2., 2.1.4., 2.2.2) standart müəyyən edilmişdir.

Ona görə də mənəvi mədəniyyətin formalaşdırılması üçün seçilən müxtəlif xarakterli tapşırıqların tərtibində aşağıdaki didaktik tələblərin gözlənilməsi məsləhətdir:

- tapşırıqlar məzmun standartlarının reallaşdırılmasına imkan yaratmalı;
- şagirdlərdə iradəlilik, dözümlülük, səbrlilik, səliqəlilik, müşahidəçilik və s. kimi mənəvi keyfiyyətlərin formalaşdırılmasına xidmət etməli;
- eksperimental, keyfiyyət, kəmiyyət xarakterli tapşırıqların məzmunu şagirdlərin həyatdakı fəaliyyəti ilə əlaqələndirilməlidir.

Müxtəlif xarakterli fizika məsələlərinin nümunəsində mənəvi tərbiyənin - mədəniyyətin formalaşdırılmasına diqqət yetirək:

VI-sinif.

"Fiziki hadisələr qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin (1.1.2. "Müxtəlif xarakterli fiziki hadisələrə dair sadə məsələlər həll edir") alt standartına uyğun olaraq istilik hadisələrinə dair tərtib edilmiş sadə keyfiyyət xarakterli məsələlər:

1. Uzun müddət hərəkətdə olan avtomobilin təkərlərinin qızmasını necə izah etmək olar?
2. Nə üçün səsdən sürətli hərəkət edən təyyarələrin xarici örtüyünü xüsusi qurğularla soyudurlar?.
3. Hansı çaynikdə su tez qaynayar?: Təzə, yaxud içərisi bərkimiş ərplə əhatə olunmuş köhnə çaynikdə?
4. Stəkana qaynar su tökməzdən əvvəl ona çay qaşığının salınmasının səbəbi nədir?
5. Nə üçün kofe, şorba qaşıqla qarışdırıldıqda tez soyuyar?
6. Yaz və yay aylarında hansı rənglə olan paltarlardan istifadə etmək daha məsləhətdir?
7. Nə üçün səhralarda gündüz hava isti, gecələr isə 0 $^0$C-yə qədər enir?

8. Nə üçün qış aylarında daha soyuq ərazilərdə havanın temperaturunu ölçmək üçün civəli termometrlərdən deyil, spirtli termometrlərdən istifadə olunur?

9. Qış aylarında şaxtalı yoxsa ılıq havada yuyulmuş paltarları az zaman müddətində qurutmaq olar?

10. Soyuq havalarda avtomobillərin müşahidə pəncərələrinin "tərləməsini" necə aradan qaldırmaq olar?

11. Avtomobil təmir olunan qapalı emalatxanalarda alışqandan hansı hallarda istifadə məsləhət deyil?.

12. Armudu stəkanda çay içməyi hansı halda əlverişli hesab etmək olar?

13. Uca dağların zirvələrinə qalxan alpinistlər ət xörəyinin gec bişdiyindən şikayətlənirlər. Bu şikayəti necə həll etmək olar?

İstilik hadisələri ilə bağlı həyati məzmunlu məsələlər şagirdlərin fizika fənninə olan marağını artırır. Fizikanın təlimi prosesində həyati əhəmiyyətli tapşırıqlardan istifadə şagirdlərin elmi dünyagörüşü, tədqiqatçılıq, müşahidəçilik, dəqiqlik, səliqəlilik kimi bacarıqlarla yanaşı, eyni zamanda onların mənəvi mədəniyyətinin də formalaşdırılmasında xüsusi əhəmiyyətə malikdir.

### *Elmi-bioqrafik xarakterli məlumatların təqdimatı vasitəsilə mənəvi mədəniyyətin formalaşdırılması*

Tədris planına görə fizika fənni ümumtəhsil məktəblərində VI-XI siniflərdə tədris olunur. Fizika fənni üzrə təhsil proqramında üç məzmun xətti üzrə VI-XI siniflərdə 87 məzmun standartı müəyyənləşdirilmişdir. Bu standartlardan 12-sini mənəvi tərbiyənin formalaşdırılmasından ötrü fizika elminin inkişafında xüsusi əməyi olan fiziklərin (fizika alimlərinin) həyat və yaradıcılıqları ilə əlaqələndirmək olar. Standartların məzmununa diqqət yetirsək şəxsiyyətin inkişafı və formalaşmasına dair təlim və tərbiyə ilə bağlı tələbləri müşahidə etmək mümkündür.

Təlim və tərbiyə prosesi bir-biri ilə üzvi surətdə əlaqədardır. Tərbiyə təlim zamanı inkişaf etdirilir və formalaşdırılır. Tərbiyə dinamik proses olmaqla idarə edilən mürəkkəb sistemdir. Tərbiyə sisteminə bir çox amillər təsir edir. Bunlara məktəblinin yaşadığı dövlətin siyasi mühiti, məhəllə mühiti, ailə, məktəb mühitini aid etmək olar.

Tərbiyə - məktəblinin fiziki və psixi funksiyalarını, savadlılıq səviyyəsini, emosiyalarını özünə, ətraf aləmə münasibətini, şüurunu və dünyagörüşünü, həyat mövqeyini dəyişən, inkişaf etdirən təsirlər məcmusudur [1].

Ümumtəhsil məktəblərində tədris olunan fənlərin tədrisi vasitəsilə müxtəlif tərbiyə problemlərini müəyyən hədd səviyyəsində həll etmək mümkündür.

Fizika fənninin tədrisi prosesində şagirdlərə əxlaqi-mənəvi ekoloji, estetik, təbiətə qayğı, vətənpərvərlik, hərbi vətənpərvərlik, əmək, peşəyönümü, politexnik vətəndaşlıq, elmi dünyagörüş və s. tərbiyə elementlərini aşılamaq mümkündür.

Lakin onu da qeyd etmək lazımdır ki, əxlaqi-mənəvi tərbiyəsi lazimi səviyyədə olan insanlarla digər tərbiyə aspektləri haqqında asanlıqla danışmaq mümkündür.

Müasir ümumtəhsil məktəblərində tədris olunan fənlərin qarşısında duran əsas məqsəd şagirdlərdə şəxsiyyətyönümlü təlim nəticələrini reallaşdırmaqdır. Bu məsələlərin həll edilməsi şagirdlərdə dayanıqlı əxlaqi-mənəvi keyfiyyətlərin formalaşdırılması ilə bağlıdır. Əxlaqi-mənəvi tərbiyə digər tərbiyə növlərinin mərkəzindən keçən bir xətdir, oxdur və yaxud onları ətrafında müəyyən məsafələrdə saxlayan bir mərkəzdir.

Fizika fənninin tədrisi prosesində şagirdlərdə əxlaqi-mənəvi mədəniyyətin formalaşdırılması heç də çətin bir problem deyil. Bu problemin həlli dövrün, regionun, məktəbin, sinfin tələbindən asılı olaraq müəllimin peşəkarlıq xüsusiyyətindən asılıdır. Yəni ixtiyarı bir mövzunun tədrisi ilə bağlı nəzərdə tutulan mənəvi tərbiyə elementləri dayanıqlı yox, oynaq olmalıdır. Dayanıqlı da ola bilər. Biz bunu inkar etmirik, lakin siniflər paralellər üzrə dəyişdikcə yanaşmalar da dəyişə bilər. Lakin məktəb təcrübəsi göstərir ki, fizikanın öyrənilməsində əsas diqqət elmi biliklərin qazanılmasına yönəldilir. Tərbiyə məsələləri isə kölgədə qalır.

"Mənəvi-əxlaqi tərbiyə" məfhumu altında məktəblinin geniş mənada insanın mənəvi əxlaqi tərbiyəsi, onun formalaşdırılması başa düşülür.
Fizikanın tədrisi prosesində mənəvi tərbiyə aşağıdakı aspektləri əhatə edir:

- mənəvi tərbiyə;
- vətəndaşlıq tərbiyəsi;

- vətənpərvərlik tərbiyəsi;
- politexnik tərbiyə;
- sağlam həyat tərzi tərbiyəsi.

Mənəvi tərbiyə dedikdə elmin və onun praktiki tətbiqinin insan həyatında və ətraf aləmin qorunmasında əhəmiyyəti başa düşülür.

Vətəndaşlıq tərbiyəsi anlamı altında müasir dünyada həyatın inkişafında fizikanın yaradıcı rolunu təmin edən, elmin naliyyətlərini dəyərləndirməyə hazır olan, aktiv həyat mövqeyi olan şəxsin formalaşdırılmasını başa düşmək olar.

Politexnik tərbiyə məfhumu altında gündəlik həyatın problemlərini həll etmək, işə hörmət, məsuliyyət kimi başa düşmək olar.

Vətənpərvərlik tərbiyəsi dedikdə öz vətənini, onun mədəni ənənələrini inkişaf etdirən, onları qoruyan, yaşadığı diyarı sevmək kimi qəbul etmək mümkündür.

Sağlamlığı qorumaq məfhumu altında insan və cəmiyyətin təhlükəsizliyini təmin edən sağlam həyat tərzinin formalaşdırılması başa düşülür.

Fizikanın tədrisində göstərilən mənəvi tərbiyə aspektləri çərçivəsində şagirdlərdə vicdan, fəxr, inam, məsuliyyətlilik, vətəndaşlıq, vətənpərvərlik kimi mənəvi hissləri, dözümlülük, mərhəmət, təvəzökarlıq kimi mənəvi xüsusiyyətləri, xeyir səxavətlilik, yardım kimi mənəvi-mövqelləri, insanlara xidmət etmək, qulaq asmaq, deyilənlərlə düzgün olduqda razılaşmaq kimi mənəvi tərbiyə elementlərini formalaşdırmaq üçün müasir fizika fənn kurikulumunun məzmun standartları geniş imkanlara malikdir.

Əxlaqi-mənəvi tərbiyənin formalaşdırılmasında fizikanın inkişafında əməyi olan elmin klassiklərinin gördüyü işlərlə, apardıqları tədqiqatlarla şagirdlərin tanış edilməsi xüsusi əhəmiyyət daşıyır. Təəssüflər olsun ki, fizikanın tədrisində şagirdlərin mənəvi tərbiyə məsələləri əhəmiyyətli dərəcədə qiymətləndirilmir. Müəllimlər tədris prosesində şagirdlərə yalnız biliklərin verilməsi ilə kifayətlənirlər. Lakin onu da qeyd etmək istərdim ki, dərsliklərdə fizika elminin inkişafında əməyi olan elm adamları haqqında məlumatlar verilmişdir.

Nümunə üçün VI sinfin fizika dərsliyində Aristotel, Bəhmənyar Əl-Azərbaycani, Qalileo Qaliley, İsak Nyuton, Ceymis Klark Maksvell, Albert Eynşteyn, Auders Selsi haqqında yığcam məlumatlar verilmişdir. Lakin onu qeyd etmək

istərdim ki, məlumatlar şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılması üçün kifayətləndirici deyil.

Klassik fiziklərin elmi kəşfləri, müəyyən elmi məsələlər haqqında söylədikləri fikirlər, apardıqları fundamental təcrübələrin mahiyyətinin şagirdlərə lazımi anlarda onların anlaq səviyyəsinə uyğunlaşdırılmaq şərti ilə çatdırılması onların mənəvi tərbiyəsinin formalaşmasında böyük əhəmiyyət daşıyr. Ona görə də fənn müəllimləri fizika elminin inkişafında xüsusi əməyi olan alimlərin həyatı və yaradıcılığı ilə bağlı məlumatların şagirdlərə müxtəlif şəkildə, yığcam çatdırılması üzərində ciddi düşünməlidirlər. Alimin yaradıcılığı ilə hansı məlumatların çatdırılmasını məqsəduyğun hesab edirik:

- hər hansı fiziki qanunun, cihazın, ölçü vahidinin öyrənilməsi və şərhi ilə əlaqədar onun adının çəkilməsi;
- onun portretinin göstərilməsi;
- qısa bioqrafik məlumatın şərhi;
- şagirdlərin fəaliyyətə cəlb edilməsi ilə bağlı növbəti dərsə onun həyatı, yaradıcılığı haqqında;
- onun yaratdığı cihazın (mümkünsə) modelini hazırlamaq;
- onun həyat və yaradıcılığı ilə əlaqədar müxtəlif xarakterli məsələlər həll etdirmək.

Haqqında danışılan elm adamının (fizik) həyat və yaradıcılığı haqqında məlumatları şagirdlərə çatdıraraq tərbiyəvi təsir göstərməsi üçün müəllimlər uyğun materialı sistemli, şüurlu şəkildə tədris prosesində istifadə etməlidirlər.

Onu da qeyd etmək istərdim ki, aparılan araşdırmalar göstərir ki, görkəmli fiziklərin həyat və yaradıcılığına dair məlumatları hansı şərtlər daxilində əlverişli hesab etmək olar.

Birincisi, bu məlumatların həcmi kiçik olmaqla kiçik zaman fasiləsi üçün nəzərdə tutulmalıdır. Fizika elminin inkişafında əməyi olan bütün alimlərin həyat və yaradıcılığına dair məlumatların verilməsinə ehtiyac yoxdur. Yalnız görkəmli fiziklər haqqında məlumatların verilməsi məqsədəuyğundur. Bunlara Q. Qalileyi, İ. Nyutonu, M. V. Lomonosovu, M. Faradeyi, D. K. Maksveli, P. N. Lebedevi, E. Rezerfordu, A. Eynşteyni, İ. V. Kurçatovu o cümlədən azərbaycanlı fiziklər Abbasqulu Abaszadə, Zahid Qaralov, Həsən Abdullayev, Abdulla Muxtarov, və başqalarını göstərmək olar. Bu alimlərin tərcümeyi-halı haqqında

məlumatların müasir fizika fənn kurikulumuna uyğun standartların reallaşdırılması zamanı məqsədəuyğun hesab olunan mövzuların öyrənilməsi zamanı verilməsi məsləhətdir. Nümunə üçün Q. Qaliley haqqında cisimlərin sərbəst düşməsinin öyrənilməsində, İ.Nyuton haqqında dinamikanın qanunlarının tədrisində, M. Faradey haqqında Elektromaqnit induksiya hadisəsinin şərhində, E. Rezerford, İ.Kurçatov haqqında Radioaktiv maddələrə aid mövzuların tədrisində, A. Eynşteyn haqqında Nisbilik nəzəriyyəsinin öyrənilməsində, A. Abbaszadə haqqında Molekulyar fizika və Termodinamikaya aid mövzuların tədrisi prosesində, Z.Qaralov haqqında mənəvi tərbiyəyə dair qısa şərhlərdə istifadəni məqbul hesab etmək mümkündür.

İkincisi, tanınmış fiziklərin həyat və yaradıcılığı haqqında o məlumatlar şagirdlərin mənəvi dünyasına daha güclü təsir edər ki, alimin şəxsiyyətinin dəqiq cizgiləri haqqında onda müsbət təsəvvür yaratmış olsun. A. Eynşteynin dediyi kimi, görkəmli şəxsin əxlaqi-mənəvi keyfiyyətləri onun intellektual nailiyyətlərindən üstün olmalıdır. Belə olduqda insanlıq üçün daha böyük əhəmiyyət kəsb etmiş olar.

Üçüncüsü, alimlərin həyat və yaradıcılığı haqqında məlumatlar tədris olunan mövzu ilə əlaqədar olmalıdır. Məsələn, “Radioaktiv şüaların bioloji təsiri” mövzusunun tədrisində (Fizika fənn kurikulumunda (XI sinif) fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar məzmun xəttinin 1.1.4 Elektromaqnit atom və nüvə hadisələrinin tətbiqinə dair təqdimatlar edir) A.Eynşteynin söylədiyi bir fikrə diqqət edək: ”Əgər mən bilsəydim ki, almanlar atom silahının hazırlanması üzərində işləmirlər, mən atom bombasının yaranmasına heç bir köməklik (elmi cəhətcə) göstərməzdim”. Alman alimi O.Qan Xirosima üzərinə atom bombası atıldıqdan sonra özünə qəsd etmək istəyir və söyləyir: “Mənim bu hadisəyə heç bir münasibətim olmayıbdır”. Bu fikirlər Yaponiyanın Xirosima və Naqasaki şəhərinə amerikanlar tərəfindən atom bombası atıldıqdan sonra deyilmişdir.

Dördüncü şərt onu qeyd etmək olar ki, Arximed, M.Faradey, A.Ş.Popov, P.L.Kapiya, L.D.Landau, H.B. Abdullayev, A.A.Abaszadə və digər alimlər haqqında verilən məlumatlar onların gördükləri işlərin praktiki tətbiqi istiqamətinə yönəldilməlidir ki, şagirdlər görsünlər ki, fiziklərin görülmüş hər bir işi insanların, bütövlükdə cəmiyyətin həyatında və inkişafında xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, qeyd etmək mümkündür ki, təlim prosesində fiziklərin həyat və yaradıcılıqları haqqında deyilənlər sadəcə şərh deyil, onların yaşadıqları dövrün tələbləridir. Ona görə də alimlərin həyatı haqqında o məlumatları seçmək lazımdır ki, müasir dövrdə ümumtəhsil məktəblərində təhsil alan şagirdləri onları rast gəldikləri zərərli vərdişlərdən, pis əməllərdən uzaqlaşdırmaq üçün düşünməyə sövq etsin.

Şagirdlərdə sadəlik, təvazökarlıq, zəhmətsevərlik, xeyirxahlıq, mübarizlik, vətənpərvərlik, vətəndaşlıq və s. kimi mənəvi keyfiyyətlərə qarşı düşünmək, maraq göstərmək üçün görkəmli klassik fizika alimlərinin söylədikləri fikirlərdən istifadə etmək müəllimlərə tövsiyə olunur.

E.Rezerford: Hər bir gənc çox düşünməlidir.

A.S.Popov: Mən rusam, ona görə də bütün biliyimi, zəhmətimi yalnız öz vətənimə verə bilərəm.

B.Paskal: Yaxşı düşünməyi öyrənməliyik. Əxlaqın əsas prinsipi budur.

İ.Nyuton: Mən bilmirəm aləmə necə görünürəm, lakin mənə elə gəlir ki, mən dəniz kənarında bir-birindən parlaq daş axtaran, yaxud daha gözəl balıqqulağı toplayan uşağam.

İ. Nyuton: Mən başqalarına nisbətən daha uzağı görürəmsə demək mən nəhənglərin çiyinlərində durmuşam.

A.Eynşteyn: Mənim üçün ən dəhşətli ifadədir – Mən necə sübut etdim?.

P.L.Kapitsa: Sadəlik ən böyük müdriklikdir.

E.Rezerford : H. Geyger qul kimi işləmişdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Qaralov, Z.İ. “Tərbiyə”, 3 cilddə, Bakı: Pedaqogika, 2003.- I c., Səh 74.

2. Голин Г.М. Вопросы методологии физики в курсе средней школы. Москва: Просвещение, 1987, 127 с.

3. Бугаев А.И. Методика преподование физики в средней школу. М.: Просвещение, 1981.-288с.

4. Глазунов А.Т. Методологические основы реализации политехнического принципа при обучении физики в средней школе. Автореф. дис. док. пед. наук.-М., 1986.-38 с.

5.. Ланипа М.Я. Методика формирование позновательного интереса школьника в процесс обучения физике. Дис. док. пед. Наук. М., 1986.-379с.

6.. Мещанский В. Н. Формирование мировозрения учащихся при изучении физики. М.: Просвещение, 1990.-275с.

7. Усова А.В., Бобров А.А. Воспитание учащихся в процессе обучения физике. М.: Просвещение, 1984.-256с.

8. Козырева Л.Л. Духовно-нравственное воспитание на уроках физики. духовно-нравст. восп. Косучева docx. 24.57кб.

12.Самихова И.Э. Духовно-нравственное воспитание на уроках физики. Infonrak.ru/

## İBTİDAİ SİNİFLƏRDƏ TEXNOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN ESTETİK TƏRBİYƏSİNİN İNKİŞAF ETDİRİLMƏSİ

***Şəxsiyyətin hərtərəfli inkişafında estetik tərbiyənin rolu***

Müasir zamanda estetik tərbiyənin həyata keçirilməsi, şəxsiyyətin hərtərəfli inkişafı və bütövlükdə ortaq bir mədəniyyətin formalaşması problemi müəllimlərin və valideynlərin qarşısında duran ən vacib vəzifələrdən biridir. Estetik tərbiyənin qarşısına qoyulan məqsəd və vəzifələr bir çox alimlər, məsələn, D.B. Kabalevski, Y.K. Babanski, D.S. Lixaçev, B.M. Nemenovski, V.A. Suxomlinski, V.N. Şatskaya, V.C. Xəlilov və s. tərəfindən həll edilmişdir. Bu məsələni araşdıran pedaqoq alimlərin əsərlərində bütün yaş mərhələlərində şəxsiyyətin ahəngdar və hərtərəfli inkişafı üçün estetik tərbiyənin əhəmiyyəti və zəruriliyi açıqlanır.

Ümumtəhsil məktəblərində apardığımız müşahidələr, texnologiya fənn müəllimləri və şagirdlərlə söhbətlərdən məlum olur ki, bu fənnin tədrisi prosesində şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan estetik tərbiyə probleminə o qədər də əhəmiyyət verilmir.

Şəxsiyyətin estetik inkişafı erkən yaşdan başlayır. İnsan bir şəxsiyyət kimi formalaşdıqdan sonra, onda estetik idealları, bədii zövqü formalaşdırmaq çox çətindir. Odur ki, ibtidai siniflərdən başlayaraq məktəblilərin

estetik tərbiyəsini formalaşdıran aşağıdakı komponentlərə fikir vermək lazımdır:

**Estetik inkişaf –** şagirddə estetik qavrayışı, yaradıcı təxəyyülü, emosional təcrübə fəaliyyətini, habelə mənəvi ehtiyacların formalaşmasını təmin edən zəruri qüvvələrin məqsədyönlü formalaşma prosesidir.

**Estetik zövq** – insanın əşyaları, hadisələri, vəziyyətləri onların estetik keyfiyyətləri baxımından qiymətləndirmək qabiliyyətidir. Zövqün ifadə edilməsində vacib komponent estetik idealdır.

**Estetik ideal** – insanların təbiətdəki, cəmiyyətdəki, insandakı və sənətdəki gözəlliyin mükəmməlliyi ilə bağlı fikirlərinin təcəssümü olan bütöv, sosial şərtləşdirilmiş konkret-həssas bir obrazdır.

**Estetik hiss –** ətraf aləmdəki əşya və hadisələrə estetik münasibətin subyektiv emosional duyğusudur. Estetik hiss, əşyanın məzmun və formasının birlikdə qavranılması və qiymətləndirilməsini müşayiət edən mənəvi ləzzət və ya ikrah hissi ilə ifadə olunur. Estetik hissin inkişafı və tərbiyəsi şagirdlərdə estetik idealın formalaşmasına, onların estetik norma və qiymətləndirməni mənimsəmələrinə yönəlmişdir.

Estetik tərbiyənin bir çox vasitələri mövcuddur. Bunların içərisində:
a) insanların təbiətlə əlaqəsi; b) ictimai-sosial həyat; c) əmək fəaliyyəti mühüm yer tutur.

İnsanların gözəlliklə, təbiətlə əlaqəsi nəticəsində onlarda gözəl hisslər baş qaldırır, təbiətə vurğunluq əmələ gəlir. Bu işdə təbiətə ekskursiyalar, yaşıllaşdırma işində iştirak etmək və s. əhəmiyyətli yer tutur. Təbiət, onun gözəlliyi özü uşaq və yeniyetmələrə gözəlliyi sevdirir.

Estetik tərbiyənin iknci vasitəsi insanların ictimai - sosial həyatıdır. Abadlaşdırılmış şəhər və kəndlər, onların gündən-günə gözəlləşdirilməsi, yaraşıqdı binaların tikilməsi və enli küçələrin salınması insanlar arasında gözəl, mehriban ünsiyyət yaradır, onları həyatı daha da gözəlləşdirməyə ruhlandırır, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə sövq edir.

Estetik tərbiyənin vasitələri içərisində təməlini əmək təşkil edən "Texnologiya" fənni mühüm yer tutur. İnsan öz əməyinin nəticəsindən, cəmiyyətə verdiyi xeyirdən zövq alır. Bu problem haqqında növbəti bölmədə geniş material verilir.

Yuxarıda şərh olunanlar haqqında fikrimizi belə ümumiləşdirə bilərik ki, estetik tərbiyənin mahiyyəti şagirdlərin sənətdə və həyatda gözəlliyi tam qavramaq və düzgün başadüşmə qabiliyyətini, onlarda estetik anlayışları, zövqləri və ideallarını, yaradıcı meyllərini inkişaf etdirməyə yönəlmiş müxtəlif bədii və estetik fəaliyyətlərinin təşkilindən ibarətdir.

Estetik tərbiyə ümumi və əlavə təhsil, mədəniyyət və s. müəssisələrindəki bədii və yaradıcılıq fəliyyətlərinə, habelə təhsil fəaliyyətlərinə və sinifdənkənar təhsil işinin müxtəlif formaları və növlərinə cəlb olunmaqla həyata keçirilə bilər. Əsasən, ibtidai siniflərdə tədris prosesində estetik tərbiyənin qarşısında duran vəzifələr musiqi, təsviri incəsənət, ədəbi oxu və texnologiya kimi fənlər vasitəsilə həll olunur. Estetik tərbiyə aparan müəllim, düşüncə, qavrayış, yaddaş, təxəyyül inkişafının yaşla əlaqədar xüsusiyyətlərini nəzərə almalı və estetik tərbiyə prosesini bu xüsusiyyətlərə uyğun qurmalıdır.

***İbtidai siniflərdə texnologiya dərslərində şagirdlərin estetik tərbiyəsinin inkişaf etdirilməsi.***

Şagirdlərin estetik tərbiyəsi texnologiya fənni ilə ayrılmaz şəkildə bağlıdır. İbtidai sinif şagirdləri vaxtlarının əhəmiyyətli bir hissəsini məktəbdə keçirirlər və qeyd etmək lazımdır ki, texnologiya dərslərində qarşılaşdıqları şərait onların estetik inkişafına ciddi təsir göstərir. Gözəlliyi dərk etmədən texnologiya dərslərində sagirdlərin estetik tərbiyəsini həyata keçirmək mümkün deyil. Uşaqların gerçəkliyi estetik nöqteyi nəzərdən qavrama meyli özünü olduqca erkən yaşlarında meydana çıxarır. Texnologiya üzrə məşgələlərin tədris olundugu siniflərdə iş şəraiti uşaqların kollektiv və fərdi işinin təşkili ilə ayrılmaz şəkildə bağlıdır. Sinifdə yaradılan iş mühiti, uşağa estetik təsirlərin ən zəngin mənbəyidir - fəal bir tərbiyəçidir.

İbtidai siniflərdə texnologiya dərslərində estetik tərbiyənin əsas şərtləri bunlardır:

- əlverişli iş şəraitinin yaradılması;
- işin məqsədinin müəyyənləşdirilməsi;
- əmək obyektinin seçilməsi;
- məmulatların estetik təhlili.

Birincisi, texnologiya fənni üzrə məşğələlərin aparıldığı tədris kabinetində, emalatxanada iş yerlərinin əyani-bədii tərtibatı, habelə müvafiq estetik mühitin yaradılmasına xüsusi diqqət yetirilməlidir. Məktəb rəhbərləri, texnologiya fənn müəllimləri unutmamalıdırlar ki, məşğələlərin keçiriləcəyi yerin bədii-estetik tərtibatı, şagirdlərdə əməyə, əmək adamlarına məhəbbət hissini qüvvətləndirən çağırış və atalar sözlərinin, müxtəlif məlumatları göstərən stend və vitrinlərin əks etdirilməsi, səs-küyün azaldılması, divarların və avadanlığın açıq, yüngül, işıqlı, fərəh doğuran rənglərlə boyanması, yeri gəldikcə dağ, yaylaq və göy çəmənliyi əks etdirən lövhələrə istinad olunması zövq oxşamaqla bərabər, şagirdlərin tez yorulmasının qarşısını alır. Sinif otagı üçün rasional rəng sxemi vermək ən vacib iş şəraitindən birini, estetik təsirin vacib amillərindən birini təmin etmək deməkdir.

Şagirdlərin texnoloji fəaliyyətinin davam etdirildiyi yerdə sanitariya-gigiyena mədəniyyətinə, təmizliyə riayət olunması şagirdlərdə müxtəlif cür estetik hisslərin və keyfiyyətlərin formalaşmasına zəmin yaradır. Qeyd etmək lazımdır ki, təmizlik həm də estetik anlayışdır. Bu təkcə fiziki-gigiyenik amillə bağlı olaraq qalmır, habelə şəxsiyyətin mənəvi keyfiyyəti kimi səciyyələnir.

Texnologiya dərslərində şagirdləri əhatə edən əşyaların, onların istifadə etdikləri alət, avadanlıq və cihazların təmiz, səliqəli, gözoxşar olması estetik mədəniyyəti göstərən şərtlər kimi qiymətləndirilir. Çünki şagirdlərin yaradıcı əmək şəraitinin gözəlliyi şəxsiyyətə sevinc, fərəh gətirir; öz əmək fəaliyyətlərinin nəticəsi kimi onları sevindirir.

Məhz bu cəhətləri nəzərə alaraq şagirdlərin texnoloji bacarıq və vərdişlərə yiyələndiyi hər bir məşğələ otağının, emalatxana və laboratoriyaların sanitariya mədəniyyətinə əsaslanan estetikliyinə, burada gül-çiçək dibçəklərinin qoyulmasına, yaşıllıq guşələrinin yaradılmasına da xüsusi fikir verilməlidir. Texnologiya fənni üzrə məşgələlərdə şagirdlərin işin xarakterinə uyğun iş paltarlarında olması da onların estetik zövq tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

Sagirdlərin istifadə etdikləri alət, avadanlıq və materialların yüksək keyfiyyəti, onların məzmunu və istifadəsi mədəniyyətini nəzərdə tutan iş yerinin estetikası məktəblilərin estetik tərbiyəsi üçün növbəti şərtdir. Estetik tərbiyə baxımından alətlər aşagıda göstərilən tələblərə cavab verməlidir:

1. Hər şeydən əvvəl alətlər cəlbedici və gözəl olmalı, xarici görünüşü ilə şagirdlərdə müsbət emosiyalar oyatmalıdır.

2. Sagirdlərin istifadə etdikləri alətlər həm də rahat olmalıdır. Bu keyfiyyətin alətlərdə olması uşaqlara müsbət estetik təsir göstərir. Alət rahat olarsa, şagirdlər zövqlə işləyir, əmək hərəkətlərini dəqiq, ritmik və məhsuldar həyata keçirməklə yanaşı, müəllimin verdiyi tapşırıgı vaxtında və müvəffəqiyyətlə yerinə yetirirlər. Alət əlverişsiz olduqda, yerinə yetirilən iş şagirdə kədər gətirir, onun görəcəyi işə maragı sönür, tapşırıgı yerinə yetirməkdə çətinlik çəkir və istənilən nəticəni əldə etmir.

3. İstifadə olunan avadanlıqların (su üçün qablar, kagız qırıntıları, parça və digər istifadə olunacaq materiallar üçün qutular və s.) keyfiyyəti, alətlər kimi gözəl və rahat olmalıdır. Şagirdləri alətlərlə, avadanlıqlarla, materiallarla təmin etmək kifayət deyil, onlar sadalananlarla mədəni şəkildə idarə etməyi öyrənməli, yəni iş masası arxasında bu avadanlıqlarla elə davranmaq lazımdır ki, hər şey onların əlində olsun və heç nə işə mane olmasın. İbtidai sinif şagirdlərinin hər biri özünə və işinə hörmət edən insan kimi iş yerini təmiz saxlamalı, gördüyü işin məzmununa diqqət yetirməli, iş yeri mədəniyyətinin daha uğurlu olmasına daima diqqətlə yanaşmalıdır. Texnologiya dərslərində sinifdə düzgün təşkil olunmuş iş şəraiti yalnız ibtidai sinif şagirdlərinə birbaşa estetik təsir göstərmir, onların məşğulluğunda yüksək nəticələr əldə etməsinə kömək edir, həm də hər hansı bir fəaliyyət sahəsində həm məktəbdə, həm də işdə onlar üçün zəruri olan ən yaxşı iş bacarıqlarını və vərdişlərini fəal şəkildə formalaşdırır.

İkincisi, şərt işin məqsədini təyin etməkdir. İşin məqsədi məzmununa görə çox aydındır: o təhsili, tərbiyəni, mövzunu, estetik və sosial aspektləri əhatə edir. Yerinə yetiriləcək işin təhsil və tərbiyə məqsədləri ibtidai sinif şagirdlərinin şəxsiyyətini formalaşdırmağa yönəldilmişdir. Fəaliyyət estetik tələblərə cavab verməli, sosial əməyin obyekti ilə əlaqəli olmalı və onun yüksək nəticələrini əldə etməyə istiqamətlənməlidir.

Bir daha yada salmaq lazımdır ki, ibtidai sinif şagirdlərinin işi təhsil və tərbiyə xarakteri daşıyır. Buna görə də müəllim mütləq növbəti iş tapşırığını yerinə yetirərək uşaqların hansı yeni bilik və bacarıqlara, hansı keyfiyyətlərə yiyələnməli olduğu üzərində daima düşünməlidir. Odur ki, bu sadalananlar texnologiya üzrə məşgələlərin təməlini təşkil edən yaradıcı əməyin təhsil və tərbiyə məqsədlərinin məzmununu müəyyənləşdirir. Bir çox hallarda müəllimlər onları şagidlərə göstərir, bəzən də bilərəkdən nümayiş etdirmir. Şagirdlərdən hansının düzgün işlədiyini, kimin işlədiyinin yalnış olduğunu yalnız hədəfin qoyulduğu konkret pedaqoji vəziyyət nəzərə alınmaqla qiymətləndirmək olar. Müəllimlərin bir çoxu təhsil və tərbiyə məqsədlərini şagirdlərə açıqlamamağa üstünlük verir, ancaq onların fəaliyyətini obyektiv, sosial və estetik hədəflərə müvəffəqiyyətlə çatmağa yönəldərək həmin problemləri həll edir.

Texnologiya dərslərində texnoloji fəaliyyət prosesində şagirdlərin estetik hisslərini, zövqünü inkişaf etdirməyin mühüm bir məsələsi şagirdlərin sərf etdikləri əməyin ictimai dəyərinin, sosial mahiyyətinin müəllim tərəfindən onlara geniş izah olunması ilə əlaqədardır. Şagirdlərdə əməyə şüurlu və həssas münasibət formalaşdırmaq üçün hələ ibtidai siniflərin texnologiya dərslərində ilk məşğələlərdən başlayaraq onlarla müəyyən söhbətlər aparmaq, əmək haqqında onlara müvafiq məlumat vermək zəruridir. Şagirdlərə izah etmək lazımdır ki, bizim ölkəmizdə yalnız əmək fəaliyyəti nəticəsində həyatı yüngülləşdirmək, məişəti zənginləşdirmək və mənəvi gözəlliyə malik olmaq mümkündür. Əməyi həyatının əsas mənası hesab edən insanlar xoşbəxtliyin zirvələrinə doğru inamla addımlayırlar. Əmək prosesinə məhəbbətlə bağlanmaq, elmin, sənayenin, xalq təsərrüfatının müxtəlif sahələrində vicdanla çalışmaq, tapşırılan işin öhdəsindən layiqincə gəlmək, öz işini mükəmməl bilmək mahiyyət etibarilə yüksək intellektual mədəniyyətə malik şəxsiyyətin formalaşmasına gətirib çıxarır. Bir sözlə, şüurlu və azad əmək fəaliyyəti sağlam mənəviyyatlı səxsiyyətin yetişməsinin əsasını təskil edir.

Böyüməkdə olan nəslin zəruri əmək vərdişlərinə yiyələnməsi, müstəqil əmək fəaliyyətinə hazırlanması bir də ona görə vacibdir ki, hər kəs bir vətəndaş kimi özünün vətəndaşlıq borcu ilə ölkəmizdə gedən geniş miqyaslı quruculuq işlərində can-başla çalışa bilsin. Yəni, gözəllik qanunları üzrə yaşayıb-yaratsın.

Təməlini əmək təşkil edən hər bir texnologiya məşğələsində, yeri gəldikcə müəllim əməyin gözəlliyi, məna dəyəri, iqtisadi cəhəti haqqında elmi əsaslarla, real həyat hadisələri və faktlarla söhbətlər və müsahibələr aparmalıdır ki, bu da şagirdlərdə əməyin gözəlliyini duymaq hissini daha da qücləndirir. Elmi-pedaqoji ədəbiyyatlarla yaxından tanışlıq onu deməyə əsas verir ki, əməyə, əmək fəaliyyətinə həsr olunan atalar sözləri və müdrik kəlamlarla da şagirdləri əmək prosesinə həvəsləndirmək, onların mənəvi-estetik zövqünü inkişaf etdirmək olar.

“İş ustasından qorxar” (rus), “İş insanın cövhəridir” (Azərbaycan), “Sənətsiz kişi – qanadsız quş” (başqırd), “Tənbəllik kasıblığın açarıdır” (gürcü), “Zəhmətdən qorxma, minnətdən qorx” (özbək), “İşləyəni dövlət basar, işləməyəni yuxu” (tatar) və sairə kimi qardaş xalqların atalar sözləri texnologiya məşğələlərinin aparıldığı yerlərin əyani tərtibatında istifadə edilə bilər.

Texnologiya fənni üzrə məşğələlərdə şagirdlərin fəaliyyəti kiçik əşya və məmulatların hazırlanması ilə əlaqədardır. Uşaqların diqqətini onların hazırlayacaqları məmulata cəlb etmək, onun necə hazırlandığını nümayiş etdirmək, məqsəd olaraq əməyin obyektiv hədəfini formalaşdırmaqdır. Şagirdlərin əməyinin məqsədini təyin edərkən, onu əmək obyektinin adının səsləndirilməsi ilə kifayətlənmək olmaz, əksinə, müəllim onlara sərf edəcəkləri əməyin məqsədini konkret və dəqiq təmsil etməyə kömək edən bir məmulat nümunəsi nümayiş etdirməlidir.

Şagirdlərin estetik tərbiyəsinin inkişaf etdirilməsinin bir məqsəd kimi qarşıya qoyulmasında pedaqoji vəzifə, onlarda hazırlayacaqları məmulata estetik münasibət yaratmaq, onun gözəl və baxımlı olmasını diqqət mərkəzində saxlamaq arzusunu oyatmaqdır. Bu məqsədə çatmaq üçün həmin məmulatın nümunəsinin müəllim tərəfindən şagirdlərə nümayiş etdirilməsi yaxşı nəticə verə bilər. Məlum oldugu kimi, estetik qavrayış konkret və həssasdır. Gözəllik sahəsində abstrakt heç bir şey yoxdur və ola da bilməz. Odur ki, birbaşa görə bilmədiyimiz və eşitmədiyimiz şeyi estetik cəhətdən qiymətləndirə bilmərik.

Hər hansı bir insan tərəfindən ustalıqla hazırlanmış gözəl bir əşya və ya məmulat şagirdlərin hisslərini stimullaşdırır. Hər hansı estetik bir məqsədi təyin edərkən, çox zaman şagirdlərin qarşısında əmək fəaliyyətlərinin nəticələrini qiymətləndirmək üçün parlaq perspektivlər açmaq faydalıdır. Şagirdlərə niyə

gözəl şeylər düzəltməli olduqlarını izah etmək çox vacibdir. İxtiyari bir məmulatı gözəl düzəltmək, özünüzə və ətrafdakılara sevinc, yaxşı əhval-ruhiyyə, ləzzət gətirmək, ətraf mühiti baxımlı şeylərlə əhatə etmək deməkdir. Mövcud olan aşagıdakı deyimlər ibtidai sinif şagirdlərinin estetik tərbiyəsinin nə dərəcədə vacib oldugunu sübut edir:

- Gözəl düzəltmək – gözəl yaşamaqdır. Özünə və insanlara daha çox sevinc bəxş etmək üçün hər şeyi gözəl düzəlt.
- İnsanın gözəllik qanunlarına görə yaratdığını deyirlər. Bu o deməkdir ki, insan nə düzəldirsə düzəltsin, yaratdıgının gözəl olmasına çalışmalıdır. Həqiqi bir insan olmaq istəyirsənsə, gördüyün işə gözəllik gətirməyə çalış.
- Ən kiçik işdə belə, işinizə sevgi və yaradıcılıqla yanaşsanız, böyük bir sənətkar ola bilərsiniz.
- İşçini səciyyələndirən ən yaxşı xüsusiyyət – onun öz əlləri ilə hazırladığı məmulatdır. İnsanda gözəl olan hər şey, ilk növbədə, işdə üzə çıxır. Mənə necə etdiyini göstər – sənin kim olduğunu söyləyim.
- Unutma, əşyaların gözəlliyini anlamağı və qiymətləndirməyi nə vaxt öyrənəcəksənsə, onda özündə yüksək bir zövq inkişaf etdirmiş olacaqsan. Çünki zövq əmək fəaliyyətində, gözəl məmulatlar yaratmaq işində ən yaxşı şəkildə inkişaf edir. Gözəl düzəltsən, zövqünü inkişaf etdirəcəksən.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, ibtidai siniflərin texnologiya dərslərində şagirdlərin texnoloyi fəaliyyətinin bir məqsəd kimi qarşıya qoyulması onların estetik tərbiyəsində bir təsir amili kimi istifadə edilə bilər və istifadə olunmalıdır. Bu zaman müəllim tərəfindən dərsin məqsədinin hərtərəfli açıqlanması şagirdlərə görünən və maraqlı olur.

Görüləcək işin məqsədinin, yəni şagirqlərin dərs prosesindəki fəaliyyət məqsədinin qabaqcadan məlum olması, onların işinin təbiətində iz buraxır. Şagirdlərin dərs prosesindəki işinin məqsədi nə qədər aydın və cəlbedici olarsa, onların fəaliyyəti bir o qədər mənalı və təsirli olar.

Texnologiya dərslərində şagirdlərin estetik tərbiyəsi, əsasən əmək obyektinin maraqlı olması seçimi ilə əlaqəlidir. Bu, şagirdləri bir əmək tapşırığını yerinə yetirməyə hazırlamağın ilk mərhələsidir, onlara estetik təsir göstərməyin birinci pilləsidir. Əlbəttə ki, onun nə dərəcədə təsirli olması müəllimin pedaqoji

cəhətdən onu necə düzgün təşkil etməsindən, hazırlanacaq məmulatın seçilməsinə şagirdləri nə qədər fəal cəlb edəcəyindən, hazırlanacaq əmək oyektinə hansı tələblərin qoyulacağından asılı olacaqdır.

İş obyektinin seçimində şagirdlərin özlərinin fəal iştirak etmələrinə çalışmaları çox vacibdir. Bu, şagirdlərin hazırlayacaqları əşya və məmulatlara maraqlarını artırmaqla yanaşı, həm də onların obyektiv dünyanın gözəlliyi ilə ünsiyyətdə olmalarına səbəb olur, onlarda obyektiv gerçəkliyə, labüd olan həqiqətə və xüsusən də hazırlayacaqları məmulata estetik münasibət oyadır. Hazırlayacaqları məmulat seçimində şagirdlərin iştirakı fərqli ola bilər. Belə ki, müəllim dərsdə hazırlamaq istədikləri əşya və məmulatlar barədə söhbətlər apara bilər, həmçinin şagirdlərin "texnologiya dərslərində nə etmək istərdiniz?" sualına yazılı cavablarının kollektiv təhlilini keçirə bilər.

İbtidai sinif şagirdlərini təkcə əmək obyekti seçiminə cəlb etmək kifayət deyil. Əmək prosesinin bütün sonrakı mərhələlərində estetik təsir mənbəyi rolunu oynaya biləcək elə bir obyektin seçilməsinə kömək etmək lazımdır ki, o şagirdlərdə yaradıcılıq qabiliyyətlərini sınamaq və zövqlərini inkişaf etdirmək istəyi yarada bilmiş olsun. Qeyd etmək lazımdır ki, texnologiya dərslərində əmək obyektləri müəyyən tələblərə cavab verdikləri halda, kiçik yaşlı məktəblilərin estetik tərbiyəsinə köməklik göstərir. Bu tələbləri nəzərdən keçirməyə çalışaq.

İbtidai siniflərdə şagirdlərin əmək obyektləri onlara estetik təsir göstərməkdə müxtəlif imkanlara malikdir. Məsələn, I sinif dərsliyində təqdim olunan "Mehriban bayquşlar" mövzusunda [1, səh.33] aplikasiya işini həmin dərslikdəki "Çərçivədə çiçəklər" mövzusunda [1, səh.40] verilən mozaika işi ilə müqayisə edək. Hər iki məmulatın hazırlanmasında müxtəlif rəngli kagızlardan istifadə edilməsinə baxmayaraq, ikinci mövzuda təqdim olunan əmək obyekti birinci mövzuda verilən əmək obyektinə nisbətən şagirddə tərbiyə ediləcək estetik təsir gücünə görə fərqlənir. Belə ki, ikinci mövzudakı məmulat birincidən fərqli olaraq daha mürəkkəb və rəngarəng yaradıcılıq işinin nəticəsi olduğu üçün, şagirdlərə daha çox təsir edə biləcək estetik təsir gücünə malikdir.

Bu güc rənglərin müxtəlifliyini hiss etməkdə və onları ayıraraq qruplaşdırmaqda özünü göstərir (rənglərin müxtəlifliyinin təhlili və qiymətləndirilməsi);

şagirdlərdə rəngləri hiss etməyi inkişaf etdirir (hər bir detalın rəngi və bütövlükdə ansamblın rənginə uyğunlaşma, məmulatın tam rəngi ilə məqsəd arasında əlaqə); rəng və bəzək nisbətini idarə etmək hissini formalaşdırır.

Sözsüz ki, birinci mövzudakı məmulatın hazırlanmasının da şagirdlərin estetik tərbiyəsinin formalaşmasına təsiri var, amma əlbəttə ki, bu təsir ikinci mövzudakına nisbətən bir qədər azdır. Bu isə məmulatın hazırlanacağı detalların rəng çalarlarının azlığı və həmin detalların ülgü formasında dərsliyə əlavədə hazır şəkildə təqdim olunması ilə izah oluna bilər.

Birinci sinfə aid dərslikdə bu məzmunda fikir söyləyə biləcəyimiz bir sıra başqa mövzular da vardır, məsələn: “Plastilinlə yapma” tədris vahidində “Göyqurşağı və günəş” [1, səh. 20], “Balıq və yosunlar” [1, səh. 28], “Aplikasiya” tədris vahidində “Toyuq, xoruz, cücələr” [1, səh. 30], “Mozaika” tədris vahidində “Çərçivədə çiçəklər” [1, səh.40], “Kağızla iş” tədris vahidində “Şən ipəkqurdu” [1, səh. 50] və “Parabüzən” [1, səh. 52], “İplərlə iş” tədris vahidində “Quş” [1, səh. 59] adlı mövzular şagirdlərin estetik tərbiyəsində böyük rol oynayır.

İbtidai məktəbin digər sinif dərsliklərində verilmiş mövzularla tanışlıq şagirdlərdə estetik tərbiyənin formalaşdırılması ilə bağlı xeyli imkanların olduğunu göstərir. Siniflər üzrə həmin mövzular aşağıdakı kimi qruplaşdırılmışdır:

İkinci sinif üzrə dərslikdə “Plastilindən yapma işləri” tədris vahidində “Plastilindən yapma bəzəklər” [1, səh. 14], “Aplikasiya” tədris vahidində “Karton üzərində parçadan aplikasiya”, [1, səh. 20], “Mozaika” tədris vahidində “Cırılmış kağız qırıntılarından mozaika”, [1, səh. 30], “Kağız büzmədən həcmli mozaika” [1, səh. 33], “Kağızqatlama, hörmə, tikmə və naxıştikmə” tədris vahidində “Kağız zolaqlardan düzünə hörmə” [1, səh. 46], “Modelləşdirmə” tədris vahidində “Bədii obrazların modelləşdirilməsi. Canavar fiquru” [1, səh. 60].

Üçüncü sinif üzrə dərslikdə “Plastilindən yapma işləri” tədris vahidində “Yayma üsulu ilə alınmış naxışlı plastilin. Gəlincik” [2, səh. 28], “Kəsmə üsulu ilə alınmış naxışlı plastilin. Toyuq oyuncagı”, “Qarışdırma üsulu ilə alınmış naxışlı plastilin. Təbiətdən öyrənirik” [2, səh. 33], “Mozaika” tədris vahidində “Muncuqdan və plastilin kürəciklərdən mozaika. Tovuzquşu” [2, səh. 51], “Kagız modullardan bədii konsruksiyalar. Kağız fırfıra” [2, səh. 53], “Naxışsalma və tikmə” tədris vahidində “Toxuculuq materiallarından məmulatlar. Şən aslan oyuncağı” [2, səh. 60].

Dördüncü sinif üzrə dərslikdə "Yapma" tədris vahidində "Plastilin lentdən hazırlanmış kompozisiya" [3, səh. 51], "Tikmə və naxışsalma" tədris vahidində "Çarpaz tikmə" [3, səh. 53], "Müxtəlif materiallardan quraşdırma" tədris vahidində "Papye-maşedən hazırlanmış məmulatlar" [3, səh. 62], "Yarıqlı kilidi olan həcmli məmulatlar" [3, səh. 65].

Əmək obyektləri xarici görünüşlərindən asılı olaraq şagirdlərə təsir edə biləcək müxtəlif estetik təsir imkanlarına malikdir. Bu imkanlar müxtəlifdir və şagirdlərin istifadə etdikləri əmək prosesinin xarakterindən asılı olaraq dəyişir.

Texnologiya dərslərində şagirdlərin düzəldəcəkləri məmulat seçimi edərkən müəllim, ilk növbədə, bu fikri daima diqqət mərkəzində saxlamalıdır: məmulat şagirdlərin estetik tərbiyəsinə əhəmiyyətli dərəcədə təsir etmək imkanlarına malik olmalıdır.

İkincisi, məmulat hazırlanma texnologiyasına görə, şagirdlərin inkişaf səviyyəsinə uyğun olmalıdır ki, hazırlanması çox asan və ya çox çətin olmasın. Əgər iş tapşırığı çox asan olarsa, bu, şagirdin intellektual və fiziki gücünün lazımi dərəcədə gərginliyinə səbəb olmaz, bu da onu iş prosesində effektiv inkişaf fürsətindən, yaradıcılıq sevincindən və imkanlarından məhrum edə bilər. Əksinə, iş tapşırıgı həddindən artıq çətin olduğu təqdirdə, şagird özünə, işin uğuruna inamını itirəcəkdir. Bu, onun estetik tərbiyəsində qəbuledilməz olan marağını və yaradıcı əhval-ruhiyyəsini söndürəcəkdir.

Üçüncüsü, şagirdlərin düzəldəcəyi məmulatlar, yəni, əmək obyektləri müxtəlif olmalıdır - bu növbəti tələbdir. İbtidai sinif şagirdləri "eyni şeyi" etməyi sevmirlər. Yalnız müxtəlif və məzmunlu məmulatlar onların işə olan marağını qoruya bilər. İşə əhəmiyyətli dərəcədə diqqət yetirilən siniflərdə, şagirdlər, bir qayda olaraq, nə edəcəkləri ilə çox maraqlanırlar, həvəslə yeni bir məmulatla tanış olurlar. Əksinə, bir müddət əvvəl gördükləri işi təkrarlamaq məcburiyyətində qalsalar, passiv və istəksiz olaraq işə qoşulurlar.

Texnologiya fənninin tədrisi prosesində şagirdlərin estetik tərbiyəsini inkişaf etdirməkdə mühüm bir məsələ, onların bilavasitə bədii-texniki təfəkkürü və fəaliyyəti ilə bağlıdır. Texnologiya fənni üzrə müasir proqramların (kurikulumların) məzmunundan, əsas istiqamətlərindən asılı olaraq bütün məşğələlərdə, o cümlədə "məişət xidməti" məzmun xətti üzrə məşgələlərdə bu və ya

digər formada şagirdlərin bədii-texniki, elmi və s. yaradıcı qabiliyyətlərini inkişaf etdirmək mümkündür. Texnologiya fənn kurikulumunda nəzərdə tutulmuş məzmun xətlərini əhatə etməklə aparılan məşğələlərdə şagirdlərdə ölçmə, nişanlama, quraşdırma, dekorativ tətbiqi sənətin müxtəlif növləri əsasında kompozisiya qurma, quraşdırma və s. bacarıqların inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir. Əlbəttə, bu istiqamətdə texnologiya müəllimlərinin qabaqcıl iş təcrübələri də texnologiya üzrə məşğələlərdə şagirdlərin bədii-texniki və digər yaradıcı fəaliyyətinin estetik mahiyyətini daha aydın nəzərə çarpdıra bilər. Burada mütəxəssis, metodist sözünə, təcrübədən gələn sözə zəruri ehtiyac duyulur.

Texnologiya fənninin təliminin mühüm sahəsini təşkil edən müxtəlif materialların emalı nəticəsində əldə olunan kiçik məmulatların hazırlanması üzrə məşğələlərdə həmin materialların mənşəyi, xüsusiyyətləri, onlardan qənaətlə, gözəl, daha əlverişli şəkildə istifadə olunması, habelə ayrı-ayrı məmulatların detalları və onların birləşdirilməsi üzrə aparılan təlimlərdə şagirdlərin bədii-texniki yaradıcılıq qabiliyyətləri inkişaf edir, estetik zövqü tədricən formalaşır.

Pambıq, kətan (bitki mənşəli), ipək, yun (heyvan mənşəli), habelə kimyəvi (süni, sintetik) parçalar əsasında aparılan naxışsalma, bədii-tikiş məşğələləri prosesində şagirdlərin bədii qabiliyyətləri daha parlaq şəkildə nəzərə çarpır. Xüsusilə bu istiqamətdə şagirdlərin hazırladıqları albom və kolleksiyalar onların estetik zövq səviyyələrini üzə çıxarmaqda mühüm rol oynayır. Həmçinin, qida məhsullarının emalı texnologiyası üzrə aparılan məşğələlərdə şagirdlər hazırladıqları məhsulun bədii tərtibatı üzərində də düşünürlər ki, bu da onların bədii-estetik təfəkkürünün inkişafı üçün çox əhəmiyyətlidir. Əlbəttə, bu prosesdə şagirdlər məhsulun forma-model gözəlliyi ilə keyfiyyət – dəyər gözəlliyi üzrə də müəyyən anlayışlara, təsəvvürlərə yiyələnirlər. Onlar çox aydın şəkildə dərk edirlər ki, modeli - forması gözəl olan paltar, mebel, maşın nümunələri hələ gözəl məhsul sayıla bilməz. Yalnız istifadə əlverişliliyinə, keyfiyyətinə, davamlılığına görə diqqəti cəlb edən və müasir modelə, formaya, xarici görünüşə əsaslanan məmulat, sözün həqiqi mənasında yüksək qiymətləndirilər və həyatımızı, məişətimizi daha da zinətləndirər.

Emal texnologiyaları, məişət mədəniyyəti və texnika elementlərinin mənimsənilməsi üzrə aparılan məşğələlərdə şagirdlər dizaynerlərin, modelçi rəssamların, konstruktorların və mühəndislərin işi ilə yaxından tanış olur, onların mənalı əməyi haqqında müəyyən məlumat alır və gələcək fəaliyyətə istiqamətlənirlər. Belə bir mövqe müəllimlərin fəaliyyətində mühüm əhəmiyyət kəsb etməlidir. Belə ki qarşıda xalq təsərrüfatının bütün sahələrini, elm və texnikanıı inkişaf etdirmək, istehsalatı avtomatlaşdırmaq, əmək məhsuldarlığının əsaslı surətdə yüksəldilməsini və ən yaxşı dünya nümunələri səviyyəsində məhsulların buraxılışını təmin etmək kimi vəzifələr durur. Bütün bunlar müstəqil həyata qədəm qoyan gəncdən – gələcək fəhlədən, texnikdən, mühəndisdən ən müasir təhsil, yüksək intellektual və fiziki inkişaf, istehsalın elmi-texniki və iqtisadi əsaslarına dərindən bələdolma, əməyə şüurlu və yaradıcı münasibət tələb edir.

Dördüncüsü, sinifdə hazırlanan bütün məmulatlar praktikada – məktəbdə və ya evdə istifadə olunmalıdır. İbtidai sinif müəllimlərinin işində texnologiya dərslərində faydasız işlərin görülməsi halları vardır. Buna qətiyyən yol vermək olmaz. Texnologiya dərslərində ibtidai sinif şagirdlərinə estetik təsirlər sistemini tətbiq edərək, texnoloji fəaliyyət prosesində məmulat nümunəsinin estetik cəhətdən təhlil edilərək hazırlanması şagirdlərin estetik tərbiyəsinin inkişafına təkan vermiş olar. Estetik təhlilin vəzifəsi şifahi olaraq hazırlanacaq məmulata geniş və hərtərəfli estetik qiymət verməkdir. Bu mərhələnin əhəmiyyətli olması heç bir şübhə doğurmur. Belə ki, bu mərhələdə aşağıdakılar həyata keçirilir:

– şagird mövzu ilə bağlı estetik mühakiməsini aydın şəkildə ifadə etməyi öyrənir; təhlil zamanı ifadələrini formalaşdırarkən məmulatın xüsusiyyətlərini, ona olan estetik münasibətinin mahiyyətini daha dərindən anlamağa çalışır;

– şagird, öz qiymətləndirməsini başqalarının qiymətləndirməsi ilə, xüsusən də müəllimin qiymətləndirməsi ilə daima müqayisə edərək, fənnin gözəlliyi barədə fikirlərini zənginləşdirir;

– şagird öz mühakiməsini sistematik şəkildə ifadə edərək, estetik zövqünü aktiv şəkildə bildirir.

Estetik təhlil zamanı şagirdlərin diqqətini bizim məmulat və ya əşyada gözəl hesab etdiyimiz xüsusiyyətlərə yönəltmək lazımdır. Bu xüsusiyyətlər hansılardir? Bu xüsusiyyətlər məmulatı hazırlayan şagirdin yaradıcılıq qabiliyyətlərini məmulatda əks etdirən xüsusiyyətlərdir.

Bir mövzunun estetik təhlili ibtidai sinif şagirdləri üçün sadə və əlçatan olduğu təqdirdə uğurla həyata keçirilə bilər. Buna görə də, müəllim işin əvvəlində, hazırlanacaq məmulatın tərkib hissələrini araşdırmadan şagirdlərin diqqətini onun formasına, materialına, bəzək gözəlliyinə cəlb etməlidir. Şagirdləri bəzi terminlərlə tanış edərkən mütləq onların həmin terminlərlə işləmələrini tələb etmək lazım deyil, əksinə, onların məmulatları estetik qiymətləndirərkən bu terminlərlə göstərilən hadisələri unutmamalarını təmin etmək lazımdır.

Hazırlanacaq məmulatın estetik təhlili şagirdlərin həmin təhlildə fəal iştiraketmə formaları baxımından fərqli ola bilər. Öyrədici estetik təhlilin ən effektiv və təsirli üsulu, şagirdlərin maksimum fəal olmasına əsaslanan söhbət forması hesab edilməlidir. Söhbətlər müxtəlif yollarla qurula bilər: ya şagirdlərə bir sıra istiqamətləndirici suallar vermək və onlardan məmulatın gözəlliyini düzgün başa düşmələrini əks etdirən cavablar almaq, və ya da, şagirdlərə ancaq "Məmulatın gözəlliyi özünü nədə biruzə verir?" sualını verməklə, onların düşüncələrini düzəltmək, korrektə etmək, tamamlamaq, inkişaf etdirmək və bununla da mövzunun zəruri təhlilinə nail olmaq olar.

Bir qayda olaraq məmulatın gözəlliyini bir çox cəhətdən aydınlaşdıran müxtəlif müstəqil və kollektiv təhlil formaları böyük diqqətə layiqdir. Texnologiya dərslərində hazırlanacaq məmulatın estetik cəhətdən təhlil olunması ibtidai sinif şagirdləri üçün olduqca əlçatandır və onların estetik tərbiyəsində əsas rolu oynayır. Məmulatın estetik təhlili sayəsində şagirdlər, ilk növbədə, onlara verilən tapşırıqları dərk edir, canlı və detallı təqdimatla növbəti məmulatı hazırlamağa başlayırlar. Bu, onlara yalnız gözəl bir məmulat və ya əşya yaratmağın yollarını izah etməyə deyil, həm də son məhsul yaratmağın bütün mərhələlərində özlərinə qarşı daha çox tələb irəli sürməyə kömək edir.

İbtidai sinif şagirdləri hər bir sinifdə qab-qacaqların, ətraf aləmin ayrı-ayrı obyektlərinin gözəlliyinə sistematik şəkildə nəzər yetirərək özlərində gözəlliyə, estetik zövqlərə maraq inkişaf etdirir, estetik tərbiyənin onlarda formalaşması

cəhətdən inkişaf edirlər. Kiçikyaşlı şagirdlərin estetik tərbiyəsində yaxşı nəticələr əldə etmək üçün, müəllim fəaliyyətinin nəzərdən keçirilmiş bütün sahələrini əsas götürərək, texnologiya dərslərini məktəblərdə düzgün təşkil etmək lazımdır.

Texnologiya dərslərində estetik tərbiyənin imkanları çox geniş və müxtəlif cəhətlidir. Praktik işlərin həyata keçirilməsi prosesində şagirdlərin əmək bacarıqlarını və işə estetik münasibətlərini ardıcıl olaraq inkişaf etdirmək bu fənni tədris edən müəllimlər qarşısında bir vəzifə kimi durur. Şagirdlərə yaratmaq üçün geniş imkanlar və fürsət verilməlidir ki, onlar emal texnologiyaları və bəzəmə materiallarından istitifadə edərək müəyyən bir zövq tələb edən məmulatlar hazırlasınlar.

Bir neçə mövzu üzrə şagirdlərin estetik tərbiyəsinin formalaşdırılması imkanlarını nəzərdən keçirək. Birinci sinifdə “Plastilinlə yapma” tədris vahidi üzrə “Balıq və yosunlar” [7, səh.28] mövzusunu tədris etdikdə balığın müxtəlif rəngdə olan detalları çəkiləcək balıq təsviri boyunca son dərəcə dəqiq yerinə yetirilməli və təsvirdən kənara çıxmalar olmamalıdır. Məmulatı bəzəyərkən şagirdlər gözəl rəng ardıcıllığına və balığın üzərində olan zolaqların dəqiq icrasına nail olmalıdırlar. Son dərəcə diqqət və gərginlik tələb edən bu əmək fəaliyyəti çətinliklərin müvəffəqiyyətlə aradan qaldırılması nəticəsində şagirdlərdə sevinc hisslərini oyadır və yaradıcılıq fəaliyyətlərində estetik cəhətdən baxımlı bir məmulatın əldə olunması ilə nəticələnir.

Həmin fikri birinci sinifdə “Göyqurşağı və günəş” [1, səh. 20] mövzusuna da şamil etmək olar.

İkinci sinifdə “Modelləşdirmə” tədris vahidi üzrə “Minik avtomobilinin maketi” [1, səh. 63] mövzusunu tədris etdikdə şagirdlər müəllim tərəfindən verilən suallar əsasında hazırlayacaqları avtomobil maketini ətraflı təhlil etməlidirlər. Belə ki, maketin hansı materialdan hazırlanacağını müəyyənləşdirməli, maketin hansı cəhətlərinin onların xoşuna gəldiyini aydınlaşdırmalıdırlar. Maketin hazırlanmasını planlaşdırarkən yerinə yetiriləcək əmək əməliyyatlarının məzmununu və ardıcıllığını müəyyənləşdirməklə yanaşı, onun hazırlanması ardıcıllığında gözəl və baxımlı alınması üçün nələrə diqqətlərini yönəldəcəklərini özləri üçün təyin etməlidirlər. Maketin ülgüsünü təhlil edərkən şagirdlər dizayn və texnoloji konsepsiyanın həyata keçirilməsində ilk addımları dərk

etməyə və atmağa fəal şəkildə çalışacaqlarını ifadə etməlidirlər. Avtomobil maketinin gözəl və baxımlı olması üçün kartonun rənginin nə üçün məhz seçdikləri rəngdə olmasını aydınlaşdırmalıdırlar. Beləliklə, müəllim bu mövzunun tədrisində hazırlanacaq məmulat seçimini edərkən, ilk növbədə şagirdlər qarşısında bir tələb qoymalıdır: hazırlanacaq məmulatlar şagirdlərə estetik təsir göstərmək üçün əhəmiyyətli imkanlara malik olmalıdır.

1. Elmi-pedaqoji ədəbiyyatın təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, texnologiya dərslərində ibtidai sinif şagirdlərinin estetik tərbiyəsinin aşağıdakı əsas istiqamətləri mövcuddur:

- əlverişli iş şəraitinin yaradılması;
- əmək fəaliyyətinin məqsədinin təyin edilməsi;
- hazırlanacaq məmulatın seçimi;
- məmulatın estetik cəhətdən təhlili.

2. Əlverişli iş şəraitinin yaradılması, şagirdə estetik təsirlərin ən zəngin mənbəyidir – fəal bir tərbiyəçidir. Sinif otaqlarını yaxşı təchiz edərək texnologiya dərslərinin yüksək metodiki səviyyədə keçirilməsini təmin etmək, həmçinin, şagirdlərin estetik tərbiyəsini uğurla həyata keçirmək mümkündür.

3. Əmək fəaliyyətinin məqsədinin müəyyənləşdirilməsi kiçikyaşlı şagirdlərə estetik təsir amili kimi istifadə olunmalıdır. Hərtərəfli açıqlanan bir məqsəd şagirdlər üçün görünəndir və maraqlıdır. İşin məqsəd qoyuluşunun təbiəti uşaqların fəaliyyətində də öz əksini tapır. Hazırlanacaq məmulat nə qədər parlaq, nə qədər cəlbedici olsa, şagirdlərin fəaliyyəti bir o qədər mənalı və estetik cəhətdən təsirli olur.

4. Texnologiya dərslərində estetik tərbiyə, əsasən məmulatın seçimi ilə əlaqələndirilir. Bu, uşaqları bir əmək tapşırığını yerinə yetirməyə hazırlamağın ilk mərhələsidir, onlara estetik təsir göstərməyin ilk pilləsidir. Əlbət ki, onun faydalılığı müəllimin pedaqoji cəhətdən onu necə düzgün təşkil etməsindən, şagirdləri hazırlayacaqları məmulat seçimində iştirak etməyə nə qədər fəal cəlb edəcəyindən, hazırlanacaq məmulata hansı tələblərin qoyulacağından asılıdır.

5. Texnologiya dərslərində kiçikyaşlı şagirdlərə estetik təsirlər sistemini tətbiq edərək, əmək prosesində nümunə göstərilən məmulatın estetik cəhətdən təhlilini də qeyd etmək lazımdır. Yəni, məmulatda hansı cəhətin şagirdin estetik münasibət predmeti hesab oluna biləcəyi müəyyənləşdirilməlidir.

6. Praktikada müəllimlərin şagirdlərin estetik inkişafına az vaxt sərf etmələri, onlarda praktik bacarıqların inkişafına daha çox vaxt və səy sərf etməsi ilə qarşılaşırıq. Bu hal qəbuledilməzdir, çünki həqiqi mənəvi və bədii dəyərlərə diqqət yönəltmədən şagirdlərin estetik tərbiyəsi və bu yöndə fərdi inkişafı natamam olacaqdır. Fikrimizcə, müəllim ibtidai siniflərdən başlayaraq uşaqların estetik tərbiyəsini həyata keçirməklə gələcəkdə özündə həqiqi estetik keyfiyyətləri, mənəvi saflığı və yüksək intellektual potensialı birləşdirəcək bir şəxsiyyətin formalaşmasını təmin edə bilər.

**İstifadə edilmiş ədəbiyyat**

1. Axundov, N.L., Əhmədov, H.H., Nuruqızı, S. Ümumtəhsil məktəblərinin I sinfi üçün dərslik. Bakı "Aspoliqraf LTD" MMC-2020, -64 s.

2. Axundov, N.L., Əhmədov, H.H., Yahyayeva, S.İ. Ümumtəhsil məktəblərinin II sinfi üçün dərslik. Bakı "Aspoliqraf LTD" MMC-2018-64 s.

3. Axundov, N.L., Əhmədov, H.H., Yahyayeva, S.İ., Səlimova, X.R. Ümumtəhsil məktəblərinin III sinfi üçün dərslik. Bakı "Aspoliqraf LTD" MMC-2018-72 s.

4. Axundov,N.L., Əhmədov,H.H., Səlimova, X.R., Yahyayeva,S.İ. Ümumtəhsil məktəblərinin IV sinfi üçün dərslik. Bakı "Aspoliqraf LTD" MMC-2018-80 s

5. Бабанский Ю.К. Педагогика. //Ю.К под ред. Бабанский [электронный ресурс] – режим доступа. detskiysad.ru._28.10.2012 г.

6. Неменовский Б.М. Мудрость красоты // М.: Искусство, 1999, – 170 с.

7. Печко Л.П., Морозова З.П. Теоретические основы формирования эстетической деятельности школьника, приоритет, проблемы эстетического воспитания школьника // М.: Просвещение, 1993, -142 с.

8. Рукавицын М.М. Общие вопросы эстетического воспитания в школе/ М:, Знание, 2002, -159 с.

9. Qısa estetika lüğəti, Azərbaycan Dövlət nəşriyyatı, Bakı, 1970.

10. Лабковская, Г. С. Эстетическая культура и эстетическое воспитание: кн. для учителя/ Г. С. Лабковская. - М.: Просвещение, 1983. - 304 с.

## V-IX SİNİF ŞAGİRDLƏRİNDƏ MUSİQİ ZÖVQÜNÜN İNKİŞAF ETDİRİLMƏSİ

Musiqi incəsənəti insan hisslərinə təsir etmək, onu düşündürmək, xarici aləmi dərk etmək kimi keyfiyyətlərə malikdir. Musiqi də bədii ədəbiyyat, teatr, rəsm əsərləri kimi sosial tərəqqinin inkişafında böyük rol oynayır. Məktəbəqədər dövrdə uşaqlar ətraf aləm, gözəlliklərlə dolu füsunkar vətənimiz, qayğıkeş, qonaqpərvər xalqımız haqqında müəyyən biliklərə yiyələnməklə yanaşı, bütün bunların musiqimizdə vəsf edilməsi ilə tanış olurlar. Musiqinin insan mənəviyyatına böyük təsirini necə izah etmək olar? Ən əvvəl musiqinin ecazkar qüvvəsi ondadır ki, o, insanın müxtəlif anlardakı hisslərinə təsir etmək bacarığına malikdir. Musiqi insanı bütün həyatı boyu izləyir. Xalqın həyatı, sevinci, qəmi musiqidə əks oluna bilir. Sevincli anlar, xoş xatirələr, təbiətin bəşər çağını vəsf edən nəğmələr - təntənəli və şən xarakterli musiqidə öz əksini tapır. Ordu nəğmələri - dəqiq ritmli, nikbin xarakterli marş, körpəsini yatırarkən ananın oxuduğu nəğmə isə həzin laylay olur.

D.D. Şostakoviç musiqinin insan həyatında böyük və əvəzolunmaz rolunu qeyd edərək yazırdı: “Qəmli və sevincli çağlarında, iş görərkən - musiqi həmişə insanladır. Musiqi tam bütünlüklə insan həyatına elə daxil olmuşdur ki, onu insanlar nəfəs aldıqları hava kimi qəbul edir. Musiqi olmasaydı bu dünya nə qədər darıxdırıcı, nə qədər mənasız olardı”. İnsan hisslərinin - sevinc və kədərinin bölüşdürülməsi baxımından da musiqi əvəzolunmazdır. Qəribə burasındadır ki, musiqi əsəri bir insan tərəfindən yaradılmasına baxmayaraq başqa bir qəlbdə də öz əksini tapa bilir.

Dahi rus bəstəkarı M.İ.Qlinka demişdir: “Təbiəti duymayan, musiqidən zövq almayan adamlar yoxsuldurlar. Çünki onlar gözəl dəqiqələrin heç bir təhsillə duyulması mümkün olmayan ən böyük zövqdən məhrumdurlar.”

Musiqinin digər əsas xüsusiyyəti Azərbaycan bəstəkarı F.Əmirovun dediyi kimi musiqi əsərinin özünəməxsus “musiqi dilidir”. Bəstəkar ətraf mühiti, ona öz münasibətini musiqi dili ilə - əsərin özünəməxsus ritmi, melodiyası, harmoniyası ilə izah etməyə çalışır. Bir musiqi əsəri bütün dinləyənlərə eyni cür təsir edə bilərmi? Əlbəttə yox! Bu da musiqinin əsas cəhətidir. Hər bir dinləyicinin sevdiyi bəstəkar, musiqi janrı, seçdiyi musiqi nömrələri

vardır. Oxumağı, yazmağı, rəsm çəkməyi öyrəndiyimiz kimi musiqini qiymətləndirməyi, onu dinləməyi, mövzular arasındakı kontrastlığı, musiqidə təsvir olunan xeyir və şər qüvvələrin mübarizəsini və nəhayət hansının qalib gələcəyini başa düşməyi, anlamağı da bacarmaq lazımdır. Musiqini qiymətləndirmək, musiqisiz yaşamağın mümkün olmadığını dərk etmək, onun incəliklərinə qədər müdaxilə etməklə həssas, bədii zövqlü şəxsiyyət tərbiyə etmək mümkündür.

Musiqi təlim tərbiyəsi haqqında dəyərli fikirləri olan, XX əsrin əvvəllərində yaşayıb yaratmış musiqişünas alim E.Jak-Dalkroz olmuşdur. Onun musiqi tərbiyəsi metodikasına görə şagirdlərə öyrədilən əsas hərəkətlər, inkişafetdirici təmrinlər, musiqi qabiliyyəti, yaddaş, diqqət, ritmi hissetmə bacarığına istinad olunmaqla həyata keçirilmişdir. Bu metodika fiziologiya, psixologiya və musiqişünaslıq sahəsində əldə olunmuş elmi yeniliklər, fakt və qanunauyğunluqlar nəzərə alınmaqla şagirdlərə təsir etmək, onu ruhən zənginləşdirərək qarşıya qoyulan məqsədə nail olmaq üçün müntəzəm, ardıcıl, sistematik təlimdir.

Musiqinin insan orqanizminə müsbət təsiri alimlər tərəfindən sübuta yetirilmişdir. Bu haqda İ.M.Seçenov "Baş beynin refleksləri" adlı əsərində musiqi ilə insan əzələləri arasında sıx əlaqənin olduğunu qeyd etmişdir. Hər hansı bir hiss və ya əhval-ruhiyyə öz-özündən yaranmır. Onların mənbəyinin həyat olduğunu desək, yanılmarıq. Vəziyyətdən asılı olaraq biz kədərlənirik, qüssələnirik və ya sevinirik. Musiqi isə bu hissləri ifadə edir. Deməli, musiqi gerçəkliyi əks etdirir. Musiqi təlim və tərbiyəsi sistemi mütəxəssis pedaqoqlar, psixoloqlar və musiqişünaslar tərəfindəın öyrənilmiş, araşdırılmış, tədqiq edilmişdir. Bu sahə üzrə O.Rəcəbov, Y.Kərimov, C.Quliyev, V.Xəlilov, O.Zülfüqarov, R.Şəfəq tədqiqat işləri aparmışlar.

Estetik tərbiyənin qiymətli vasitələrindən olan musiqi insanda nəcib, səmimi duyğular yaradır. Musiqi dərslərində uşaqlara ülvi hisslər aşılanır, onları mənəvi cəhətdən yüksəldir, şirin xəyallara aparır. Azərbaycanın dahi şairi Nizami Gəncəvi demişdir ki, "..musiqi ictimai tərbiyə xarakteri daşımalı, öz ahəngi ilə insan qəlbinin tellərinə toxunmalı, insanlarda nəcib duyğular oyatmalıdır!" Musiqi mədəniyyət deməkdir. O, insanın dərin hiss və düşüncələrini, vətənə sədaqətlə xidmət etməyin yuksək ideyalarını ifadə edir və

musiqinin sözlə oxunan digər böyük janrlarını (solo, duet, vokalsüita, oratoriya, opera və s.) asanlıqla qavramaq işində məktəblilərə böyük kömək göstərir. Şagirdlərdə musiqiyə coşqun həvəs oyatmaq və onlara dərin estetik zövq aşılamaq musiqi dərsinin maraqlı və müvəffəqiyyətli tədrisindən asılıdır.

## Musiqini sevməyi öyrənmək

Yazıçı R.Rollan qeyd edirdi ki, "musiqi bizim üçün ona görə əzizdir ki, o insan ruhunun ən dərin ifadəsidir, sevinc və kədərinin ahəngdar əkssədasıdır". O, bir insana dünyanı özü üçün kəşf etmək və yeni bir idrak səviyyəsinə çıxmasına imkan verir. Ciddi musiqini sevən və anlayan uşaqlar həmişə öz ailə və dostlarını, ölkəsini, millətini sevir, insanların düşüncələrinə, hisslərinə dəyər verir, hörmət edir, dərdlərinə cavab verir, dürüst və ədalətli olur, vicdanla çalışır və nəcib işlər görürlər [3].

Sagirdlərdə musiqi zövqünün formalaşdırılması üçün ilk növbədə onlara musiqini sevməyi öyrətmək lazımdır. Bəs musiqini anlamağı və sevməyi öyrətmək üçün nə etmək olar?

Musiqini sevmək - onunla ünsiyyət qurmaq üçün tələbat duymaq, onu dinlərkən sevinc, həyəcan, kədər hisslərini yaşamaqdır. Musiqini başa düşmək isə onu şüurlu şəkildə qavramaq, məzmunu haqqında öz-özünə müəyyən dərəcədə hesabat vermək deməkdir. Qeyd etmək lazımdır ki, musiqini sevmək və başa düşmək anlayışları bəzən qarşı-qarşıya qoyulur: "Musiqini sevirəm, baxmayaraq ki, başa düşmürəm."

Sual meydana çıxır: musiqini sevmək üçün mütləq onu anlamaqmı lazımdır? Bilirik ki, musiqi haqqında çox az məlumata malik olan və hətta bu barədə heç bir məlumatı olmayan istənilən dinləyici kateqoriyası (həm böyüklər, həm də uşaqlar) musiqini sevib onu hiss edə bilərlər. Lakin qeyd etmək lazımdır ki, hazırlığı, musiqi biliyi olan dinləyicilərin qavrayışı daha dərin, daha şüurlu və daha parlaqdır.

Ancaq bəzən olur ki, kifayət qədər mürəkkəb əsərlər hazırlıqsız dinləyicilər tərəfindən də dərindən qəbul olunur. Belə hallarda əminliklə demək olar ki, onlar bu və ya digər dərəcədə fitri istedada malik olan insanlardır.

Bu səbəbdən görkəmli alim, professor Teplovun musiqi qabiliyyətləri kateqoriyasına təkcə eşitmə qabiliyyətini deyil, həm də musiqiyə emosional reaksiyanı daxil etməsi səbəbsiz deyildir.

**Musiqi zövqü nədir?**

Zövq-gözəllik haqqında ümumi anlayışdır, gözəlliyi çirkinlikdən ayırd etmək imkanıdır. Musiqi zövqü isə musiqi əsərlərini qəbuletmə və onlara qiymətvermə bacarığıdır. Hər bir insan əgər musiqi zövqü varsa, xoşbəxtdir.

Musiqi zövqü insan həyatını təkrarolunmaz edir. Musiqinin insan üçün nə qədər əhəmiyyətli olması artıq çoxdan sübüt olunub. Musiqi dinləməyi bacarmaq həyatdan zövq almağı bacarmaq deməkdir. Burada ağılagəlməyən çətin bir proses yoxdur və bu iş böyük bir əziyyət tələb etmir. Hərtərəfli şəxsiyyət kimi yetişmək üçün cüzi bir addım atmaq gərəkdir. Bu da özünü inkişaf etdirmək arzusudur.

Musiqi bizi bütün həyatımız boyu müşayiət edir. Musiqini həm musiqiçilər, həm də eyni zamanda musiqi duyumu zəif olanlar da sevirlər. Amma qeyd etmək lazımdır ki, musiqini dinləmək hələ onu eşitmək demək deyil. Musiqini düzgün qiymətləndirmək üçün mütləq insanın musiqi zövqü olmalıdır. Çoxları düşünür ki, onlarda musiqi zövqü var. Ancaq bu belədirmi? Gəlin, musiqi zövqünün nə olduğunu aydınlaşdırmağa çalışaq.

Musiqi zövqü ideal şəkildə lap körpəlikdən tərbiyə olunmalıdır, amma bu baş verməyibsə, üzülməyə dəyməz. Sübut olunub ki, istənilən yaş dövründə musiqi zövqünü inkişaf etdirmək mümkündür, yetər ki bunun üçün səbr və istək kifayət qədər olsun. Əgər kiçik yaşlarında musiqi zövqünün formalaşması prosesi qeyri-şüurlu xarakter daşıyırsa, böyük yaşlarda artıq bu şüurlu prosesdir.

**Musiqi zövqü nədən asılıdır?**

Belə bir deyim var ki, zövqlər və rənglər barədə mübahisə edilmir. Bu fikri hardasa musiqi zövqünə də aid etmək olar. Məsələn, kimsə ömrü boyu yalnız rok və ya caz dinləyir, kimsə klassik musiqini öz həyatının mənası hesab edir, kimsə popdan bluza qədər müxtəlif musiqi janrlarını qəbul edir. Gəlin görək, insanların musiqi zövqləri nədən asılıdır?

Hər kəsdə musiqi zövqü yetərincə olmalıdır deyə bir qanun yoxdur. Biz daim ətrafımızda müxtəlif musiqiləri eşidirik, dinləyirik və qavramasına ehtiyac olmadan beynimizə hopdururuq. Fərqli dövrlər, mədəniyyətlər və sosial təbəqələr üçün fərqli musiqilər mövcuddur - folklor, peşəkar bəstəkar musiqiləri, dini musiqilər və s. Təbii ki, bir insanın musiqi dünyagörüşü dar olarsa, o öz çevrəsi və mədəniyyəti üçün yeni musiqi hadisələrini qiymətəndirə bilməz.

İnsan kütləvi olmayan musiqi janrları, məsələn, folklor, caz, kilsə və ya akademik musiqi ilə nə qədər çox tanış olarsa, musiqi qavrayışının sərhədləri də bir o qədər geniş olar. Bu anlama prosesi zirvəyə yüksəliş kimi qiymətləndirilir. Axı aşağıda duranda ətrafda yalnız yaxınlıqdakıları görmək mümkündür. Zirvədə olarkən isə qarşında böyük və gözəl bir mənzərənin açıldığının şahidi olursan.

**Məktəblilərin musiqi zövqünün inkişafı problemi**

Bir çox alimlər musiqi zövqünün inkişafı problemi üzərində işləmişlər. V. N. Şaçkaya bu problemə xüsusi yanaşanlardan biri idi. O, musiqi zövqünün inkişafı haqqında 1947-ci ildə "Musiqi zövqünün tərbiyəsi" adlı məqaləsində yazırdı: "Kütləvi musiqi tərbiyəsi məktəblilərin dünyagörüşünün formalaşmasına, mənəvi keyfiyyətlərinin, iradəsinin, xarakterinin tərbiyəsinə kömək etməlidir. Uşaqlarda musiqiyə maraq və sevgi aşılamaq, musiqi dünyagörüşünü genişləndirmək və nəhayət, musiqi zövqünü formalaşdırmaq lazımdır "[4].

Məktəblilərin musiqi zövqünün inkişafı problemi bir çox tədqiqatçıların diqqətini çəksə də, bu sahədə çoxsaylı işlərə baxmayaraq, mövzu hələ də aktual olaraq qalır. Problem gənc nəslin musiqi mədəniyyətinin olmamasıdır və buna görə də bu özünü musiqi zövqünün düzgün formalaşmamasında büruzə verir.

İnsanlar indi elə bir dövrdə yaşayırlar ki, musiqini hər yerdə eşitmək mümkündür. Bunu radio, televiziya və bir çox asanlıqla əldə edilə bilən musiqi materialının (audioyazılar, disklər, videoyazılar) meydana çıxması asanlaşdırır.

Uşaqların musiqi zövqünün tərbiyəsi çətin və üzərində az iş aparılmış bir məsələdir. Uşaqları müşahidə etdikdə, bəzilərinin mahnı oxumağını və ya rəqs etməyini, bəzilərinin də musiqi alətlərində çalmağını və ya musiqi

dinləməyini üstün tutduqlarını asanlıqla görmək mümkündür. Bu, uşaqların daim inkişaf etdirilməsinə ehtiyac olan müxtəlif musiqi zövqlərinə malik olduqlarını göstərir.

Uşaq kiçik yaşlarından müxtəlif musiqi təəssüratları əldə edir, xalq, klassik və müasir musiqinin dilinə alışır, müxtəlif üslublu musiqiləri qavrama təcrübəsini toplayır. Uşaqlarda musiqi inkişafının ən uğurlu bir şəkildə davam etdirilməsi üçün onlarla işləyərkən klassik və xalq musiqilərindən istifadə etmək lazımdır.

**Musiqi zövqünün inkişafına nə kömək edir?**

-"Musiqi qavrayışının təkrarlanması, yəni, musiqi əsərlərinin təkrar dinləmələri;

-uşaqlarla işləmək üçün ən yüksək tələblərə cavab verməli olan musiqi repertuarı;

-musiqini qəbul etməyi aktivləşdirən, uşaqların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən, dinləmə mədəniyyətinin, musiqi idrakının səviyyəsini artıran musiqinin təkrar səslənməsində iştirak;

-musiqinin estetik qavrayışı üçün şəraitin yaradılması (xüsusi təchiz olunmuş otaqlarda konsert, akt salonlarında musiqi dərslərinin keçirilməsi);

-musiqi haqqında düşünmə qabiliyyətinin inkişafı, hansı ki, şagirdlərin əsərlərin qavranılması, ifası və təhlili prosesində özünü büruzə verir;

-uşaqların və gənclərin bədii və yaradıcılıq fəaliyyətinə birbaşa cəlb edilməsi, yəni, məktəblilərin müxtəlif musiqi fəaliyyətlərinə - həvəskar kollektivlərə və xalq çalğı alətləri orkestrinə, vokal və instrumental ansambllara, vokal qrupuna və ya xoruna, bədii hərəkət və ritm dərslərinə və s. Buraya məktəblilərin mahnı oxuma fəaliyyətini də daxil etmək lazımdır" [3].

## Musiqi zövqünün uşaq yaşlarında inkişaf etdirilməsinin üsul və vasitələri

Uşaq yaşlarında musiqi emosiyaların vasitəsi ilə qəbul olunur. Lakin uşağı musiqi dünyasına cəlb etdikdə diqqətli olmaq lazımdır, çünki bu çətin psixoloji prosesdir. Əgər düzgün yanaşma olmasa, bu əks nəticə verər. Uşaq nəinki bu prosesi sevməz, hətta ona nifrət belə edə bilər. Musiqi zövqünün formalaşdırılması prosesi düşünülmüş olmalı və uşaqlarda bezmə, usanma kimi hisslər yaratmamalıdır. Bu yolda səhv etməmək üçün bir sıra qaydalara diqqət yetirək:

**Şəxsi nümunə**. Əgər özünüz arada-sırada musiqi dinləyirsinizsə və ya kifayət qədər formalaşmamış musiqi seçimləriniz varsa, onda uşağın bir zövq nümunəsi olacağını düşünməyin. Uşaqlar, bir süngər kimi, ətraflarına yaxın olanları mənimsəyirlər, şüuraltı olaraq valideynlərinə bənzəməyə çalışırlar.

**Uşağı şəxsi seçimindən məhrum etməmək**. Əgər siz hansısa musiqini şəxsən sevirsinizsə, bu övladınızın da xoşuna gələcəyi anlamına gəlmir. O tamamilə fərqli melodiyaları sevə bilən bir şəxsiyyətdir. İstiqamət vermək, amma təsir etməmək. Yatmazdan əvvəl uşağınıza müxtəlif üslublarda və müxtəlif istiqamətli musiqilər səsləndirin. Bu, sizə onun musiqi zövqünü anlamağınıza kömək edəcəkdir. Sizin vəzifəniz uşağınızı musiqi ilə tanış etmək və musiqinin sonsuz və çoxşaxəli dünyası ilə onu tanış etməkdir [1].

**Emosional dinləmə bacarığı inkişaf etdirmək**. Yeniyetmələr və uşaqlar üçün musiqi duyğular aləmi ilə ayrılmaz şəkildə bağlıdır. Əgər yeniyetmələr melodiyaların həssas tərəfini daha asan və rahat başa düşə bilirlərsə, bu hal uşaqlarda o qədər də asan olmur və onlar bəzən köməyə ehtiyac duyurlar. Musiqini dinlədikdən sonra uşağınızla danışın: bu parçanın onda hansı əhval-ruhiyyə yaratdığını, musiqinin sözlərinin nə ilə bağlı olduğunu ondan soruşun.

**Uşaqla birlikdə musiqi dinləmək**. Valideynlə övladın ortaq şəkildə bir işi etməsi çox faydalıdır. Birlikdə dinləmək, birlikdə müzakirə etmək, fərqli melodiyaların səslərinə sevinmək və ya kədərlənmək təkcə musiqi zövqünü formalaşdırmaq üçün deyil, həm də ailə əlaqələrini möhkəmləndirmək üçün bir vasitədir.

**Cizgi filmləri vasitəsilə musiqi zövqünü aşılamaq**. Cizgi filmləri hər uşağın başa düşdüyü və sevdiyi bir aləmdir. Mükəmməl musiqi müşayiəti ilə cizgi filmləri seçərək, uşağınızın ecazkar musiqi dünyasında rahat olmasına kömək edəcəksiniz. Əgər uşaq kiçik yaşlarından keyfiyyətli musiqini tanısa, sonra yetkin və gənc yaşlarında bu musiqilərin qavrayışında problem yaşamayacaq.

**Uşaqları təbiət səsləri ilə tanış etmək**. Təbiət, uşağın səsləri dərk etməsinin ən bənzərsiz və universal yoludur, estetik və buna görə də musiqi zövqünün formalaşdırılmasında əla bir üsuldur. Suyun səsinə, yarpaqların xışıltısına, küləyin vıyıltısına və ya quşların oxumasına sakitlikdə qulaq asmağı öyrətmək musiqi dinləmək qabiliyyətini inkişaf etdirmək üçün ilk və əsas addımdır. Uşaqlar

nadir hallarda bu cür şeylərə təkbaşına diqqət yetirirlər və buna görə də valideynlər bu məsələdə onlara kömək etməlidirlər [1].

**Musiqi zövqünü inkişaf etdirmək üçün oyun fəaliyyətlərindən istifadə etmək**. Uşaqlar üçün (xüsusilə 7 yaşa qədər) əsas fəaliyyət növü oyundur və buna görə də müxtəlif oyunlar vasitəsilə uşağa yaxşı musiqini öyrətmək məntiqlidir. Üstəlik oyunlar rəqabət xarakteri daşıdığından, bu, öyrənməni daha maraqlı və asan edəcəkdir. Xatırlamaq lazımdır ki, uşaqlar oynayarkən də olduqca tez yorulurlar, buna görə də fəaliyyət növünü vaxtaşırı dəyişdirməyi unutmayın.

**Uşağı musiqi məktəbinə göndərmək**. Mütəmadi olaraq belə bir musiqi ocağını ziyarət etmək uşaqdan gələcəkdə dahi musiqiçi formalaşdırmaq kimi bir fikir yaratmasın. Bu, onun şəxsiyyətinin və yaradıcı xüsusiyyətlərinin inkişaf etməsi üçün kifayətdir və çox düzgün addımdır. Fərdin musiqi zövqünün tərbiyəsində həm ümumi didaktik, həm də xüsusi metod və üsullardan istifadə olunur. Məktəblilərin musiqi zövqünün əsas tərbiyə (inkişaf) metodları və vasitələri bunlardır: sənət, həvəskar yaradıcılıq, musiqi televiziyası və radio yayımları, audio və video məlumatlar, internet mənbələri, musiqi və digər sənət növləri haqqında suallara cavab verən, bəstəkarların, ayrı-ayrı ifaçıların, qrupların həyat və yaradıcılığını, musiqi əsərlərinin yaranma tarixini və s. təsvir edən çap olunmuş nəşrlər (jurnallar, kitablar, broşuralar).

**Məktəbdə musiqi təhsilinin ən vacib vəzifəsi şagirdlərdə musiqi zövqünü formalaşdırmaqdır**

Məktəbdə musiqi dərslərinin məqsədi şagirdlərin musiqi zövqünü tərbiyə etməkdir. Musiqi dərslərində müəllim uşaqları xalq musiqisinin ən yaxşı nümunələri, rus və xarici klassiklərin, o cümlədən müasirlərin əsərləri ilə tanış edir. İbtidai sinif uşaqlarında musiqi zövqünün tərbiyəsi üçün əsas olan klassik irsin inkişafıdır. Lakin yaxşı zövq yalnız klassik nümunələrdə deyil, yaxşı və pisin qarşı-qarşıya qoyulmasında da inkişaf edir. Buna görə də məktəbdə əyləncə musiqisinin səslənməsinə və dinlənilməsinə qadağa qoymaq olmaz. Lazımdır ki, müəllim müasir və dəbdə olan mahnıları uşaqlarla birlikdə dinləsin, mübahisə yaradaraq təhlil etsin və fikirlərini sübut etsin.

Beləliklə, şagirdlərin musiqi zövqünün formalaşması təhsil və inkişaf problemlərinin həllindən asılıdır. B.V. Asafyev, ümumtəhsil məktəblərində musiqi fənninin əsas vəzifəsini musiqi qavrayışının inkişafında, şagirdlərin

musiqi zövqlərinin tərbiyəsində görürdü. Lakin, onun fikrincə, dərs yalnız musiqi əsərlərini dinləməklə məhdudlaşmamalı, qavrayışın inkişafı üçün "musiqinin praktik mənimsənilməsi" də vacibdir. Dərs xor fəaliyyətləri zamanı daha uğurla həyata keçirilir, hansı ki, mahnıların ifası şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafına çox böyük kömək göstərir [4].

İbtidai sinif şagirdlərinin musiqi maraqlarının öz xüsusiyyətləri və çətinlikləri var. Aşağı sinif şagirdləri musiqini bilmək və anlamaq istəyirlər, lakin əksər hallarda onu dinləmək və qavramaq üçün kifayət qədər bacarıqlara sahib olmurlar.

Təəssüf ki, musiqi pedaqoji təcrübəmizdə, xüsusən musiqi təhsilinin ilk mərhələlərində qavrama məsələsinə kifayət qədər diqqət yetirilmir. Eyni zamanda, qavrayış inkişaf etmədiyi təqdirdə hər hansı bir musiqi fəaliyyəti ilə uğurla məşğul olmaq mümkün deyil.

İdrak təhsili yalnız müəllimin daimi rəhbərliyi ilə həyata keçirilə bilər. Uşaqlara musiqini şüurlu şəkildə qavramağı öyrətmək lazımdır ki, onu daha dərindən hiss etsinlər.

**Yaxşı musiqi zövqü nə üçün lazımdır?**

Musiqi zövqü insanların öz "mən"ini, şəxsiyyətini digərlərinə düzgün nümayiş etdirməkdə böyük rol oynayır. Alimlər hesab edirlər ki, musiqinin üstünlüklərini bilmək uşaq və yeniyetmələrin öz həmyaşıdları ilə münasibətlərində də öz təsirini göstərir. Və təbii ki, klassik musiqiyə olan sevgi insanı zəngin daxili aləmlə təmin edir və ətraf reallığı dərin qavramasına kömək olur. Ümumi anlamda insanda zövq anlayışı nə qədər yüksək özünü büruzə verirsə, bir o qədər də onların musiqiyə, təsviri incəsənətə, ədəbiyyata və s. münasibəti düzgün formalaşır [2].

Uşaqların əksəriyyəti kiçik yaşlarında adətən, valideynlərinin dinlədiyi musiqiləri dinləyirlər. Artıq yeniyetmə dövrünə gəldikdə isə müasir musiqilərə (pop, rok, estrada) üstünlük verirlər. Zövqü aşılamaq üçün ilk əvvəl yaxşı musiqi zövqü anlayışına nələr daxildir, onu araşdıraq. Ümumi qəbuledilmiş yüksək standartlara əsasən, təbii ki, bu, ilk növbədə klassik musiqidir. Klassika dövrün sınağından keçərək, öz harmoniyası, intonasiyasının nəcibliyi, çətin ritmikası ilə fərqlənir. Bütün bu səbəblərdən dolayı klassik musiqinin yüksək keyfiyyəti heç kimdə şübhə doğura bilməz. Klassik

musiqini, cazı dinləmək olar, ancaq musiqinin bu istiqamətinin böyük bilicisinə və fanatına çevrilməyə ehtiyac yoxdur.

Ukraynanın əməkdar artisti Lesya Qorovaya uşaqlarda musiqi zövqünün formalaşdırılması ilə bağlı şəxsi sirrlərini bölüşüb: “Mən öz böyük qızıma “100 bəstəkar” kitabında klassiklərin şəkillərini göstərirdim. O hər bir şəklə baxaraq onların kim olduğunu soruşurdu. Biz ona izah edirdik ki, bu Motsart əmidir, bu Bethoven dayıdır. Sonra mən onların əsərlərindən kiçik hissələri ifa edirdim. Hər gecə yatmazdan qabaq klassik musiqinin bu parçalarını mən layla əvəzi oxumalı olurdum, yoxsa uşaq yatmaq istəmirdi” [2].

Uşaqda əgər ideal musiqi zövqü varsa, lakin buna baxmayaraq o əgər primitiv motivlərdən ibarət şən uşaq mahnılarının ilk səslənməsini eşidən kimi rəqs edərək əylənirsə, bunu faciəyə çevirmək lazım deyil. Bu uşaqlıq dövrüdür. Və uşaqların bu yaş dövründə sadə və şən musiqinin təsiri altında əylənməsi daha yaxşı alınır.

Yeni doğulmuş uşağın musiqi zövqünü istiqamətləndirmək daha rahatdır. Kifayətdir ki, uşağa mütəmadi olaraq seçilmiş klassik əsərlərdən ibarət fon musiqiləri dinlədək. Əsas üstünlüyü maksimum sakit melodiyalara vermək lazımdır. Əsasən təbiət səsləri ilə vəhdət təşkil edən pozitiv ruhlu musiqilər daha yaxşı olar. Bəzi əsərlərin orkestrlə ifası uşağın qavraması və qəbul etməsi üçün çətin olar. Bunun üçün maksimum sadə, solo ifalara (fortepianoda, klavesində və s.) üstünlük vermək lazımdır. Əgər uşaq dinlənilən musiqiyə öz narazılığını qətiyyətlə bildirirsə, mütləq repertuarı dəyişmək lazımdır.

Uşağın yuxudan qabaq çarpayısı önündə səsləndirilən musiqi parçası gələcəkdə onda yüksək keyfiyyətli musiqi bazasının yaranmasına kömək olacaq. Bəlkə də, bəzi skeptiklər buna tənqidi yanaşacaqlar ki, uşağın razılığı olmadan sanki onun beyninə təzyiq edərək öz istədikləri musiqini yeritmək düzgün deyil. Lakin bu yanlış fikirdir. Yaddan çıxarmaq lazım deyil ki, hər bir valideyn körpə yaşlarından uşaqların yerinə qərar verərək onları istədikləri kimi geyindirir, yedizdirir, gəzməyə aparır və eyni zamanda da hansı musiqini dinləmək lazım olduğuna qərar verir. Ona görə də icazə verək ki, seçimimiz yüksək keyfiyyətli olsun [2].

Alimlər sübut ediblər ki, insan nə qədər çox klassik musiqi dinləyirsə, bir o qədər özünü yaxşı hiss edir. Hər bir insan körpəlikdən dinlədiyi musiqiyə reaksiya vermək bacarığına malikdir. Hətta demək olar ki, o musiqini ilk olaraq ana südü vasitəsilə həzm edir. Müasir alimlər gözəl, melodik, ritmik musiqinin insan ruhuna təsirini faktlarla sübut etmişlər. Hətta dahi Pifaqor musiqidən müalicəvi vasitə kimi istifadə edilməsini tövsiyə etmişdir. Məsələn, hesab edilir ki, Motsartın əsərləri beynin fəaliyyətini artırır və informasiyanın tez bir şəkildə qavranılmasına kömək edir.

Baş ağrısını aradan qaldırmaq üçün isə Bethovenin "Fidelio"su məsləhət görülür. Yuxusuzluğun ən yaxşı dərmanı kimi Çaykovskinin, Qriqin və Sibeliusun pyeslərini dinləmək məsləhət görülür. Vivaldinin "İlin fəsilləri" əsərinə qulaq asmaq isə yaddaşı yaxşılaşdırır [3].

Alimlərin gəldiyi nəticələrdən biri də odur ki, hər gün 10 dəqiqə Motsartın əsərlərini dinləmək uşağın IQ səviyyəsini 8-10 % artırır.

### Məktəb şagirdlərində musiqi zövqünün formalaşmasına təsir edən amillər

Bu gün musiqi zövqünün korlanması qlobal məsələlərdən biridir. Təbii ki burada ən ümdə səbəblərdən biri və ən başlıcası düzgün olmayan musiqinin təbliğatıdır. Əslində təbliğetmə hər hansı bir fikri, nəzəriyyəni, əqidəni və s.-ni geniş kütlələrə yazılı və ya şifahi surətdə yaymaq mənasını verir. Amma bəzən olur ki, insanlar təbliğatın həqiqi tərifini düzgün olmayan bir fikri, əqidəni və s.-ni başqasına inandırmaqla, ona təsir göstərməyə çalışmaqla səhv istiqamətə yönəldirlər. Bu gün musiqidə əsas problem də budur.

Bayağı musiqilərin televiziya efirləri, evdə, xüsusən də ictimai nəqliyyatda radio FM-ləri vasitəsilə geniş surətdə təbliği birmənalı olaraq nəinki azyaşlılarda, eyni zamanda böyüklərdə də öz mənfi təsirini göstərməkdədir. Əbəs yerə deyilməyib ki, insan hansı tip musiqiyə daha çox meyl edirsə, daha çox dinləyirsə, qeyri-iradi şəkildə ona aludə olur və o musiqini digər musiqi növlərindən fərqləndirərək tez -tez zümzümə edərək sevməyə başlayır. Hətta musiqi haqqında elmi bilikləri olmasa belə, ruhuyla onu daxilən hiss edir. Bu gün bayağı musiqilərin dinləyici kütləsi ciddi musiqilərin dinləyici kütləsindən dəfələrlə çoxdur. Təbii ki, bu, əsasən özünü yaş kateqoriyası olaraq məktəb şagirdləri və gənclər arasında daha çox büruzə verir.

Bunun da başlıca səbəbi yuxarıda qeyd etdiyimiz kimi, düzgün olmayan təbliğatdır. Hazırda “Mədəniyyət” kanalı və Azərbaycan Televiziyası keyfiyyətli musiqilər səsləndirən 2 seçilmiş televiziya kanalıdır.

Uşağın musiqi zövqünü məktəb, müəllim və valideyn bir yerdə formalaşdırmalıdır. Valideynin üzərinə düşən əsas vəzifə evdə öz uşaqlarını efirlərdə yayımlanan bayağı musiqilərdən uzaq tutmaq, uşaqları imkan daxilində tez-tez konsertlərə, muzeylərə, rəsm əsərləri sərgilərinə və başqa mədəniyyət ocaqlarına aparmaqdır. M. Maqomayev adına Dövlət Filarmoniyasında, Bakı Musiqi Akademiyasında, Beynəlxalq Muğam Mərkəzində çox gözəl konsertlər keçirilir. Opera və Balet Teatrında, Gənc Tamaşaçılar Teatrında, Kukla Teatrında tamaşalar qoyulur. Valideynlər mütləq şəkildə o konsertlərə, tamaşalara uşaqlarını aparmalıdırlar. Məktəb, musiqi müəllimləri isə valideynləri uşaqlarını bu konsertlərə aparmaları üçün yönəltməlidirlər, istiqamət verməlidirlər.

Musiqi dərslərində incəsənətin bütün sahələri üzrə uşaqlar məlumatlandırılmalıdır. Azərbaycan bir çox beynəlxalq festivalların təşkilatçısıdır. Hazırda şagirdlərin çoxunun ölkəmizdə keçirilən festivallardan, müsabiqələrdən xəbəri yoxdur. Məsələn, caz festivalları, Beynəlxalq muğam müsabiqələri, mahnı müsabiqələri və s. Həmin bu festivallara dünya şöhrətli musiqiçilər dəvət olunurlar. Musiqi müəllimləri bu haqda mütləq şəkildə uşaqlara məlumat verməlidirlər. Uşaqlar bu festivallardakı konsertlərə getdikdə, dünyagörüşləri də o musiqilərə görə formalaşır, inkişaf edir. Çünki bilmədikləri yeni əsərlər, müasir musiqilərin hamısı burada səslənir. Eyni zamanda, orada klassik musiqi nömrələri də səsləndirilir. Bundan sonra mümkün deyil ki, şagirdlərdə düzgün musiqi zövqü formalaşmasın.

Hər il sentyabr ayının 18-də dahi Üzeyir Hacıbəylinin anadan olması münasibətilə Musiqi gününün qeyd olunması mühüm hadisədir. Bizim məktəbin şagirdlərinin bəlkə də əksəriyyətinin bundan xəbəri yoxdur. Ölkədə baş verən musiqi hadisələri barəsində uşaqlar məlumatlı olsalar, bu onların təkcə musiqi zövqünün deyil, dünyagorüşlü, genişdüşüncəli bir şəxsiyyət kimi formalaşmasında da böyük rol oynayacaq.

Musiqi dərsliklərinə nəzər salaq. Dərsliklərdə demək olar ki, tərtibat çoxşaxəlidir. Burada Azərbaycan musiqisi ilə yanaşı, rus, Avropa və xarici

dünya klassik musiqiləri haqqında geniş məlumatlar var. Azərbaycan klassik musiqisi, aşıq musiqisi, muğamlar, Azərbaycan xalq rəqsləri, caz musiqisi, rok musiqisi və s. haqqında məlumatlar dərsliklərdə öz əksini tapıb. Amma gəlin görək, bunlar müəllimlər tərəfindən düzgün tədris olunurmu? Əminəm ki, olunmur. Şagirdin musiqi zövqünün düzgün formalaşmasında əsas yük müəllimin üzərindədir. Müəllim ilk əvvəl dərsliklərdə verilmiş musiqi nümunələrini, ya da onlardan müəyyən bir parçanı dərs zamanı şagirdlərə müxtəlif vasitələrlə təqdim etməlidir. Şagird mütləq o musiqi nümunələrini dinləməli, onlar haqqında öz düşüncələrini müəllimlə paylaşmalıdır. Burdan belə nəticəyə gəlmək olur ki, uşaq hər musiqi dərsində keyfiyyətli musiqini eşidəndən sonra bayağı musiqiləri artıq dinləməyəcək. Bunu əminliklə demək mümkündür. Çünki uşaq düzgün istiqamətləndirilsə, özü də bilmədən artıq klassik, keyfiyyətli musiqi onun beyninə, daha dəqiq desək, şüuraltına hopacaq. Beləliklə o, artıq bayağı musiqidən kənar olacaq.

Çoxsaylı insanlar adətən asan, tez yadda qalan bir məhsula üstünlük verirlər. Məsələn, radio dinləyicilərinin sayı efir tamaşaçılarının sayından daha çoxdur və hər bir insan evdə, yolda, iş zamanı radio dinləmək imkanına malikdir. Ona görə də radioda səsləndirilən musiqilərə xüsusi diqqət yetirmək lazımdır. Nə qədər çətin, mürəkkəb, daha az əlçatan musiqilər səsləndirilsə, bir o qədər maraqlı olar.

Umumiyyətlə, radio məhsullarının səviyyəsinin qorunması mütləqdir. Reytinq və mənfəət əldə etmək üçün heç bir halda yüngül musiqilərin təbliğinə yol vermək olmaz. Üstəlik, bir musiqi məhsulu nə qədər sadədirsə, inkişaf etmiş kütlənin mürəkkəb musiqiyə olan marağı o qədər yüksək olur. Zövqlər yaxşılığa doğru dəyişir və bu, əlbəttə dərindüşüncəli bir insan üçün sadədən mürəkkəbə doğru bir yoldur.

Musiqi sənayesi bütövlükdə xalqın təhsili və yaradıcılığını dəstəkləyən müxtəlif dövlət proqramlarından təsirlənməlidir. Məsələn, Çində musiqinin yayılması dövlət tərəfindən tənzimlənir. Əgər musiqi senzuradan keçməsə, mövcud gerçəkliyə əks təsir göstərsə və ümumilikdə neqativ təsirə malik olsa bu mahnıya həyat verilmir. Belə çıxır ki, musiqi zövqü milli səviyyədə tənzimlənə bilər.

80-90-cı illərdə Azərbaycanda Dövlət Televiziyasında fəaliyyət göstərən Bədii Şuranın da qayda-qanunları vardı, hansı ki, musiqi parçaları, onların mətnləri o qaydalara cavab verməsəydi, Bədii Şura həmin musiqilərin efir məkanına çıxışına imkan vermirdi. Çünki Bədii Şuranın üzvləri bəstəkar Tofiq Quliyev, xalq yazıçısı Anar və bu kimi digər peşəkar insanlardan ibarət idi.

Görkəmli bəstəkar Ramiz Mirişlinin bu mövzuyla bağlı müsahibəsindən bir parçanı təqdim etmək istəyirəm.

*- Ramiz müəllim, ən məşhur mahnılarınızdan biri olan "Dalğalar"ı 50 il bundan əvvəl, 1962-ci ildə yazmısınız. 50 ildir ki, bu mahnı könülləri dalğalandırır. Onu bəstələyərkən dənizə getmişdiniz, yoxsa dənizi qəlbinizə köçürmüşdünüz? (gülür). Onda cavan oğlan idim. Konservatoriyada oxuyurdum. Tələbə dostlarımla tez-tez dənizə gedirdik. Həmin mahnı o illərdə yarandı. İslam Səfərli ilə bir məhəllədə yaşayırdıq. Eşitmişdi ki, konservatoriyada oxuyuram, evinə çağırıb mənə "Dalğalar" adlı şeirini verdi, mən də ona musiqi yazdım. Bu, mənim ilk professional mahnım oldu. Mahnı hazır olan kimi ürəyimdən keçdi ki, onu Şövkət Ələkbərova oxusun. Şövkət xanıma zəng etdim, o da böyük məmnuniyyətlə təklifimi qəbul etdi. Mahnı çox xoşuna gəlmişdi. Ancaq o vaxtlar bədii şura vardı. Şeirdəki "çalxalanır dalğalar" sözünə görə mahnı birinci Bədii Şuradan keçmədi. Dedilər, bu, mahnı sözü deyil. O sözləri rəhmətlik İslam Səfərli "mirvari dalğalar" sözləri ilə əvəz elədi. "Dalğalar"ın taleyi uğurlu oldu. Bu günə kimi onu 30-dan çox tanınmış müğənni ifa edib. Bizim müğənnilərlə yanaşı, türk müğənniləri də bu mahnını ifa ediblər.*

Buradan belə nəticə çıxır ki, hətta peşəkar olmalarına baxmayaraq, hər sözün, hər fikrin, musiqinin melodiyasının, müşayiətinin, bir sözlə, sənətin tələb etdiyi hər bir incəliyin tələblərinə məsuliyyətlə yanaşılırdı. Belə olan halda təbii ki, dinləyici kütləsinin musiqi zövqü ilə bağlı problemi yaşana bilməzdi. Əgər bir insan daim zövqlü musiqi dinləyirsə, o buna vərdiş edir və hər zaman yaxşı musiqiləri dinləməyə tələbat duyur.

Alimlərin fikrincə, zövq şəxsiyyətin emosional və zehni tipindən, təbii meyllərindən, zehni fəaliyyətindən, yaşından və fərdi xüsusiyyətlərindən

asılıdır. Zövqün formalaşması bir insanın həyatı boyunca - xarici mühitin təsiri nəticəsində, təlim və tərbiyə prosesində baş verir.

Musiqi duyumu və musiqi zövqünün formalaşması nəinki insanın psixoloji durumunun göstəricisidir, bu həm də həmin cəmiyyətdə olan harmoniyanın təzahürüdür. Filosof Konfutsi deyirdi: "Əgər hansı bir ölkənin dövlət işlərinin və əhalisinin mənəvi vəziyyətini bilmək istəyirsənsə, onun musiqisini dinlə."

**Yuxarı sinif şagirdlərində düzgün və professional musiqiyə marağın formalaşdırılması və sevdirilməsi**

Böyük uşaqlarda musiqi zövqü düzgün olmasa da artıq formalaşmış olur. Buna görə də belə uşaqlara təzyiq edərək keyfiyyətli musiqiyə sevgi aşılamaq demək olar ki qeyri-mümkündür. Bu onun öz təbii arzusu ilə baş verməlidir. Və əgər elə bir arzu yaranıbsa, musiqi zövqünü inkişaf etdirmək üçün bir sıra tövsiyələrə əməl etmək lazımdır.

Dünya üzrə ümumi qəbuledilmiş şedevr musiqilərlə şagirdi tanış edin. Qoy ətrafında olan insanların fikrini dinləməkdən çəkinməsin. Bu o uşaqlar üçün aktualdır ki, düzgün istiqamətli musiqi ilə tanış deyil və bunun üçün öz zövq çərçivəsini genişləndirmək istəyir. Lakin yolunu  bilmir.

Gün ərzində 1 saatdan az olmayaraq musiqi dinlətməyə çalışın. Hər gün davamlı olaraq bunu etmək onlarda vərdiş yaradacaq və şəxsi zövqün inkişafına müsbət təsir edəcək.

Musiqi dinlədiyi zaman heç bir əlavə işlə məşğul olmaması haqda təlimatlandırın. Musiqini anlamaq və düzgün qiymətləndirmək üçün tam olaraq ona nüfuz etmək lazımdır.

**Musiqiyə düzgün formada qulaq asmağı öyrədin**

Adama elə gəlir ki, musiqini dinləməkdən asan heç nə yoxdur. Lakin bu belə deyil. Bir sıra qayda-qanunlar vardır ki, musiqi dinləyərkən onlara mütləq əməl etmək lazımdır [1].

***Səbirli olmaq.*** 1saat musiqi dinləmək hamı üçün heç də asan deyil. Lakin bunu etmək vacib məsələdir. Hətta əgər musiqi onun ürəyincə deyilsə, bu hələ o demək deyil ki, şagird onu qavramayacaq.

***Əvvəlcədən dinlədiyi musiqinin şagirddə anidən zövq formalaşdıracağı ümidverici bir fikrə qapılmamaq.*** Şagird tez bir müddətdə bu musiqinin onda hansısa effekt yaradacağını düşünsə, bu onun üçün xəyal qırıqlığı

olacaq və ola bilsin ki, hətta bütün həvəsini öldürəcək. Ümumiyyətlə, hər bir ayrı melodiya eyni insana müxtəlif situasiyalarda müxtəlif cür təsir göstərə bilər.

***Musiqidən zövq almağa çalışmaq***. Əgər dinlədiyi bir kompozisiya şagirdin ürəyincə deyilsə, digər melodiyaların da bu istiqamətdə olacağını düşünmək yanlışdır. Musiqi insana bənzərdir - eynilik anlayışı demək olar ki yoxdur [1].

Musiqi zövqü insana Allah tərəfindən verilmiş hədiyyədir. Bununla belə, musiqi təhsilinin olması musiqi zövqünün olmasının qarantı kimi hesab oluna bilməz. Bir az əvvələ qayıtsaq görərik ki, musiqi tarixi təkcə parlaq ziyalıları deyil, həm də Çaykovskinin vokal musiqisini bəyənməyən Sezar Küi kimi tənqidçiləri də tanıyırdı. Küi hətta hesab edirdi ki, Çaykovski ümumiyyətlə vokal musiqisi yazmasa yaxşıdı.

Musiqi zövqü insana əbədi olaraq verilmir - bu şərtidir. İnsanın zövqü yaranışdan 10% ola bilər, lakin sonradan qalan 90% -i əldə edilə bilər. Buna baxmayaraq, hər bir insan ana bətnində olarkən artıq müəyyən hisslərə, musiqi ritminə və xarakterinə malik olmuş olur ki, bu da ananın hamiləlik dövründə dinlədiyi musiqilərdən birbaşa asılıdır. Hətta bir neçə müddət keçdikdən sonra insan müəyyən yaşlarda bu musiqiləri eşitdikdə o özü də hiss etmədən yaşadığı ruh halı - vəziyyəti ilə rezonans təşkil edir, yəni səsləşir.

Qeyd etmək lazımdır ki, kütləvi pop mədəniyyəti uşaqlarda və gənclərdə ləkələnmiş musiqi zövqü yaradır. D.B.Kabalevski hesab edirdi ki, inkişaf etmiş bir zövq şagirdlərə müasir musiqi həyatının yeniliklərini anlamalarına kömək edəcəkdir. "Ədəbsizliyə qarşı immuniteti" inkişaf etdirmək üçün kiçik yaşlarda klassik, müasir və xalq musiqisinə marağı oyatmaq lazımdır, daha sonra artıq yeniyetmə çağlarında uşaqlar özləri ciddi sənətin cazibəsini və gözəlliyini anlamağa başlayacaqlar [3].

Sənət aləminə, ciddi musiqi dünyasına qədəm qoyanların çoxu üçün əvvəlcə bu anlaşılmaz və hətta uzaq görünür. Ona görə də ciddi musiqi ilə ilk tanışlıq müddəti uzun olmamalıdır ki, bu uşaqlarda qorxu və antipatiya yaratmasın.

Bu gün məktəb şagirdlərinin qarşısında duran ən böyük problemlərdən biri musiqi zövqünün korlanması və bunu korlayan amillərdir. Bu amillərin ən əsası bayağı musiqilərin sürətlə yayılması və məktəb şagirdləri arasında sevilərək ifa olunmasıdır. Ətraf mühitin təsirinə gəldikdə isə bu birbaşa olaraq efirlərin, ictimai nəqliyyatın bu cür musiqiləri geniş formada təbliğ etməsi ilə əlaqədardır. Problemin aradan qaldırılması üçün məktəb şagirdlərinin musiqi zövqünü düzgün formalaşdırmaq və professional musiqini sevdirmək birbaşa müəllimin üzərinə düşən əsas vəzifələrdən biridir.

Yuxarı sinif şagirdlərində düzgün və professional musiqiyə marağı formalaşdırmaq üçün ilk növbədə müəllimin özünün düzgün formalaşmış musiqi zövqü olmalıdır ki, o bu mövzu ətrafında şagirdlər arasında haqlı müşahidələr apara bilsin. Yalnız bundan sonra müəllim düzgün və ciddi musiqi haqqında biliklərini şagirdlərlə bölüşə bilmək haqqına malik olan bilər.

**İstifadə edilmiş ədəbiyyat**


1. Zavodila "Как воспитать музыкальный вкус и как правильно слушать музыку".

2. https://zavodila.com/otdyx/psychology/lichnost/kak-vospitat-muzy kalnyj-vkus-i-kak-pravilno-slushat-muzyku/

3. Как развить музыкальный вкус у ребенка. Фраза: https: //fraza. com/analytics/248268-kak-razvit-muzykalnyj-vkus-u-rebenka-

4. Формирование музыкального вкуса у школьников. *Резвицкая Ольга Викторовна, учитель музыки, ГБОУ СОШ №570, г.Санкт-Петербург* https://nsportal.ru/kultura /muz ykalnoe-iskus stvo/ library/ 2017/02/13/formirovanie-muzykal nogo-vkusa-u-shkolnikov

5. "Формирование музыкального вкуса у школьников 5-7 классов на уроках музыки" учитель МОУ ООШ с. Благодатное Пилюгина Г.В., Саратов 2016.

6. https://infourok.ru/formirovanie-muzikalnogo-vkusa-u-shkolnikov-klassov-na-urokah-muziki-1224861. html

*Kitab “CN POLİGRAFİYA” Məhdud Məsuliyyətli Cəmiyyətində səhifələnmiş və çap olunmuşdur.*

_______________________________________

Çapaimzalanıb: 01.12.2022
Format: 70x100 1/16. Həcmi: 6,25 ç.v. Tiraj: 520.
Sifariş *№ 38*.

AZ 1006, BAKI, Nərimanov rayonu, K. Rəhimov küçəsi 865,
bina 22c, mənzil 3
Tel./faks: (012)4652471
*e-mail: cn_poliqraf@mail.ru*